Hər kəs ədalətli olacaq

ƏDALƏT

# Mehriban Əliyevadan tapşırıq

## Zəlzələdə həlak olanların ailələrinə maddi yardım göstərilir



**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ zamanı həlak olan azərbaycanlıların ailələrinə maddi yardım göstərilir.**

Adalet.az xəbər verir ki, çoxsaylı insan tələfatına səbəb olmuş faciə nəticəsində Adıyaman, Kahramanmaraş və Malatyada həlak olanlar arasında azərbaycanlılar da var idi. Həlak olmuş soydaşlarımızın ailələrinə dəstək məqsədilə hazırda Heydər Əliyev Fondu tərəfindən 10 min AZN məbləğində maddi yardım verilir.

# Ərdoğan: “Heç kimin göz yaşına baxmayacağıq”



**”Həyat itkisində səhlənkarlığı, təqsiri və ya niyyəti olanlar varsa, onlar qanun qarşısında cavab verəcək”.**

Adalet.az ”Anadolu” Agentliyinə istinadla xəbər verir ki, bunu Prezident Rəcəb Tayyib Ərdoğan Osmaniye Fəlakət Koordinasiya Mərkəzində çıxışı zamanı deyib. ”Heç kimin göz yaşına baxmayacağıq”, - deyə Ərdoğan vurğulayıb.

# Akar: Hərbçilər zəlzələdən sonra dağıntılar altından 304 nəfəri sağ çıxarıb



**Türk Silahlı Qüvvələrinin hərbçiləri ölkənin cənub-şərqində baş verən zəlzələdən sonra dağıntılar altından 304 nəfəri sağ çıxarıb.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə milli müdafiə naziri Hulusi Akar bildirib. O, bundan əlavə, 2 250 şəxsin cəsədinin də hərbçilər tərəfindən dağıntılar altından çıxarıldığını qeyd edib.

Nazir Akarın sözlərinə görə, 65 təyyarə və 70 helikopter vasitəsi ilə hava dəhlizi yaradaraq, bölgəyə humanitar yardımın çatdırılması, axtarış-xilasetmə işlərinə dəstək təmin edilib.

# Nazir müavini parlamentdə hesabat verdi



**Milli Məclis Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı 2022-ci il üzrə məruzəni təsdiqləyib.**

Adalet.az xəbər verir ki, məruzə parlamentin iclasında müzakirə edilib Məruzədə qeyd edilib ki, 2022-ci il ərzində yerli büdcə vəsaitlərinin səmərəli istifadə olunması, bələdiyyə əmlakının (o cümlədən torpaqların) idarə edilməsi sahəsində qanunçuluğun və şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması üzrə inzibati nəzarət qaydasında tədbirlər görülüb. 2022-ci ildə inzibati nəzarət tədbirləri çərçivəsində ümumilikdə 14 min ha torpaq sahəsinin qanunsuz ayrılması ilə bağlı bələdiyyə aktlarının ləğv edilməsi məqsədilə Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrə təklif və ya məhkəmələrə iddialar verilib.

2022-ci il ərzində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 95.466 (o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində-2.848) bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə 91.307 (95,6%) aktın qanunvericiliyə uyğun olduğu müəyyən edilib.

**Müzakirələrdən sonra məruzə səsverməyə qoyularaq təsdiq edilib.**

*Minayə Əliyeva*

# Ləyaqət rəmzi Fəttah Heydərov

Bax:səh-3

# Sahibə Qafarova Avropa Parlamenti sədrinin məktubuna cavab verdi



**Milli Məclisin sədri Sahibə Qafarova Avropa Parlamentinin sədri Roberta Metsola tərəfindən ona ünvanlanmış məktuba cavab verib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən Adalet.az-a verilən xəbərə görə, Milli Məclisin sədri cavab məktubunda bildirib ki, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı yüksək səviyyəli münasibətlər və bu münasibətlərin daha da inkişaf etdirilməsi perspektivləri fonunda hakimiyyətin qanunverici qolları arasında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Milli Məclisi həmişə Avropa Parlamenti ilə qarşılıqlı fəaliyyətin dərinləşməsinə hazır olduğunu nümayiş etdirib. Sahibə Qafarova məktubda Avropa Parlamenti sədrinin təmsil etdiyi qurumun Milli Məclislə qarşılıqlı hörmət ruhunda yaxşı münasibətlər qurmağa davam etmək öhdəliyinə dair sözlərini müsbət qiymətləndirib.

Bununla belə, Azərbaycan parlamentinin sədri qeyd edib ki, beynəlxalq əməkdaşlıq mexanizmlərində də təmsil olunan parlament üzvlərimizin öz səlahiyyətlərinə daxil olan məsələlər barədə fikirlərini sərbəst ifadə etmək hüququ var. Parlamentimizdə senzura qəbuledilməzdir.

Cavab məktubunda deyilir ki, Milli Məclisin Avropa İttifaqı - Azərbaycan Parlament Əməkdaşlıq Komitəsindəki (PƏK) nümayəndələri avropalı tərəf müqabilləri ilə dialoqun daha da genişləndirilməsi niyyətinə əsaslanaraq, öz həmkarları ilə fəal ünsiyyətdə olub və qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəlmiş yeni təşəbbüslər üzərində çalışıblar: "Biz Avropa Parlamenti tərəfindən də eyni səviyyədə münasibət görmək istərdik. Qərəzli bəyanatlarda və qətnamələrdə ifadə olunan yalan, qərəzli və birtərəfli ittihamlar konstruktiv tənqid kimi qəbul edilə bilməz və yuxarıda ifadə olunan məqsədlərə xidmət etmir. Həmçinin, PƏK Milli Məclislə Avropa Parlamenti arasında birgə səylər vasitəsilə əməkdaşlığın möhkəmləndirilməsinə kömək edən platforma olmalıdır".

Parlamentin sədri iki qurum arasındakı əməkdaşlığın qarşılıqlı etimad və anlaşma əsasında güclənəcəyinə ümidvar olduğunu bildirib.

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 8 (6001) 25 fevral 2023-cü il | Qiyməti 40 qəpik

# AZƏRBAYCAN DİLİ DÖVLƏT DİLİMDİR, MƏNƏVİ VARLIĞIM, QEYRƏT DİLİMDİR...



**İki tanınmış siyasətçi qardaşlar var, hərəsi də bir partiyanın sədridi. İllər öncə qardaşlardan biri ortaya belə bir təklif atmışdı ki, Azərbaycanla Türkiyə birləşsin, bir dövlət olsun.**

Mən də yarızarafat, yarıciddi belə bir cavab yazmışdım ki, hələ iki qardaş bir partiyada birləşin, sonra iki dövləti birləşdirərsiz. Bərk xətirlərinə dəymişdi, hətta mənimlə haqq-salamı da kəsmişdilər. İndi yenidən xətirlərinə dəyməmək üçün adlarını yazmıram.

İndi dəyərli dostumuz Şahbaz Xuduoğlu belə bir təkliflə çıxış edib ki, Azərbaycanın dövlət dili Türkiyə türkcəsi olsun. Bu da ziyalıların arasında böyük bir haqlı narazılıq yaradıb. Hələ sağ olsun ki, o da deməyib ki, Azərbaycanla Türkiyə birləşsin, bir dövlət olsun.

Qaldı ortaq türk dilinə. Türk dilləri arasında ən saf, ən təmiz və bütün türk xalqlarının başa düşdüyü dil - Azərbaycan dilidir: Şah İsmayılın dilidir, Nəsiminin dilidir, Vaqifin dilidir, Aşıq Ələsgərin, Aşıq Şəmşirin dilidir, Səməd Vurğunun dilidir və bir də analarımızın, nənələrimizin dilidir.

# DTX İŞİD-in "mühasibi"ni həbs etdi



**Dövlət Təhlükəsizliyi Xidmətində keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində Azərbaycan Respublikasının vətəndaşı Salahov Mircavad Seyidağa oğlu ”İŞİD” terror təşkilatının üzvü kimi terrorçuluğun maliyyələşdirilməsi cinayət əməllərini törətməkdə şübhəli bilinərək saxlanılıb.**

**DTX-dan Adalet.az-a verilən xəbərə görə, Mircavad Salahov Suriya Ərəb Respublikasının Raqqa şəhərində ”İŞİD” terror təşkilatının sıralarına qoşularaq xüsusi təlim düşərgəsinə göndərilmiş, döyüş təlimlərində iştirak etməklə odlu silahdan istifadə qaydalarına yiyələnmişdir. Daha sonra o, ”İŞİD” terror təşkilatında mühasib kimi fəaliyyətə başlamış, bu müddət ərzində silahlı münaqişələrdə iştirak edən həmin terror təşkilatının üzvlərinə və onların ailələrinə aylıq pul vəsaitləri və ərzaq təminatının verilməsi, silahlı münaqişələr zamanı yaralanmış bu təşkilatın üzvlərinə və həlak olmuş şəxslərin ailələrinə maddi yardımların ayrılması işinin təşkili istiqamətində fəaliyyət göstərmiş, cinayət məsuliyyətindən yayınmaq məqsədilə bir müddət digər ölkələrdə gizlənib.**

**Həmçinin müəyyən edilmişdir ki, Salahov Mircavad Seyidağa oğlu ”İŞİD” terror təşkilatına qardaşı Salahov Mircəlal Seyidağa oğlu tərəfindən cəlb olunmuşdur. Mircəlal Salahov sözügedən terror təşkilatının Suriya Ərəb Respublikasında apardığı hərbi əməliyyatlarda iştirak edərək yaralanıb.**

**Cinayət işi üzrə Mircavad Salahov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-1-ci (terrorçuluğu maliyyələşdirmə) və 283-1.3-cü (ölkə hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmə), Mircəlal Salahov Cinayət Məcəlləsinin 281-1.1 və 283-1.3-cü (ölkə hüdudlarından kənarda silahlı münaqişələrə cəlb etmə və belə silahlı münaqişələrdə iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilib.**

**Hazırda kompleks istintaq-əməliyyat tədbirləri davam edir.**

# İran vətəndaşının narkokuryerliyə cəlb etdiyi dəstə üzvləri Bakıda tutuldular

**Xəzər Rayon Polis İdarəsinin 3-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyatlar zamanı Binə qəsəbəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan dəstə üzvləri saxlanılıblar.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az-a verilən xəbərə görə, əməliyyat nəticəsində Elnur Əsədov və onun başçılıq etdiyi dəstənin daha 7 üzvü tutularaq istintaqa təqdim edilib.

Araşdırmalar zamanı Elnur Əsədovun sosial şəbəkələrdə tanış olduğu şəxsiyyəti məlum olmayan İran vətəndaşının göstərişi ilə paytaxt ərazisində narkokuryerliklə məşğul olan dəstə yaratdığı müəyyən olunub. Əməliyyat-texniki tədbirlər nəticəsində Elnur Əsədovun İran vətəndaşı ilə narkotik vasitələrin alqı-satqısı nəticəsində yaranan əlaqələri sübuta yetirilib. Həmin şəxsin evinə və avtomobilinə baxış zamanı 1 kiloqrama yaxın heroin və metamfetamin aşkar edilib. Xəzər Rayon Polis İdarəsinin 3-cü Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri digər əməliyyatlar zamanı isə Binə və ətraf ərazilərdə 5 evdən, mağazadan, həmçinin Hövsan qəsəbəsində 9 avtomobildən oğurluq edən İlqar Zamanov və Fuad Qasımov da saxlanılıblar.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, 3-cü Polis Şöbəsinin əməkdaşlarının ilin əvvəlindən həyata keçirdikləri əməliyyatlar zamanı Binə və ətraf ərazilərdə narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan ümumilikdə 26 nəfər tutularaq istintaqa təqdim edilib.

# Zəlzələdən sonra neçə uşaq kimsəsiz qalıb?

**Türkiyədə ard-arda baş vermiş zəlzələlərdən sonra dağıntılar altından 1874 kimsəsiz uşaq çıxarılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi məlumat yayıb. Rəsmi məlumata görə, tapılan 1353 uşaq ailələrinə təhvil verilib. Eyni zamanda 99 uşaq azyaşlılar üzrə müəssisələrin himayəsinə göndərilib. Bildirilib ki, xəsarət alan 422 uşaq müalicə müəssisələrində müalicə alır. Uşaqlardan 1 768-nin şəxsiyyəti bilinsə də, onlardan 106-nın şəxsiyyəti müəyyən edilməyib.

Qeyd edək ki, fevralın 6-da Türkiyədə baş vermiş zəlzələlərdə 43556 nəfər həlak olub.

# BUŞUN BURCUTMAĞI GÜRCÜSTANA DÜŞMƏDİ

**ABŞ-ın sabiq prezidenti Buş da yekə-yekə Gürcüstana səfər eləmişdi və Tiflisdə bir mərasimdə burcuda-burcuda oynamışdı. Amma o səfər Gürcüstana düşmədi. Gürcüstan torpaqlarını itirdi, Saakaşvili də hakimiyyətini.**

İndi Bayden Kiyevə səfərə gəldi. Zelenski ilə görüşdü, Rusiya ilə müharibədə həlak olanların abidələrinə çələng qoydu .

Düzdür, Buş kimi səfehcəsinə burcuda-burcuda oynamadı, amma Allah axırını xeyir eləsin.

Görək, Rusiyanın cavabı buna nə olacaq?



*RAUF QƏRİB ALAGÖZ*

# HAY-KÜY SALANLAR

*Düzdür, şairə, jurnalistə ev verilməsinin tərəfdarı deyiləm. Amma məmurların yüzlərlə evi, obyektinə susanların, büdcəni talamasına səs çıxarmayanların şairə bir ev verildi deyə hay-küy salması da ayrı gülməlidir. Halbuki həmin hay-küy salanlar bir neçə ay əvvəl Əlisa Nicata niyə verilmir deyə hay-küy salmışdı.*

# TƏLƏBƏLƏRƏ ŞAD XƏBƏR

**Axır ki tələbələrə güzəşt olundu.**

**Marketlərdə 100 manatlıq məhsul alana və tələbə biletini göstərənə bir ədəd 5 qəpiklik sellofan 3 qəpiyə veriləcək.**

**Day nə etsinlər ki, sizin üçün, əziz tələbələr, gedin kef edin.**

# DÜNYANIN "VORZAKON" DÖVLƏTLƏRİ ZELENSKİYƏ DEYİB Kİ...

**Dünyanın "Vorzakon" dövlətləri, yəni ABŞ başda olmaqla Avropanın özündənrazı dövlətləri Zelenskiyə deyiblər ki, sən qorxma. Ukraynada son ukraynalı qalanadək sənə silah-sursat, tank, raket, təyyarə nə qədər lazımdır göndərəcəyik. Rusiya Ukraynanı yer üzündən silsə də, özü də məhv olacaq, yəni dalı üstə düşəcək. Ondan sonra Avropaya qaçmış on milyon ukraynalını təzədən qaytaracağıq geri, Ağdam şəhərinin gününə düşmüş Ukrayna şəhərlərini bərpa etsinlər.**

Amma bir şeyi unudurlar ki, ruslar heç vaxt avropalılar kimi yağbal içində yaşamayıb. Nə qədər kələm var, kartof var, su var və araq var rus xalqı acından ölməyəcək.

"Vorzakon" dövlətlər yığışıb bir "sxodka" apararaq iki qardaşı barışdırmaq əvəzinə, bir-birlərinə qırdırırlar.

# ŞAHA VAR-YOX SÖYÜŞÜ EDİBMİŞ!

**Ağdamın Ağdam vaxtı şəhərdə Dövlət Dram Teatrı fəaliyyət göstərirdi. Teatrda maraqlı aktyorlar çalışırdı. Onlardan biri də Artist İbrahim idi, el arasında Artist İrvahım deyirdilər. Rəhmətlik Fazil Salayev kimi çox komik bir sənətkar idi, bir az da tələsik danışırdı.**

Deməli, Səməd Vurğunun ”Vaqif” pyesi gedir, o yerdi ki, Qacar Vaqifin edamına fərman verir və Vaqifi oğlu ilə bərabər aparırlar Cıdır düzünə.

Artist İbrahim cəllad rolunda oğlu ilə bərabər edama hazırlıq görür. Oğlu soruşur:

***- Ata, şah bu şairi niyə edam etdirir?***

Artist İbrahimin deyəcəyi sözlər qəfil yadından çıxır, amma özünü itirmir və deyir:

***- Şaha var-yox söyüşü edibmiş.***

İndi Vardanyanla Araik Aratunyan yola getmir və yazılanlara görə fevralın 23-də Araik Vardanyanı işdən çıxaracaq. Hamı da bunların düşmənçiliyinin səbəbini müzakirə edir.

**Xankəndindəki etibarlı mənbədən aldığımız məlumata görə, Vardanyan Araikə var-yox söyüşü edibmiş!**

*Nicat Novruzoğlu*

# Qanlı günün köşəsi

Bax:səh-3

# ALLAH ƏMİR TEYMURA LƏNƏT ELƏSİN



**Ermənistan "müstəqilliyini" qazanandan onun sərhədlərini qorumağa özünün dalı çatmadı, Rusiyanı dəvət elədi. Bu günədək də sərhədlərini ruslar qoruyurdu.**

İndi görürlər ki, Rusiyanın vəziyyəti anqlo-sakscadı, daha ruslara etibar etmirlər. Gedib böyük bacıları fransızlara sığınıblar və indi də fransızlar Ermənistana yüz müşahidəçi, yəni jandarm göndərib, bircə anbardar Məmmədxanın yeri əskikdi. Yazılanlardan belə məlum olur ki, o da gələcək, dalınca da yenə bir sürü fransız gətirəcək. Gələn fransızlar da Azərbaycanla Ermənistanın hələ dəqiqləşdirilməmiş sərhədində yerləşdiriliblər.

Və özləri kimi "qədimi" olan fransızlara arxayın olub həm Naxçıvan istiqamətində, həm də Tovuz, Kəlbəcər, Gədəbəy, eləcə də Şuşa istiqamətində bizim əraziləri atəşə tutublar. Həm rus, həm də fransız sülənənməramlıların gözü qarşısında. İndi görək Fransa ermənilərin bu fahişəliyinə nə don geyindirəcək?

Vaxtilə Şah babamız Əmir Teymur erməniləri qırırmış, sonra bu qırğını saxlayıb və deyib ki: "Erməniləri yer üzündən silərdim, amma fikirləşdim ki, gələcək nəsillər mənə lənət oxuyacaq ki, bir xalqı yer üzündən silmişəm. Ona görə bir az saxlayıram ki, gələcək nəsillər görsün ki, mən erməniləri qırmaqda haqlıymışam".

Ya Əmir Teymur, Allah sənə lənət eləsin (ruhun məni bağışlasın), tarixdə çox böyük səhvlərin olub, biri də ermənilərə güzəştə getməyin. İndi saxladığın ermənilər sənin özünün gələcək nəsillərinin başına bəla olublar.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

# TÜRK MİN İLLƏRİN GÜN İŞIĞIDIR



***Qardaş ölkədə yenə ard-arda zəlzələ olub - Hatay vilayətində. Uçqunlar və yaralılar var.***

***Qardaşlarımızın başına böyük fəlakət gəldi. Bu fəlakət təkcə Türkiyə türklərini deyil, bütün dünya türklərini, xüsusilə də azərbaycanlıları bərk sarsıtdı. Hələ də özümüzə gələ bilmirik. Dünyanın qeyri-türk ölkələri də Türkiyəyə kömək əlini uzatdı, sağ olsun.***

***Məni ən çox narahat edən Türkiyənin daxilində müxalif siyasətçilərin bu fəlakətdən istifadə edib sayın cümhurbaşkanımız Ərdoğana qarşı birləşib kampaniya aparmaları oldu. Yəni bu fəlakət türk xalqını təkürək etsə də, müxalif siyasətçiləri, ABŞ-ın və SOROS-un cocuqlarını təkürək edə bilmədi. Təəssüf. Elçibəyin sözü olmasın, fəlakətə uğramış bir dövlətin başçısı sayın Ərdoğanı sağdan da vururlar, soldan da.***

***Türkiyə bu fəlakətdən qurtulacaq, özü də sayın Ərdoğanın cümhurbaşkanlığı ilə.***

Bax:səh-2

# GÜNÜN LƏTİFƏSİ



**Kəndlərin birində 32 yaşlı müəllimənin 18 yaşlı şagirdə qoşulub qaçması xəbərini eşidən məktəb direktoru növbədən kənar iclas keçirir.**

40-50 yaşlı müəllimələrə:

**- Məndən xəbərsiz bir addım da atmırsınız, bundan sonra sizi məktəbə qardaşlarınız aparıb gətirəcək!**

Yaşlı müəllimələrdən biri:

**- Müdir, mənim qardaşım 10 ildi rəhmətə gedib.**

Müdir:

**- Kəs səsini, sən indidən qaçmağa bəhanə axtarırsan!**

# İlham Əliyev Küveyt Əmirini təbrik etdi



**Azərbaycan Prezidenti İlham Əliyev Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabaha təbrik məktubu ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrik mətnində deyilir:

"Əlahəzrət,

25 Fevral - Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Azərbaycan Küveytlə güclü İslam həmrəyliyinə əsaslanan dostluq və əməkdaşlıq əlaqələrinə böyük önəm verir. Əminəm ki, Azərbaycan-Küveyt münasibətlərini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızın potensialından tam bəhrələnmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah arzulayıram".

# İlham Əliyev estoniyalı həmkarını təbrik etdi

**Azərbaycan Prezidenti İlham Əliyev Estoniya Respublikasının Prezidenti Alar Karisə təbrik ünvanlayıb.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli cənab Prezident,

Estoniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Estoniyanı dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, xoş ənənələrə malik əlaqələrimizin inkişafı, əməkdaşlığımızın genişləndirilməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram".

# *Azərbaycan XİN-dən Paşinyanın fikirlərinə reaksiya*

**Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın Beynəlxalq Ədalət Məhkəməsinin qərarı ilə bağlı 23 fevral 2023-cü il tarixli şərhləri məhkəmənin qərarı ilə tərs-mütənasibdir və Ermənistan tərəfinin növbəti dəfə arzularının reallıq kimi təqdimatı cəhdidir.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan XİN-in Ermənistanın Baş naziri Nikol Paşinyanın Beynəlxalq Ədalət Məhkəməsinin qərarı ilə bağlı bəyanatına dair şərhində bildirilib.

"İlk növbədə qeyd edək ki, Baş nazir Paşinyanın guya Məhkəmənin Laçın yolunun bağlandığına dair iddianı qeydə aldığı barədə şərhi heç bir şəkildə Məhkəmənin müvəqqəti tədbirlər barədə qərarının əsaslandırıldığı mətnlə üst-üstə düşmür və qərarda yolun bağlandığı qeyd olunmur.

Bir qrup azərbaycanlı eko-aktivistlərin Xankəndi-Laçın yolunda keçirdiyi etiraz aksiyalarının guya "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və s. kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə Ermənistanın iki əsas iddiasının Məhkəmə tərəfindən rədd edilməsini qəbul edə bilməyən Baş nazirin Məhkəmənin məsələ ilə bağlı əsaslandırmasını təhrif etməsi təəssüf doğurur.

Laçın yolunda Azərbaycanın vəzifələrinin nədən ibarət olduğu barədə məsələni şərh edən Ermənistan Baş naziri görünür ki, hələ də 10 noyabr 2020-ci il tarixli Üçtərəfli bəyanatında Azərbaycan Respublikasının Laçın yolu üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verməsi barədə müddəanı düzgün anlamayıb. Azərbaycanın Laçın yolunda hərəkətin təhlükəsizliyinə zəmanət verməsi yoldan sui-istifadə hallarına imkan yaradılması kimi anlaşılmamalıdır və Azərbaycan tərəfinin buna imkan yaratmayacağı dəfələrlə bəyan olunub.

Ümumiyyətlə, Beynəlxalq Ədalət Məhkəməsinin guya Ermənistanın vəsatətini təmin etdiyi barədə əsassız iddia ilə bağlı qeyd edək ki, Məhkəmənin müvəqqəti tələbi Ermənistanın tələbi ilə eyni deyil və Məhkəmənin qənaəti budur ki, Azərbaycan "fasiləsiz hərəkəti təmin etmək..." əvəzinə "öz ixtiyarında olan bütün tədbirləri görməlidir". Məhkəmə eyni zamanda, Ermənistanın yol boyu hərəkətin "sərbəst" olması və "bütün" şəxslər, yük və nəqliyyat vasitələri üçün təmin olunması ilə bağlı iddiasını da qəbul etməyib. Bununla, Məhkəmə Azərbaycanın mövqeyinə əlavə olaraq dəstək verərək, Laçın yolu ilə hərəkətin Ermənistanın iddia etdiyi kimi "azad", yəni heç bir nəzarət olmadan həyata keçirilməsi barədə Ermənistanın tələbini rədd edib.

Məhkəmə öz qərarında Azərbaycanın səlahiyyətləri daxilində Laçın yolu boyunca hərəkətin təhlükəsizliyinə zəmanət verilməsi üzrə sərəncamında olan bütün addımları atdığı və atacağına dair, habelə 10 Noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirdiyi barədə Azərbaycanın səylərini nəzərə alıb. Ermənistan Baş nazirinin minalar ilə bağlı Məhkəmə qərarını təhrif edən açıqlaması isə göstərir ki, Ermənistan tərəfi bu məsələdə yenə də öhdəliyi öz üzərindən atır. Halbuki, Məhkəmədə dinləmələr bir daha göstərib ki, Ermənistan mina istehsal etmədiyi və basdırmadığı barədə beynəlxalq təşkilatlara açıqladığı hesabatlar yalan üzərində qurulub.

Qərardan göründüyü kimi, Ermənistan tərəfindən minaların yerləşdirilməsinin müvəqqəti tədbirlərin tətbiq dairəsinə uyğun olmamasına dair əvvəl gəldiyi nəticəyə yenidən baxılmaması mahiyyət üzrə qərar deyil. Məhkəmənin bu qərarı Ermənistanın Azərbaycan ərazilərində minalar və mina tələləri yerləşdirilməsi, Laçın yolundan sui-istifadə edərək Azərbaycan ərazilərinə 2021-ci il istehsalı minaların daşıması, və minalanmış ərazilər barədə həqiqi xəritələrin təqdim edilməməsi kimi öhdəliklərin pozuntularından azad etmir. Ümumilikdə qeyd edək ki, Məhkəmə tərəfindən mina təhdidi məsələsinə mahiyyəti üzrə ayrıca baxılacaq. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, Laçın yolundan istifadə qanuni və şəffaf olmalıdır və yoldan sui-istifadə hallarına yol verilməməlidir. Bu səylərin tərkib hissəsi kimi, Azərbaycan Laçın yolunun başlanğıcında sərhəd nəzarət keçid məntəqəsi yaradılması barədə təkliflə çıxış edib. Bu təklif Azərbaycanla Ermənistan arasında post-münaqişə normallaşma prosesi çərçivəsində Laçın yolu üzrə şəffaf mexanizm və etimad quruculuğu tədbiri kimi beynəlxalq tərəfdaşlar tərəfindən də müsbət qarşılanıb. Lakin, Ermənistanın bu təklifdən heç bir əsas gətirmədən imtina etməsi Ermənistanın Laçın yolunda şəffaflıqda maraqlı olmadığını və sui-istifadə hallarını davam etdirmək niyyətinin göstəricisidir", - qeyd olunub.

# *İlham Əliyev:* "Azərbaycan torpaqlarını güc yolu ilə azad etməyə məcbur oldu"

**Azərbaycan Respublikasıın Prezidenti İlham Əliyev cari ilin 18 fevral tarixində Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması"adlı plenar iclasda iştirak edib. İlham Əliyev çıxışı zamanı üç Qafqaz Respublikalarının rəhbərlərinin görüşnü tarixi görüş kimi qiymətləndirib: " Tarixdə ilk dəfədir ki, Münxen Təhlükəsizlik Konfransı vasitəsilə Azərbaycanın, Ermənistanın və Gürcüstanın rəhbərləri eyni zamandabir platformada görüşürlər".**

Rusiya-Ukrayna müharibəsini ümumi geosiyasi vəziyyəti tamamilə dəyişsiyini bildirən Azərbaycan Respublikasının Prezidenti bildirib ki, biz bəzi ənənəvi tərəfdaşlarla ticari əməkdaşlıq sahəsində müəyyən çətinlikləri görə bilərik:

"Azərbaycan uzun illər ərzində müasir daşımalar və logistika infrastrukturunun yaradılmasına yatırımlar edib. İndi isə Mərkəzi Asiyadan daşınan yüklərin Azərbaycan vasitəsilə Avropaya yönəldilməsi əlavə imkanlar açır.

Azərbaycan xalqı müharibənin nə olduğunu bilir. Onun xalqlar üçün nə dərəcədə dağıntılar və əziyyətlər gətirdiyini bilirik. Buna görə Avrasiyada sülhün bərqərar olmasını istəyirik.

Hazırda Ermənistan ilə Azərbaycan arasında sülh sazişin üzərində işlər aparılır.Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar.

Biz hamımız regionda vəziyyətə iki istiqamətli yanaşmanın zəruri olmasını başa düşürük. Birincisi, Azərbaycanla Ermənistan arasında sülh danışıqları istiqaməti, ikincisi, Azərbaycanın Qarabağdakı erməni əhalisi ilə əlaqələri.

Dağlıq Qarabağ sözü artıq qüvvədən düşüb. Azərbaycanda Dağlıq Qarabağ kimi inzibati vahid yoxdur. Azərbaycanın suverenliyinə və Konstitusiyasına hörmət edilməlidir. Azərbaycanda erməni əhalinin olduğu Qarabağ rayonu var.

Qarabağdakı erməni azlığın hüquqları və təhlükəsizliyi ilə bağlı müzakirələr aparılacaq. Azərbaycan erməni icmasının Qarabağda doğulmuş və bütün ömrü boyu orada yaşamış nümayəndələri ilə müzakirə etməyə hazırdır, Qarabağda Rusiyadan rəhbər mövqe tutmaq üçün ixrac edilmiş şəxslə yox.

Dekabrın 12-dən bizim vətəndaş cəmiyyəti fəallarımız keçid məntəqəsinə gələndən indiyədək 2500-dən çox nəqliyyat vasitəsi, o cümlədən Rusiya sülhməramlılarının və Qırmızı Xaçın təmsilçilərinin yük avtomobilləri keçib. Qarabağdan 100 pasiyent müalicə üçün Qırmızı Xaç tərəfindən Ermənistana aparılıb. Əgər Qarabağdakı ermənilər bu yoldan istifadə etməyə çalışsalar, onları heç kim dayandırmayacaq.

Demək olar ki, 30 il ərzində torpaqlarımız Ermənistanın işğalı altında olub. Ermənistan 27 il ərzində Azərbaycan ərazisinin 20 faizini işğal altında saxladı, beynəlxalq hüququ pozdu, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmədi və ona qarşı heç bir sanksiya tətbiq olunmadı. Biz hər zaman müharibənin qarşısını almaq üçün Ermənistana qarşı sanksiyaların tətbiq olunmasını istəyirdik. Biz Minsk qrupunun nəticə əldə etməsini gözləyirdik, BMT Təhlükəsizlik Şurasının öz qətnamələrinə hörmət etmələrinigözləyirdik. Lakin heç bir hərəkətin olmadığını gördük və ümumi fikir bundan ibarət idi ki, bu münaqişə dondurulmuşdur.

Ərazi bütövlüyünü və ədaləti bərpa etmək, habelə BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün döyüşməli, 3 min həyatı qurban verməli olduq. Ona görə də 30 illik işğalı, Livan böyüklüyündə ərazinin tamamilə xarabalıqlar içində olduğunu unutmamalıyıq. Torpağımızın işğalı, bir milyon azərbaycanlını evindən didərgin salması, 67 məsciddən 65-nin dağıtması və



onları təhqir etməsi - bütün bunlar qonşularımız tərəfindən edilib.

2020-ci il noyabr tarixli üçtərəfli Bəyanat, əslində, de-fakto Ermənistan tərəfindən kapitulyasiya aktıdır. Biz müharibə apardıq, müharibənin nəticələri beynəlxalq ictimaiyyət və Ermənistan cəmiyyəti tərəfindən qəbul olunub. Bunun ən yaxşı göstəricisi Ermənistan əhalisinin baş nazirə verdiyi yeni mandatdır və bu, sülh naminə mandat idi.

Rəsmi Bakı Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırdır. Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar;

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə əlaqədar olaraq bir neçə platformamız var. Onlardan biri Brüssel formatıdır. Bu formatın üçtərəfli olduğu, yəni, Aİ, Azərbaycan və Ermənistan arasında olduğu barədə ümumi bir anlaşma vardır.

Minsk qrupu artıq kənara çəkilib, mövcud deyil. Ola bilər ki, yalnız kağız üzərində mövcud olsun. Ona görə də Minsk qrupunun 28 il ərzində heç bir nəticəyə nail ola bilməyən keçmiş həmsədrləri vəziyyətə hələ ki, nisbətən təsir edə bilirlər. Bu səbəbdən biz ABŞ, Rusiya və indi də Aİ tərəfindən təşkil olunmuş platformada bir araya gəlmişik. Lakin Fransa hökuməti birtərəfli ermənipərəst mövqe tutduğundan o, bu platformada artıq iştirak etmir.

Hər kimsə iki ölkənin razılığa gəlməsinə kömək edərsə, çempion medalını qazanacaqdır. Bizim təcrübəmiz göstərir ki, sülh danışıqları bəzən çox uzanır. Biz 28 il boyunca sülh danışıqları aparmışıq, təsəvvür edin, 1992-ci ildən 2020-ci ilə qədər. Əgər biz Qarabağ münaqişəsini döyüş meydanında həll etməsəydik, bu sülh danışıqları daha 28 il çəkəcəkdi.

Ermənistan vəziyyəti dondurmaq, torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi. Bu vəziyyət, həmçinin Ermənistanın dünyanın müxtəlif bölgələrindəki dostlarını qane edirdi.

Azərbaycanda yeni nəsil yetişib. Cavan olduqları və Ermənistan o torpaqları işğal etdikdə hələ anadan olmadıqları üçün heç zaman görmədikləri torpaqlara qayıdan və oraları işğaldan azad edən bir nəsil yetişib.

Azərbaycan ədaləti güc vasitəsilə bərpa etməyə məcbur oldu. Bu bizim qanuni haqqınızdır. Bu haqqı bizə BMT Nizamnaməsinin 51-ci maddəsi verir.

Apardığımız müharibənin məqsədi torpaq işğal etmək deyildi. Ona görə də bir nəfər əsgərimiz belə döyüş meydanını tərk etmədi. 44 gün ərzində şəhər və kəndlərimiz "İsgəndər" raketləri ilə atəşə tutulduğunda belə heç kəs döyüş meydanını tərk etmədi.

44 günlük müharibə zamanı Ermənistanda fərarilərin sayı 11 minə çatmışdı.Bu ona görə baş verdi ki, onların apardığı müharibə işğalçı müharibə idi. Ermənistanda doğulmuş insanlar üçün Azərbaycana gedib onlara aid olmayan torpaqdan ötrü müharibə etmək həvəsi yox idi.

Azadlıq istəyən xalqı işğal etmək mümkün deyil. Silah vacibdir, taktika da vacibdir, planlaşdırma çox vacibdir. Lakin ən önəmli olan həvəsdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cari ilin 18 fevral tarixində Münxendə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinken və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşdən sonra televiziya kanallarına müsahibə verib.

Bu görüşü konstruktiv görüş kimi qiymətləndirən Prezident bildirib ki, . "Görüş zamanı bir çox məsələlər müzakirə olundu, o cümlədən Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması, sazişin imzalanması üçün lazım olan şərtlərin mövcudluğu. Əsas məsələ ondan ibarətdir ki, bu sülh müqaviləsi beynəlxalq norma və prinsiplər əsasında tərtib edilməlidir. Qarabağ haqqında hər hansısa müddəanın olması qəbuledilməzdir. Bu haqda da Azərbaycanın mövqeyi bildirildi. İlk baxışda Ermənistanın mövqeyində tərəqqi var, ancaq kifayət qədər deyil.

Laçın-Xankəndi yolundakı vəziyyət müzakirə edildi. Burada hər hansı bir blokadadan söhbət gedə bilməz. Dekabrın 12-dən bu günə qədər 2500-dən çox yük maşını və Qırmızı Xaç Komitəsinin maşınları keçmişdir. Avropa İttifaqı bizim mövqeyimizi anlayır. Biz haqlı olaraq tələb edirik ki, yataqlarımızın qanunsuz istismarı dayandırılsın və buna nail olunmayana qədər bizim ictimai fəallarımız öz şərəfli missiyasından əl çəkməyəcəklər.

Nəzarət-buraxılış məntəqələri olmadan sərhədlərin delimitasiyası mümkün deyil. Biz kommunikasiyaların açılması haqqında danışırıqsa, əlbəttə ki, həm Zəngəzur dəhlizinin hər iki başında, eyni zamanda, Laçın rayonu ilə Ermənistan arasındakı sərhəddə nəzarət-buraxılış məntəqələri yaradılmalıdır.

İranda baş vermiş hadisə Azərbaycan diplomatik nümayəndəliyinə qarşı təşkil olunmuş terror aktıdır. Terrorçu 30-40 dəqiqə ərzində tərk-silah edilməmişdir və polis maşınları, təhlükəsizlik xidmətinin işçiləri gəlibgedirdilər, amma onlar ona iki dəfə səfirliyin binasına daxil olmağa, səfirliyin mühafizə işçilərindən birini qətlə yetirməyə, ikisini isə yaralamağa imkan verdilər.

Terrorçunu əliyalın tərk-silah etmiş mühafizə işçilərindən birinin cəsarəti onlarla azərbaycanlının həyatını xilas etdi. Çünki diplomatlarımzın ailələri, o cümlədən uşaqları o binada yaşayırdılar.

Azərbaycan səfirliyimizdə baş vermiş məsələ ilə bağlı dərhal və şəffaf istintaqın aparılmasını tələb edir. Bu terror hadisəsindən sonra terrorçunun İran mediasına müsahibə verməsi faktı onun İran istablişmentinin bəzi qolları tərəfindən göndərilənlərdən biri olduğunu göstərir. İki gündən sonra terrorçu əqli çatışmazlığı olan insan kimi elan edildi. İran hökuməti şəffaf istintaq aparmalıdır, bizə bu barədə məlumat verilməlidir, terrorçu cəzalandırılmalıdır.

Prezident İlham Əliyev cari ilin 18 fevral tarixində Münxendə"Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasdan sonra Azərbaycan televiziya kanallarına da müsahibə verib:

"İkinci Qarabağ müharibəsindən sonra bölgəmizdə vəziyyət tamamilə dəyişmişdir. Yeni reallıqlar ortaya çıxdı və biz hazır olmalıyıq ki, bu reallıqlarda öz mövqeyimizi daha da gücləndirək. Biz real dünyada yaşayırıq və bölgəmizdə gedən proseslər yeni yanaşmaları tələb edir.

Azərbaycanın mövqeyi birmənalıdır, açıqdır. Azərbaycan haqqın, ədalətin tərəfdarıdır. Daxili işlərimizə kənar qüvvələrin qarışmasına heç vaxt imkan verməmişik və imkan verməyəcəyik. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində bizim mövqeyimiz tamamilə məntiqlidir.Azərbaycan istəyir ki, bu normallaşma tezliklə baş versin, o ədavət dövrü arxada qalsın. Əgər Ermənistan tərəfi özündə iradə və güc taparsa, yaxın zamanlarda buna nail olmaq mümkün olacaqdır.

Bu gün həqiqətləri gizlətmək, yaxud da ki, reallığı təhrif etmək mümkün deyil. Biz informasiya dünyası dövründə yaşayırıq. Hər kəs yaxşı bilir harada nə baş verir. Ona görə qeyri-ciddi və manipulyativ mahiyyət daşıyan açıqlamalar, əlbəttə ki, ciddi qəbul edilmir.

Azərbaycan istəyir ki, Qarabağ məsələsi beynəlxalq gündəlikdən çıxsın. Biz imkan verə bilmərik ki, Qarabağ məsələsi hər hansı bir formada Azərbaycanla Ermənistan arasında imzalanacaq sazişə daxil edilsin. Biz istəyirik ki, sərhədlərimiz tarixi xəritələr əsasında delimitasiya olunsun. Bunun da tarixi məntiqi var. Biz istəyirik ki, Ermənistan bizə qarşı ərazi iddialarından əl çəksin və normallaşma olsun.

Enerji diplomatiyamız nə qədər uğurlu olarsa, ölkəmizin maraqları bir o qədər də daha güclü şəkildə təmin ediləcək. Enerji təhlükəsizliyi məsələləri beynəlxalq təşkilatlar tərəfindən müzakirə olunan gündəliyin ön sıralarındadır. Azərbaycan yeni mənbənin sahibi kimi və Avropanın enerji təhlükəsizliyi üçün bir çox işlər görən ölkə kimi böyük hörmətlə qarşılanır".

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Putinin gizli planı deşifrə oldu: 2030-cu ilə qədər Belarusu Rusiyaya birləşdirməyi hədəfləyir

**ABŞ prezidenti Baydenin Kiyevə gözlənilməz səfəri və daha sonra Rusiya lideri Vladimir Putinin xalqa müraciəti dünya gündəminə bomba kimi düşdü.**

Adalet.az xəbər verir ki, Putin açıqlaması zamanı bildirib ki, Rusiyanı döyüş meydanında məğlub etmək qeyri-mümkündür. Ukrayna nə qədər çox uzaqmənzilli raket sistemləri alsa, biz təhlükəni bir o qədər uzağa çəkəcəyik.

Bununla yanaşı, Putinin Belarusla bağlı planı da deşifrə edilib. Moskvanın 2030-cu ilə qədər Belarusu Rusiya Federasiyasına birləşdirməyi planlaşdırdığı iddia edilir. Putin dünən paytaxt Moskvada parlament üzvləri və hərbçilər qarşısında çıxış edib. Ukraynaya təcavüz cəhdinə toxunan Putin, Donbass problemini həll etmək üçün hər şeyi etdik, lakin Qərb başqa ssenariyə hazır idi deyib. Ukraynanın müharibədən əvvəl silah sövdələşmələri üçün Qərblə danışıqlar apardığını iddia edən Putin, Rusiyanın öz maraqlarını və mövqeyini qorumağa davam edəcəyini bildirib. Putin qitələrarası nüvə ballistik raket imkanlarının məhdudlaşdırılmasını ehtiva edən Rusiya ilə ABŞ arasında imzalanan Yeni START müqaviləsini dayandırdıqlarını açıqlayıb.

Amerikanın CNN telekanalı isə ABŞ lideri Baydenin Kiyevə səfəri zamanı Rusiyanın raket düyməsini basdığını, lakin sınağının uğursuz olduğunu açıqlayıb. Putinin 5 il əvvəl elan etdiyi Sarmat adlı qitələrarası ballistik raket Co Bayden Kiyevdə olarkən atılıb. CNN-i məlumatlandıran mənbələr bildiriblər ki, Moskva uğursuz raket sınağı barədə Vaşinqtonu əvvəlcədən məlumatlandırıb. ABŞ və Qərb ölkələrinin "Şeytan" adlandırdığı 18 min kilometr mənzilli "Sarmat"ın sınaqdan keçirilməsini eskalasiya kimi görməyib. CNN əlavə edib ki, Putin xalqa müraciətində uğursuz raket sınağından bəhs etməyib. Qısa müddətdə Rusiya ordusunun inventarına daxil olması gözlənilən "Sarmat" raketi nüvə başlıqları daşıya, Şimal və Cənub qütblərini keçərək hədəfə çata bilir.

Bununla yanaşı, Rusiyanın Belarusla bağlı planlarının sızdırıldığı iddia edilir. Sızdırılan prezident sənədlərində iddia edilir ki, Moskva Belarusu 2030-cu ilə qədər Rusiya Federasiyasına birləşdirməyi planlaşdırır. Rusiya Prezidenti Vladimir Putin tərəfindən 2018-ci ildə yaradılan hökumət bölməsi olan Rusiya Rəyasət Heyətinin Sərhədlərarası Əməkdaşlıq Müdirliyi tərəfindən hazırlanan sənədlər "Yahoo! News" və Almaniyanın "Sueddeutsche Zeitung" qəzeti tərəfindən əldə edilib, gizli faylın adı isə " Rusiya Federasiyasının Belarusiyada strateji hədəfləri" adlanır. Sənədlərdə Belarusu işğal etmək və "tarixi Rusiyanın bir parçasını bərpa etmək" üçün qısa, orta və uzunmüddətli üç mümkün yanaşma göstərilib.

Ortamüddətli plan Belarusun rəsmi olaraq 2025-ci ildə Rusiyanın tərkibinə daxil olmasını nəzərdə tutur, uzunmüddətli planda isə 2023-cü ildən 7 illik müddət nəzərdə tutulur. Digər tərəfdən Belarus prezidenti Aleksandr Lukaşenkonun 100-150 min nəfərlik könüllülərdən ibarət quru ordusunun yaradılmasına göstəriş verdiyi öyrənilib.(Sondakika.com)

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

# TÜRK MİN İLLƏRİN GÜN İŞIĞIDIR

*Qardaş ölkədə yenə ard-arda zəlzələ olub - Hatay vilayətində. Uçqunlar və yaralılar var.*

*Qardaşlarımızın başına böyük fəlakət gəldi. Bu fəlakət təkcə Türkiyə türklərini deyil, bütün dünya türklərini, xüsusilə də azərbaycanlıları bərk sarsıtdı. Hələ də özümüzə gələ bilmirik. Dünyanın qeyri-türk ölkələri də Türkiyəyə kömək əlini uzatdı, sağ olsun.*

*Məni ən çox narahat edən Türkiyənin daxilində müxalif siyasətçilərin bu fəlakətdən istifadə edib sayın cümhurbaşkanımız Ərdoğana qarşı birləşib kampaniya aparmaları oldu. Yəni bu fəlakət türk xalqını təkürək etsə də, müxalif siyasətçiləri, ABŞ-ın və SOROS-un cocuqlarını təkürək edə bilmədi. Təəssüf. Elçibəyin sözü olmasın, fəlakətə uğramış bir dövlətin başçısı sayın Ərdoğanı sağdan da vururlar, soldan da.*

*Türkiyə bu fəlakətdən qurtulacaq, özü də sayın Ərdoğanın cümhurbaşkanlığı ilə.*

*Vaqif Bayatlının təbirincə desək:*

*Türk*
*min illərin gün işığıdı,*
*Nə qədər basdırsan*
*yenə torpağın üstündə qalar.*

*Təkrar olmasın, türk xalqı sayın Ərdoğanın cümhurbaşkanlığı ilə bu fəlakətdən qurtulacaq, yaralarını sarıyacaq. Yamanlıq SOROS-un cocuqlarına, FETÖ-çulara qalacaq.*

*Fikir vermisinizsə, bu fəlakətdən sonra FETÖ-çular yaman fəallaşıblar. Özü də təkcə Türkiyədə yox, elə Azərbaycanda da.*

*Tanrı Türkü qorumadı!*
*Türk Tanrını qorusun!*

*Səxavət Məmməd*

# Qərblə Rusiyanın Qafqazda toqquşan maraqları



**Qarabağdan Ermənistana, Azərbaycandan Naxçıvana kommunikasiya xətlərinin gələcək taleyi yumşaq mərhələyə keçdi.**

**Münxen görüşünə qədər Azərbaycan tərəfi nəyin bahasına olursa-olsun, açılacağını deyirdi, erməni tərəfi də bunun əksini. Tərəflər artıq məntiqi reallığa yaxınlaşırlar.**

**Sentyabrdakı sərhəd toqquşması Zəngəzur dəhlizi mövzusunun pik həddi idi. Rəsmi Bakı anladı ki, sərt güclə dəhliz açılmayacaq, erməni tərəfi sülhə məcburetmə əməliyyatlarına məhəl qoymur, qoymayacaq. Bəlkə də, başqa ölkə olsa, bu qədər təzyiqdən sonra çoxdan dəhlizə də razı olardı, Qarabağı da boşaldardı. Ancaq erməni tərəfi Azərbaycandan gələn sərt dalğalara dözdü.**

**Ermənistan təkcə dözmədi, iki il ərzində Avropa İttifaqını, Fransa jandarmını ərazisinə gətirdi. Ərazisində Rusiyanın hərbi bazası olmasına baxmayaraq.**

**Tərəflər nə istəyirdi və nəyə qane oldular?**

**Ermənistan Laçın dəhlizinin nəzarətsiz olmasını istəyirdi. Ancaq Laçın yolu üzərində Azərbaycanın nəzarət məntəqələri qurmasına razılaşmalı oldu.**

**Azərbaycan maneəsiz Zəngəzur dəhlizi istəyirdi, ancaq indiki mərhələdə nəzarət məntəqələrinə razıdır. Tərəflərin hikkəsi sadəcə olaraq özlərinə qaldı.**

**Yeri gəlmişkən, 10 noyabr bəyanatında maneəsiz Zəngəzur yolu barədə maddə vardı və həmin yolun təhlükəsizliyinə Rusiya Federal Təhlükəsizlik Xidməti nəzarət edəcəkdi.**

**Həmin bəyanatın qarantı Rusiya idi.**

**Tərəflərin indiki mövqeyinə baxanda Rusiyanın ofsaytda qaldığını görürük. Əslində, Azərbaycan da maraqlı gediş etdi. Yeni yanaşma ilə həmin yolda maraqlı olan güclərə mesaj vermiş oldu ki, yol bəlli, yer bəlli, mane olan bəlli. Maraqlı güclərin buna reaksiyası necə olacaq, bunu yaxın zamanda görəcəyik.**

**Əslində, Azərbaycan ermənistansayağı siyasət yürütdü. Necə ki Ermənistan Qarabağda Rusiya ilə Azərbaycanı üzbəüz qoymağa çalışırdı və bunu bacardısa, Azərbaycan da kommunikasiya yollarına yeni yanaşma gətirərək Rusiya ilə Ermənistanı üzbəüz qoydu.**

**Həm də təkcə Rusiya ilə Ermənistanı yox, Avropa İttifaqını da. Ola bilsin, bağlı qapılar arasında Qərb tərəfi rəsmi Bakıya bildirib ki, neftini, qazını alırıq, kənara çəkil, Rusiya ilə özümüz məsələni həll edək.**

**Əgər Naxçıvana nəzarətli yol olacaqsa, Azərbaycanın gözləməyə vaxtı çoxdur. Çünki İrandan Naxçıvana onsuz da yol var idi. Dəhliz olmayacaqsa, İranın da Azərbaycana qarşı siyasəti dəyişə bilər.**

**Nəzərə alsaq ki, regionda son baş verən gərginlik iqtisadi maraqların təminatı üzərindəndir, İranın iqtisadi marağı təmin olunandan sonra qısa müddətdə "sərhədlərin dəyişdirilməsi qırmızı xəttimizdir" tipli bəyanatlardan əl çəkəcək.**

**Ukraynada olduğu kimi, Rusiya ilə Qərb Ermənistanda qarşı-qarşıya qalacaq. Bu qarşılaşmada Ukraynaya baxmış Ermənistanın şansı, demək olar ki, yoxdur. Rusiyanı sanksiya ilə qoruxdacaqlar? İslanmışın yağışdan nə qorxusu?! Qərbin Ukraynada olduğu kimi, Ermənistana silah daşıması da, demək olar ki, imkansızdır. Rusiya da bunun fərqindədir. Ona görə də "Ermənistanın dövlətçiliyi belə təhlükədədir" ifadəsini açıq şəkildə deyə bilir.**

**Rusiyanın Azərbaycanla problemi yalnız Qarabağ üzərindəndir. Rusiya regiondan çıxmaq istəmir, qalması üçün tədbirlərini görür.**

**Azərbaycan Rusiya sülhməramlılarının Qarabağdan çıxmasına nail olsa, rahat nəfəs alacaq və siyasətini daha müstəqilləşdirəcək. İndiki halda Azərbaycan Rusiya faktorunu istər-istəməz nəzərə almağa məcburdur.**

**Kommunikasiya yollarına yeni yanaşma gərginliyi azaltsa da, gərginliyin artmasında maraqlı olan güclər prosesi qızışdırmağa meyilli olacaqlar. Ən münasib yer isə yenə Qarabağdır.**

**Son zamanlar istər Qarabağda, istərsə də dövət sərhədi istiqamətində, demək olar ki, atəşkəsin pozulması halları yaşanmır.**

**Səssizlik müsbət kimi görünsə də, əslində, olacaqlara hazırlıq mərhələsi kimi də görünə bilər. Necə ki 44 günlük müharibə başlamazdan əvvəl atəşkəsin pozulması halları 20-ə çatmırdı. Hazırlıqda olan tərəflər boş-boşuna vaxt itirməyə meyilli olmurlar.**

**Regionda sular durulmuş kimi görünə bilər, tərəflər reallığa uyğun mesaj verə bilərlər, ancaq gərginliyi tənzimləyən qüvvələr nə Azərbaycandır, nə də Ermənistan. Rusiya Azərbaycan, Ermənistan və Gürcüstana ayrı-ayrı dövlət kimi yox, bütöv Cənubi Qafqaz gözü ilə baxdığı kimi, Qərb də regiona bütöv baxır.**

**Qərb Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq istəyir, Rusiya isə "arxa bağça"sına yadların girməsini istəmir.**

**Bağ yerində qalır, dava qarovulçu davasıdır. Önəmli olan qarovulçuların davasında ayaq altında qalmamaqdır.**

## Ağdamda "Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təbliği və öyrənilməsi" mövzusunda tədbir keçirilib



**23 fevral 2023-cü il tarixdə Ağdam Muğam Mərkəzində "Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təbliği və öyrənilməsi" mövzusunda tədbir keçirilib.**

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının təşkilatçılığı və Ağdam Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, aparatın əməkdaşları, Milli Məclisin deputatı Aqil Abbas, Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin baş direktoru Natiq Cavadov, YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri və qazilər, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri və partiya fəalları iştirak etmişlər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının, Ulu Öndər Heydər Əliyevin və Türkiyə Respublikasında baş vermiş zəlzələ nəticəsində həyatını itirən insanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.



Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov və digər natiqlər Ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin və müstəqilliyimizin qorunub saxlanmasında xalqımız qarşısında misilsiz xidmətlərindən, onun uğurlu siyasəti sayəsində müstəqil Azərbaycan Respublikasının azərbaycançılıq fəlsəfəsi əsasında qısa müddətdə tanınıb möhkəmlənməsindən, inkişaf etmiş dünya ölkələri ilə əlaqələr quraraq bütün sahələrdə uğurlar əldə etməsindən, öz haqqını dünyanın ən ali tribunalarında və təşkilatlarında nümayiş etdirməsindən geniş bəhs etmişlər.

Sonda partiya sıralarına qoşulan bir qrup şəxsə YAP-ın üzvlük vəsiqəsi verilmiş, rayonun ictimai-siyasi həyatında fərqlənənlər isə fəxri fərmanla təltif olunmuşlar.



*Nicat Novruzoğlu*

## Qanlı günün köşəsi

***26 fevral-Azərbaycan tarixinə qanla yazılmış günlərdən biri. Soyqırım günü. Soyqırıma məruz qalmış insanların günü. Soyqırım günləri ilə dolu olan təqvimizin ən amansızı.***

***31 il əvvəl baş vermiş Xocalı soyqırımı Ermənistan Respublikasının Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımdır.***

***Bu hadisələrin içərisində olmayan şəxs belə faciəni özündə əks etdirən şəkilləri, videolenti izlədikcə vahimələnməməsi mümkün deyil. Rəqəmlər isə dəhşətdi...***

***Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.***

***Və bir yurdun faciəsini qələmə aldıqca istər-istəməz digər faciəni də yada salırsan. Çünki istəyirsən ki, bu soyqırım günü hər biri xatırlansın, yaddaşlara həkk olunsun və unudulmasın. Hətta qisası alınsa belə.***

***Ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklərdən biri də 1993-cü ildə Kəlbəcər rayonun işğalı zamanı Başlıbel kəndində törədilib. İşğal zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər dağlara sığınıb. Lakin həmin şəxslər cəmi 17 gün gizlində qala biliblər. 1993-cü il aprelin 18-də erməni quldurları qadın, uşaq və yaşlıların gizləndiyi yeri aşkarlayıb. Başlıbelin işğalı zamanı erməni quldurları tərəfindən 27 nəfər güllələnib. Ermənilər Başlıbel kəndini işğal edərkən II Dünya Müharibəsi iştirakçısı olan bir nəfəri - Hüseyn Hüseynovu diri-diri yandırıblar. Kənd sakini, ruhi xəstəlikdən əziyyət çəkən Qənaət Ağayevi işgəncə ilə qətlə yetiriblər. 19 nəfər kənd sakini (qadın, uşaq və qoca) isə Ermənistan hərbçiləri tərəfindən girov götürülüb.***

***Daha bir faciə-Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin, eləcə də Xocalı faciəsindən təqribən ay yarım sonra Kəlbəcər rayonunun Ağdaban kəndinin işğalı zamanı həmin yaşayış məntəqələri əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında Ermənistan Silahlı Qüvvələri tərəfindən xüsusi amansızlıqla qətlə yetirilib. Təkcə bunu qeyd etmək kifayətdir ki, Qaradağlı kəndində 80 nəfərdən çox, Ağdaban kəndində 67 nəfər dinc azərbaycanlı, o cümlədən uşaqlar, qadınlar və qocalar işgəncə verilərək qəddarcasına öldürülüb, onlarca adam girov götürülüb, itkin düşüb, kəndlər isə yandırılaraq yer üzündən silinib.***

***28 avqust 1992-ci il tarixində Ermənistan Silahlı Qüvvələrinin yaratdığı diversiya qrupunun 10-12 nəfər üzvü laçınlı məcburi köçkün ailələrinin Goranboy rayonunun Ballıqaya kəndində məskunlaşdıqları alaçıqları xüsusi amansızlıqla, iri çaplı silahlardan və qumbaraatanlardan atəşə tutdu. Atəş nəticəsində dinc sakinlərdən 24 nəfər şəhid oldu.***

***Xocavəndin Qaradağlı kəndinin faciəsi- 118 nəfər əsir götürülənlərdən 101 nəfəri vəhşicəsinə qətlə yetirilib. Öldürülənlərdən 21 nəfəri ahil və qoca, 10 nəfəri qadın, 8 nəfəri məktəbli idi. Qətlə yetirilənlərdən bəziləri xüsusi amansızlıqla öldürülmüşdür. Məsələn, 3 kənd sakininin üzərinə dizel yanacağı tökülərək yandırılmış, 2 nəfərin isə başı kəsilmişdir.***

***Faciələrimizin bir qismini yazdım.***

***Kaş ki, faciələrimiz bir köşəyə sığaydı. Çox təəssüf...***

***Amma təsəlli var. Təsəlli bir köşəyə sığmayan Zəfər qələbəsidir. O qələbə ki, bizi Qarabağa qovuşdurdu. Torpaqlarımız işğaldan azad olundu. Düşməndən qisas alındı. Bayrağımız Şuşada dalğalandı.***

***Və qarşıda hələ bizi neçə qələbələr gözləyir.***



## Ləyaqət rəmzi Fəttah Heydərov

*(Xatirələrim)*



*Minayə Əliyeva*

*Bir məsəl var eşidirik haçandır*
*Ölüm haqdır namərd ondan qaçandır*
*Çox qapını ölüm haqsız açandır*
*Mən ölümü haqlı sayan deyiləm*

**Bu şeiri uzun illər bundan əvvəl yazmışam. Ölümün haqsız açaraq girdiyi qapıya üzümü tutaraq kaş yalan olaydı deyirdim. İndi də belə deyirəm.**

Milli Məclisin deputatı Fəttah Heydərovun da vəfatını eşidəndə bu sözləri təkrar etdim "kaş ki yalan olaydı". O kişi yaşından asılı olmayaraq uzun illər yaşamağa layiq idi. Fəttah Heydərovla ilk dəfə 1995-ci ildə hər ikimiz deputat seçildiyimiz Milli Məclisdə görüşmüşdük.



5 il deputat həmkarı olduq. O isə vəfat etdiyi günə qədər Milli Məclisinin deputatı oldu və seçicilərin sevimlisinə çevrildi. Nə qədər gözəl işlər gördü. Kömək istəyənə kömək etdi, imdad diləyənin imdadina çatdı.

Qısa müddətdə o qədər hörmət qazanmışdı, o qədər doğmalaşmışdı ki onu özgə hesab etmək mümkün deyildi.

Görkəmcə ona ağsaqqal demək mümkün deyildi, görünüşü, görkəmi buna yol vermirdi. Hələ 60 yaşı yox idi. Amma yaşından cavan görünürdü.

Ancaq bütün hərəkətləri, davranışları insanlara münasibəti onu müdrik ağsaqqal kimi qəbul etməyə imkan verirdi.

Hamıya mehriban münasibət ğöstərir, yaşca özündən xeyli kiçik adamlara da yol verirdi. Ağıllı, müdrik söhbətləri ilə nəzəri cəlb edirdi.

Hamının xeyrində şərində iştirak edirdi. Eyni zamanda Allah adamı, dinə bağlı adam idi.

Mənim Həzrəti Fatimeyi Zəhraya həsr etdiyim kitabım haqqında hörmətlə danışır, dost-tanışlarına bu kitabı oxumağı tövsiyyə edirdi. Yaradıcılıq gecələrimdə mənim əsərlərimə verdiyi qiymət nə qədər sevindirici idi.

Azərbaycan Televiziyası vasitəsilə mənim haqqımda bir saatlıq veriliş gedirdi. Verilişdə Azərbaycanın görkəmli ziyalıları ilə yanaşı Fəttah müəllim də çıxış edirdi. Həmən günü Bakıda deyildi. Rejissordan xahiş etmişdi ki, mütləq onu gözləsin, veriliş çəkiləndə gəlib özünü çatdıracaq. Gəlib çatdı, yaradıcılığımı təhlil etdi, Həzrəti Fatimeyi Zəhra poemama yüksək qiymət verdi.

O vaxt, yəni 1995-ci ildə, halhazırda Azərbaycan Respublikasının Prezidenti olan çox hörmətli İlham Əliyevlə də deputat həmkarı idim. İlham müəllimin ədəbiyyata qayğısı nəticəsində mənim şerlər və poemalar kitabım çap olunmuşdu. İlham müəllim bu kitabın təqdimat mərasiminin Həyat Rejence otelində keçirilməsini məsləhət görmüşdü.

Yüzə qədər iştirakçısı olan bu təqdimat mərasimində Respublikanın görkəmli ziyalıları, professorlar, xalq şairləri, alimlər və digər sahənin, məsələn Ali Məhkəmənin sədr müavini, Türkiyə səfirliyinin əməkdaşları və digər görkəmli şəxslər iştirak edirdilər.

Təqdimat mərasiminə Azərbaycan Elmlər Akademiyasının o vaxtki prezidenti akademik Fərəməz Maqsudov rəhbərlik edirdi.

Kitabım haqqında xeyli cıxışlar oldu. Xalq şairi Mirvarid Dilbazi, xalq şairi Nəriman Həsənzadə və digər şair və yazıçılar, professorlar çıxış edərək, mənim yaradıcılığım haqqında ürək sözlərini söylədilər. Söz verildi Fəttah Heydərova. O kitabı həm təhlil etdi, həm mənə uğur arzuladı, həm də özünün yüksək ziyalı olduğunu vərəq-vərəq ortaya qoydu.

O mədəniyyət naziri olmuşdu. Bu vəzifəyə haqqı çatırdımı? Çıxışı göstərdi ki, Fəttah müəllim yüksək savada malikdir və bu savadla ən yüksək vəzifələrdə işləməyə haqqı çata bilər, hər tərəfli qürur duyulası insandır.



Fəttah Heydərov tez-tez teleefirlərdə də çıxışlar edir, həyatımızda baş verən müxtəlif məsələlərə münasibətini bildirirdi. Ulu Öndər Heydər Əliyev haqqında da öz sözünü vaxtaşırı xalqa çatdırır, Heydər Əliyev böyüklüyünü, dahiliyini məhəbbətlə, hörmətlə təhlil edirdi.

Naxçıvanda yaşayanda Heydər Əliyevlə işlədiyi dövrdə Ulu Öndərin yaxın, sədaqətli, etibarlı dostu olmuş, daim Heydər Əliyevi müdafiə etmiş, ona arxa, dayaq olmuşdur. Fəttah Heydərov Bakıda yaşayanda da Heydər Əliyevin Azərbaycanın xilaskarı olduğunu təkrar-təkrar vurğulayırdı.

2000-ci ildə artıq mən Milli Məclisin üzvü deyildim. Deputatlıq səlahiyyəti qurtaran digər deputatlar hərə öz əvvəlki sənətinə qayıtdı.

Mən də şairə və jurnalist olaraq öz sənətimlə məşğul olmaqa başladım. Şerlərim, məqalələrim, kitablarım çap olunurdu. Bir sıra efirlərdə ekspert qismində çıxışlara dəvət edildim. İşimdən razı idim.



Çünki yaradıcılıq mənim 12 yaşında qədəm qoyduğum bir həyatdır. Orta məktəbdə artıq mənim şerlərim rayon qəzetlərində çap olunurdu.

Fəttah müəlimlə tədbirlərdə, yığıncaqlarda ara-bir rastlaşırdım, hal-əhval tutur, səmimi söhbətlər edirdik. Elə bu səmimi söhbətlərin birində Fəttah müəllim gedəndən sonra bir yaşlı kişi məndən soruşdu, qızım, o söhbət etdiyin Fəttah Heydərov Kəmaləddin Heydərovun atasıdır?

- Bəli, - dedim.

- Deyirlər, Kəmaləddin çörək verən adamdır. Belə atanın elə də oğlu olar da, bala.

- Bəli, dedim. Fəttah müəllim də çörək verəndir. Bunu ona görə dedim ki, Fəttah müəllimin maaşını alaraq qəbuluna gələn vətəndaşlara necə yardım etdiyinin şahidi olmuşam.

Milli Məclis buraxılanda yaşlı deputatların çoxu deputat olmaq üçün ərizə vermədilər. Fəttah müəllimsə, mən özümdə çox qüvvə görürəm demişdi və yenidən Milli Məclisə deputat seçilmişdi. Seçicilər onu çox istəyirdilər. Ona görə də yüksək səs yığmışdı.

Fəttah müəllim eyni zamanda Ağsaqqallar Şurasının sədri idi.

Ğözümün önünə 1995-ci ildə ilk dəfə ğördüyüm və beş il deputat həmkarı olduğum Fəttah Heydərov gəldi. 57 yaşlı və 84 yaşlı Fəttah Heydərov. Fərq nədə idi? Onda da müdrik idi, indi də müdrikdir. Onda da ləyaqət sahibi idi, indi də. Yüksək keyfiyyətlərini çox saymaq olar. Əsas odur ki, o bütün yüksək xüsusiyyətləri ilə cəmiyyətə xidmət edirdi, cəmiyyət ona lazım olan insanı itirdi.

Yaşasaydı fevral ayının 23-də 85 yaşı olacaqdı. Yaş onu qorxuda bilmədi. Seçkiyə gedib qələbə qazandı. Bəs nə oldu, Fəttah müəllim?

İllər öncə yazdığım həmən şeri yenə xatırlayıram.

Çox qapını ölüm haqsız açandır.

Mən ölümü haqlı sayan deyiləm.

Sənə də ölümün yanaşmasını heç cürə haqlı saymıram. Fəttah Heydərov kimi müdrik insana 84 illik ömrü çox saya bilmirəm.

Bu qədər rəhmət qazanmaq hər kişinin işi yox, nər kişinin işidir. Qəbrin nurla dolsun!

**Ləyaqət rəmzi Fəttah Heydərov!**

## Vilayət Eyvazov qazaxıstanlı həmkarı ilə memorandum imzaladı



**Azərbaycan və Qazaxıstanın daxili işlər nazirlikləri arasında memorandum imzalanıb.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Qazaxıstanın daxili işlər naziri, polis general-polkovniki Marat Axmetjanovun başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə iki günlük rəsmi səfərə gəlib. Nazir Marat Axmetjanov və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Həmin gün Azərbaycanın daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarını və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir V.Eyvazov bu səfərin iki dost ölkənin daxili işlər orqanları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir hər iki dövlət başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan DİN-ləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb. General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qazaxıstanın daxili işlər naziri, polis general-polkovniki Marat Axmetjanov səmimi qəbula və yüksək qonaqpərvərliyə görə azərbaycanlı həmkarına təşəkkürünü bildirərək ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, həyata keçirilən islahatlar barədə nazir V.Eyvazova məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyini bildirib.

Görüş zamanı nazirlər "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qazaxıstan Respublikasının Daxili İşlər Nazirliyi arasında Memorandum"u imzalayıblar. Qəbulda ölkəmizin Qazaxıstan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ağalar Atamoğlanov, Qazaxıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimov və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qazaxıstan Respublikasındakı nümayəndəsi, polis polkovnik-leytenantı Ənvər Zöhrabbəyli iştirak ediblər.

Səfər çərçivəsində qonaqlar DİN-in Daxili Qoşunlarının "N" saylı hərbi hissəsinə, Polis Akademiyasına, Təhlükəsiz Şəhər Xidmətinə və "102 - Zəng Mərkəzi"nə gedərək həmin qurumların fəaliyyəti ilə yaxından tanış olublar.

*Yılmaz Özdil*

## Seçim hər şeydir



***Hər zəlzələdən sonra eyni şey olur.***

***Birinciseysmoloqlarımız, bu üzrə mütəxəssisləşmiş professorlardəyər qazanır,kanaldan kanalagəzirlər, bir həftə keçir, televiziyalara zənglər-yağış kimigəlməyə başlayır, "daha onları çıxarmayın,deyirlər,İstanbul dağılacaq, bizqorxudan yata bilmirik" deyirlər,üç gün daha keçir, iş dünyasından zənglər gəlir. Deyirlər "zəlzələ narahatlığı ilə alış-veriş dayanıb, insanların psixologiyası pisləşəndə iqtisadiyyat pisləşir, o seysmoloqları, professorları göstərməyin artıq", əslində jurnalistlər göstərməkdə israrlıdırlar, çünki onlar hadisənin ciddiliyini şəxsən yaşayıblar, amma reytinq deyilən bir anlayış var, baxış nisbətlərini göstərir. İlk günlərdə zəlzələ professorlarının reytinqləri çox yüksək olsa da zəlzələdən bir həftə sonra tamaşaçı nisbəti sürətlə aşağı düşür.Yuxarıda izah etdiyim kimi insanlar zəlzələ professorlarını görmək/eşitmək istəmirlər, başqa kanala çevirirlər. Reytinq düşən kimi jurnalistlər mütləq zəlzələ professorlarını ekrandan uzaqlaşdırırlar.***

***

***Beləliklə, zəlzələ unudulur.***

***

***Sonra daha bir zəlzələ baş verir.***
***Daha minlərlə insanımızı itirəcəyik.***
***Yuxarıdatəsvir etdiyim dövr yenidən yaşanır.***

***

***Çünki…***
***İki növ həkim var.***

***

***Kimsəheç vaxt nala-mıxa vurmur,sənin başına gələnləri çox aydın şəkildə gözünün içinə baxır, deyir ki, diaqnozu ciddiyə almasan, öləcəksən, xəbərdarlığıma qulaq asmasan, nəinki öləcəksən, ailən dəhəm maddi, həm də mənəvi cəhətdən darmadağın olacaq.İndi zəhmət olmasa, sakitcə dediklərimə qulaq asın. Bunu edin, inan mənə, sizə inanıram ki, dediklərimi etsəniz, birlikdə qalib gələcəyik... Özünüzü mənəvi cəhətdən pis hiss etsəniz də, yaşayacaqsınız.***

***

***O biri isə kürəyini sığallayır,səni heç müayinə etmədən "maşallah, turp kimisən" deyir, "sənin yaşında bunlar normaldır, anamda da eyni xəstəlikdən var, hətta sən məndən çox yaşayacaqsan, narahat olma" deyir, resept yazır, odekolon səpir, göndərir...Özünü ruhən çox yaxşı hiss edirsən, amma mütləq öləcəksən.***

***

***Diaqnoz və müalicə üçün hansına üstünlük verərdiniz?***

***

***Zəlzələ professorları belədir.***
***Hüquq professorları da belədir.***
***İqtisadiyyat professorları da belədir.***
***Tibb professorları da belədir.***
***Bütün problemlərimizdə...***
***Seçim hər şeydir.***

***

***Dövlət insan orqanizmidir.***
***Dövlət qurumları bizim orqanlarımızdır.***
***Diaqnoz həyati əhəmiyyət kəsb edir.***
***Diaqnoz düzgün deyilsə, müalicə boş söhbətdir.***

***

***Zəlzələ professorlarımızın bizə həqiqəti söyləməsinə qulaq assaq, onların xəbərdarlığına qulaq assaq və dediklərini yerinə yetirsək, yəqin ki, yaşayarıq. Yox, professoru ağlımıza uyğun seçsək, özümüzü çox xoşbəxt və təhlükəsiz hiss edəcəyik, amma dəfnimizin üstünə odekolon səpəcəklər.***

***Dilimizə uyğunlaşdıran:***
***Eminquey***

## Prays: "Tərəflər arasındakı irəliləyiş var, Brüsseldə yenə görüş olacaq"

**"ABŞ, Ermənistan və Azərbaycan arasında Brüsseldə danışıqlar başlayacaq".**

Adalet.az xəbər verir ki, məlumatı ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays mətbuat konfransı zamanı bildirib. Onun sözlərinə görə, ABŞ Avropa Şurasının prezidenti Çarlz Mişelin Brüsseldə təşkil etdiyi görüşdə yaxın günlərdə Ermənistan-Azərbaycan nizamlanması məsələsində irəliləyiş görəcəyinə ümid edir.

Diplomat, son aylardakı təmaslar nəticəsində tərəflər arasında qeydə alınan tərəqqiyə toxunub:

"Bu irəliləyiş tərəflər arasında təmasların nəticəsidir. Bu, Birləşmiş Ştatların təşkilatçılığı ilə ikitərəfli, üçtərəfli təmasların nəticəsidir. Önümüzdəki günlərdə Brüsseldə Avropa Şurasının sədri Şarl Mişel tərəfindən tərəflər arasında görüş təşkil ediləcək. Avropa İttifaqının diplomatiyası vasitəsilə gördüyü işlərin nəticəsində irəliləyişlərin davamını görməyə ümid edirik"-deyib.



Jurnalistlərdən biri tərəflər arasında son aylardakı hadisələri nəzərə alaraq, "əhəmiyyətli irəliləyiş" olduğunu bildirən Praysın həddən artıq optimist olduğunu vurğulayıb. Prays jurnalisti cavabsız buraxmayıb: "Bizim nikbinliyimiz hədsiz deyil... Biz hərtərəfli həllə gətirib çıxaracaq bu dialoqu, diplomatiyanı bütün mümkün vasitələrlə dəstəkləməyə davam edirik", - ABŞ Dövlət Departamentinin nümayəndəsi yekunlaşdırıb.

Qeyd edək ki, ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Ned Prays dekabr ayında Qarabağ məsələsində ermənipərəst bəyanatla çıxış etdi: "Laçın dəhlizinin qapadılmasının ciddi humanitar nəticələri var və sülh prosesini geri atacaq.

Biz Azərbaycan hökumətini dəhliz üzrə sərbəst hərəkəti bərpa etməyə çağırırıq. İrəliyə yol danışıqlardan keçir".

***P.S. Beynəlxalq Ədalət Məhkəməsi Laçın dəhlizinin bağlanması ilə bağlı qərar çıxarması və Azərbaycanın əks iddiasını rədd etməsi deyəsən Ned Praysı da bərk sevindirib.***

**Əntiqə Rəşid**

## Tural İsmayılov: «Rusiyanın müharibədə qalib gəlməsi digər dövlətlər üçün təhdid olacaq»

**Rusiyanın Belarusla bağlı planlarının sızdırıldığı iddia edilir.Sızdırılan prezident sənədlərində iddia edilir ki, Moskva Belarusu 2030-cu ilə qədər Rusiya Federasiyasına birləşdirməyi planlaşdırır. Rusiya Prezidenti Vladimir Putin tərəfindən 2018-ci ildə yaradılan hökumət bölməsi olan Rusiya Rəyasət Heyətinin Sərhədlərarası Əməkdaşlıq Müdirliyi tərəfindən hazırlanan sənədlər "Yahoo! News" və Almaniyanın "Sueddeutsche Zeitung" qəzeti tərəfindən əldə edilib, gizli faylın adı isə " Rusiya Federasiyasının Belarusiyada strateji hədəfləri" adlanır. Sənədlərdə Belarusu işğal etmək və "tarixi Rusiyanın bir parçasını bərpa etmək" üçün qısa, orta və uzunmüddətli üç mümkün yanaşma göstərilib.**




Adalet az bununla bağlı Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılovun fikirlərini öyrənib:

O bildirib ki,Belarusla Rusiyanın ittifaq dövlətində birləşməyi məsələsi uzun müddətdir polemika mövzularından biridir. Rusiya bu barədə fikirlərini dəfələrlə ortaya qoyub.

Amma burada əsas məsələ odur ki, hal-hazırda Belarus hakimiyyəti tamamilə Rusiyanın təsiri altındadır və Lukaşenkonun Belarusda iqtidarda olduğu müddətdə Belarusun Rusiyaya vahid dövlət şəklində birləşdirilməsi ideyasının reallıqda gerçəkləşdirilməyəcəyini demək olar. Konstitusiya və hüquq baxımından bugün Belarus və Rusiya vahid dövlətdə birləşməsə də, siyasi-iideoloji və bir çox məsələlərdə iki ölkənin eyni nöqtəyə təmas etdiyinin şahidi oluruq. Tural İsmayılov vurğulayıb ki, Belarusda hakimiyyət dəyişikliyi olacağı təqdirdə, yaxud da ümumiyyətlə Lukaşenkonun siyasi sistemindən fərqli bir sistem iqtidara gələrsə o zaman vəziyyət dəyişəcək, Rusiya Belarusu öz ərazilərinə qatmaq üçün bütün aqressiv hücumlardan və vasitələrdən istifadə edəcək.

Amma bütövlükdə Belarusun da, Rusiyaya digər qonşu ölkələrin də gələcək taleyi Rusiya-Ukrayna müharibəsindən asılıdır. Bu müharibədə Rusiyanın istədiyi nəticələri əldə etməyi və qalib gəlməyi istənilən halda Belarus, eləcə də digər dövlətlər üçün təhdid elementi formalaşdırır.

**Eminquey**

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az



# Bir nömrəli həkim...

**Bu fikirləri biz tez- tez ya Xoşqədəm Hidayətqızının, ya da ki, Zaur Baxışəliyevin dilindən eşidirik. Eşidirik ki, filan xəstəxananın ginekoloqu, psixoloqu, nevropatoloqu bir nomrədir. Hələ bu da hamısı deyil. Bir nömrəli hüquqşünas, bir nömrəli vəkil və bir nömrəli psixo-terapevt fikirlərini də onlar tez-tez səsləndirirlər. Bunu kim müəyyən edib, necə müəyyən edib bilmək olmur?!**

**Camaat da həmin "bir nömrəli" həkimlərin reklamına inanıb, o həkimlərin qəbuluna gedirlər. Çoxları görür ki, heç də deyilənlərlə şahid olduqları bir- birini tamamlamır. Məsələn, özəl klinikaların birinda çalışan Vüsal Mahmudovun qəbuluna reklam olunmamışdan öncə tək-tük xəstə gedirdi. Ancaq Zaur Baxışəliyev onu reklam edəndən sonra bu həkimin qəbuluna düşmək üçün növbə tutmalısan. Həkim qəbulu da 50 manatdır.**

**Bir dəfə xanımımı onun yanına apardım, ayaqları ilə bağlı problemini dedik, o da başdangetdi bir resept yazdı. Onun da heç bir təsiri olmadı. Hər hansı həkim gün ərzində ən yaxşı halda 5-6 xəstə qəbul edə bilər. Çünki müayinənin özü və xəstə ilə söhbət yarım saatdan az olmur. V. Mahmudov isə qəbul etdiyi xəstələrə cəmi 2-3 dəqiqə, maksimum 5 dəqiqə vaxt ayırır.**

**Təbii ki, belə olanda heç o qəbuldan, biz müalicədən danışmırıq ha, xəstə də razı qalmır.**

**Artıq həkimləri reklam edən o verlişlərə xəstəxanalardan çox ayrı- ayrı həkimlər sponsorluq edirlər. Camaatdan yığdıqları pulu reklama verir və onun 10 qat xeyrini görürlər. Arada əziyyət çəkən isə reklam olunan həkimlərin qəbuluna düşmək üçün vaxt itirən və pul sərf edən pasiyentlər olur. Tanınmış həkim Rəşid Mahmudov da bu məsələlərlə bağlı öz obyektiv fikirlərini səsləndirib. O deyib ki, heç bir şəxs və televiziya aparıcısı həkimin bir nömrəli olub- olmadığını müəyyənləşdirə bilməz.**

**Bunu ən yaxşı halda uzun illərin təcrübəsinə malik olan mütəxəsislər aydınlaşdıra bilərlər. Ona görə də camaat dağa- daşa düşüb televizyalarda reklam olunan həkimləri axtarmasınlar.**

**Dünyanın heç yerində nə həkimlər, nə də müxtəlif dərman pereparatları reklam olunmur. Bu, mövcud qanunlara zidd addımdır. Çox təəssüf ki, televizya kanalları böyük məbləğdə pul qazanmaq üçün bu reklama gedir və insanları çətin vəziyyətə salırlar. Hələ də sovet dövründən qalmış bir ənənə insanların yaddaşından silinməyib. Onlar elə bilirlər ki, televizyada nə desələr, insanların xeyrinədir.**

**Azərbaycanda çox gözəl, savadlı və dünya səviyyəsində tanınan həkimlər var. Amma onların heç biri reklam olunmurlar. Çünki bu həkimləri tanıyan insanlar onlarla əlaqə qurur və xeyrini də görürlər. Mən bir həkim tanıyıram. Tanış dostum Türkiyədə müalicə oluna bilmədi, amma o həkim mənim dostumu müalicə etdi. Dedim ki, həkim, sizdən bir yazı hazırlayım. Dedi ki, lazım deyil. Onsuz da mənim kifayət qədər xəstəm var. Bax, əsl həqiqət budur.**

**Ona görə də insanlar televizyalardakı həkimlərlə bağlı reklamlara bir o qədər də inanmamalıdırlar. Ən azından ona görə ki, o həkimlər xəstələri yüksək qiymətə müayinə və müalicə edir. Və üstəlik də bir çox halda o müalicələrin müsbət nəticəsi də olmur. Bir sözlə, gözünüzü açın ətrafınıza yaxşı- yaxşı baxın. Görün kimlər sizi aldadır və kimlər də sizi çətin vəziyyətdən çıxarır?!**

## *İnanan daşa dönsün!*



**Deyirlər ki, hər səhər avtobuslar xəttə çıxmazdan öncə texniki baxışdan keçirilir və eləcə də sürücülər həkimlər tərəfindən müayinə olunur.**

Əgər avtobusda texniki qüsur yaranarsa, yaxud da sürücünün səhhətində problem olarsa, onların fəaliyyətinə icazə verilmir. İmanımızı yandıra bilmərik "BakBus" və digər nümunəvi marşurtları istisna etməklə deyə bilərik ki, Bakıda heç də əksər marşurtlarda səhər saatlarında avtobusların texniki nasazlığı yetərincə yoxlanılmır. Və sürücülər də tibbi müayinədən keçirilmir.

Bu, ən çox Bakı qəsəbələrində- Mərdəkan, Şüvəlan, Nardaran, Pirşağı, Novxanı, Hövsan və Yeni Günəşli istiqamətində hərəkət edən marşurtlarda qeydə alınır.

Məsələn, metronun "Neftçilər" stansiyasıdan Yeni Günəşliyə gedən 50 nömərli marşurtda texniki sazlıqdan və həkim müayinəsindən söhbət gedə bilməz.

Əksər marşurtlarda həkimlərin sürücüləri yoxlaması formal xarakter daşıyır.

Həkim möhürün lazımı sənədlərə vurur və " şirinliyini" alır. Yəni sürücü həkim tərəfindən müayinə edilmir. Belə də olanda bir avtous tez-tez texniki nasazlıq üzündən sıradan çıxır, ya da sürücü sükan arxasında özünü pis hiss edir.

## *Mikroavtobus avtomobillə niyə toqquşdu?*



**Bir çox qəzalar bir nəqliyyat vasitəsinin digərinin yolun çıxması nəticəsində baş verir.**

Bu günlərdə Bakı- Quba yolunun Siyəzən istiqamətində mikroavtobusun qarşı tərəfin yoluna çıxmağı nəticəsində faciəli hadisə yaranıb. Belə ki, mikroavtobusla avtomobilin toqquşması 3 nəfərin ölmü ilə nəticələnib. Bir neçə nəfər də ağır xəsarət alıb. Mikroavtobusda vəfat edənlər Siyəzənə dərs deməyə gedən müəllimələr olublar.

Burda da yenə sürücü məsuliyyətsizliyi və diqqətsizliyi önə çəkilməlidir. Çünki mikroavtobusun sürücüsü bir qədər diqqətli olsaydı və sərnişin apardığını düşünsəydi sürət həddinə, ötmə əməliyyatına əməl etsəydi, bu ağır qəza da baş verməzdi. Sadəcə olaraq 3 günahsız insanın həyatına bir səhlənkarlıq nəticəsində nöqtə qoyuldu.

Deməli, sərnişin daşıyan hər bir sürücü bu anı unutmamalı və yaddan çıxarmamalıdır. Yol hərəkəti qaydalarına əməl etmək birmənalı olaraq sürücüləri və sərnişinləri onları təhlükədən xilas edir.

**Emil FAİQOĞLU**

# İnsanlığa sığmayan cinayət

**Dünyada çox müharibələr, çox dağıntılar və çox ölüm-itim olub. Və bu müharibələrdə ən çox da əziyyət çəkən, evi dağılan, göz yaşlı qalan sadə insanlar olublar. Bu insanlar həmişə halal zəhmətlə, alın təri ilə yaşayıblar. Ancaq qara qüvvələr, müharibə hərisləri onların gününü göy əsgiyə bükük və gözüyaşlı qoyub.**

Məhz 1992-ci il fevralın 26-sı Xocalı faciəsi belə ağır yaddançıxmaz, unudulmaz faciəli günlərdən biridir. O günü xatırlayanda və o günü yada salanda insanlığa qarşı olan ən ağır cinayət bizim yaddaşımızdan heç vaxt çıxa bilmir. Çünki erməni faşistləri dünyada analoqu və oxşarı olmayan, dinc insanlara qarşı ağır müharibə cinayətləri həyata keçirdilər. Biz görmüşük ki, hər hansı ölkə ordu ilə, əsgərlə döyüşər. Amma ermənilər 1992-ci ilin fevralın 26-da əliyalın xocalılara qarşı əsrin ən böyük cinayətini törətdilər. Onlar Rusiyanın 366-cı alayının köməkliyi ilə bir gecənin içərisində Xocalı kimi şəhərin altın-üstünə çevirdilər. Qan su yerinə axdı. Görün düşmən nə qədər vəhşiləşmişdisə, nə qocaya, nə qadına, nə uşaqlara rəhm edirdilər. Çox yaxın məsafədən ağır texnikalardan, tankalardan, BTR-lərdən insanların sığındığı yerlər güllə-baran edilirdi. Daha doğrusu, güllə yağış kimi yağırdı. Və bu güllələrdən sağ- salamat qurtarmaq, xilas olmaq çox çətin idi. Minlərlə xocalılı isə həmin anda Allahdan kömək istəyirdi. Sanki Allah da bu insanları yaddan çıxarmışdı. Nə yaxşı ki, Əlif Hacıyev kimi, eləcə də ona bənzər qeyrətli Azərbaycan oğulları vardı. Əgər o qeyrətli Azərbaycan oğulları olmasaydı bir nəfər Xocalı sakini belə o hücumdan sağ-salamat çıxa bilməzdi.

Dünyada müharibənin öz qanunları olur. Yəni silahsız dinc sakinlərə qarşı heç vaxt silah işlədilməz. Ancaq Xocalıda erməni faşistləri heç bir dünyəvi dəyərlərə və insanlığa sığmayan cinayətlər törətdilər. Onlar əsir götürdükləri yeniyetmə və cavan oğlanları elə onların doğmalarının qarşısında güllələdilər. Hələ bu da onların cinayətlərinin hamısı deyildi. Erməni faşistləri ələ keçirdikləri Azərbaycan əsgərini ağaca bağlayb üstünə benzin tökərək yandırırdılar. Bax bu ağır cinyaətlər dünyada analoqu olmayan cinayət sayıla bilər. Beynəlxalq hüquqda , beynəlxalq



qanunlarda və Cenevrə konvensiyasında müharibənin özündə belə insanların hüquqları qorunur. Amma bu qanuna baxan kim idi?! Ermənilər üçün heç bir beynəlxalq qanun və Allah qoruxsu yox idi. Ən böyük ağırr faciə o idi ki, Xocalı sakinləri Şelli kəndinədn Ağdam şəhəri istiqamətində hərkət edərkən, 100-lərlə insan güllələnmişdir. AzTV-nin operatoru Seyidağa Mövsümov və ANS-in əməkdaşı Çingiz Mustafayev bu dəhşətli anları çəkmişdilər və dünya ictimaiyyətinə çatdırmışdılar. Amma dünya ictimiyyəti də bizim faciəmizə reaksiya vermirdi. Göz yaşlarımıza məhəl qoymurdu. Hətta 2-ci dəfə Çingiz Mustafayev həmin yerdən çəkiliş edəndə güllələnimiş insanların başlarının dərisnin soyulduğunu göstərdi və dedi ki, əvvəlki çəkilişdə belə bir cinayət yox idi. İkinci dəfə ermənilər ən böyük qəddarlıq edərək gözlərini çıxarmış və başlarının dərilərini soymuşdular. Əsgərlərimizin köməkliyi ilə 100-lərlə insan xilas edilərək, Ağdam şəhərinə gətirilmişdir. Onların çoxu meşədə qaldıqlarına görə şaxtalı və soyuq havada donmuşdular. Heç bəzilərinin ayaqlarında ayaqqabı da yox idi. Nəticədə onların ayaqları soyuqdan sıradan çıxmış və ağır vəziyyətdə Ağdama gəlmişdilər.

Bütün bu faciələr onun göstərir ki, Ermənistan və onun Dağlıq Qarabağdakı hərbi birləşmələri çox böyük faciə törədib və ağır cinayət eləyib. Bizim xalqa qarşı ermənilərin törətdiyi Xocalı faciəsi heç də ilk deyi, 1905-c ildə, 1915-c ildə və 1918-ci ildə ermənilər dinc sakinləri qılıncdan keçirib, güllə-baran edib və qətlə yetiriblər. Çox təəssüf ki, beynəlxalq təşkilatlar , və o cümlədən demokratiyadan dəm vuran Avropa Xocalı faciəsinə və eləcə də ermənilərin 100 il müddətində törtətdiyi cinayətlərə göz yumublar. Hələ üstəlik, adını çəkdiyimiz Fransa kimi ölkələr onlara havadarlıq ediblər.

Təbii ki,tarixin yaddaşı həmişə güclü olur. Nəsə bizim yadımızdan çıxa bilər, unudula bilər, amma tarixin səhifəsindən heç nəyi silmək və pozmaq omaz. Ən azından ona görə ki, türk xalqlarına qarşı ermənilərin törətdiyi Xocalı faciəsi ən böyük soyqırımı sayılmalıdır. Bu soyqırımı adı bir faciə deyil, minlərlə insanın öldürülməsi, qətlə yetirilməsi və Xocalı kimi bir şəhərin yerlə-yeksan edilməsidir. İnsanlığa, bəşəri dəyərlərə sığmayan bu cinayaətə görə ermənilər gec-tez qanun qarşısında beynxəlxalq hüquqla cavab verməli olacaqlar. Artıq bir çox ölkələr Xocalı faciəsini xalqımızın soyqırımı kimi qəbul edib. Ümumiyyətlə, dünyada təkcə ölkələrin qanunları deyil, həm də beynəlxalq hüquq deyilən bir anlayış var. Bu hüquqsa ermənilər tərəfindən həmişə pozulub. İndi BMT, Avropa Birliyi və eləcə də digər mötəbər qurumlar ermənilərin törətdiyi Xocalı faciəsinə hüquqi qiymət verməlidirlər. Bu qədər kar, kor, lal olmaq olmaz. Ortada təkzibolunmaz maddi sübutlar və dəlillər vardır. Bu dəlillər də beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmalı, dəyərləndirilməli və hüquqi qiymətini almalıdır.

Heç bir qisas qiyamətə qalmır. 44 günlük İkinci Qarabağ savaşında Azərbaycan ordusu Xocalı faciəsində həlak olanların qisasını erməni ordusundan, erməni əsgərindən və erməni zabitindən aldı. Amma onlardan fərqli olaraq bizimkilər ermənilərin bir dinc sakinini belə öldürmədi. Əksinə, əsir götürdükləri dinc və xəstə sakinləri müalicə edib onlara qaytardılar. Bu Azərbaycan ordusunun humanist hərəkəti, o da erməni vəhşiliyi!

Qoy bütün dünya görsün ki, Azərbaycan bəşəri dəyərlərə, demokratiyaya və beynəlxalq hüquqa necə hörmət edir. Elə bu gün də dünya hüquq müstəvisində Azərbaycan Ermənistandan dəfələrlə yüksək səviyyədə durur, özünün humanist, insanpərvər addımları ilə yeni bir tarix yazır.

**Dünyəvi və bəşəri dəyərlərə söykənən Azərbyacan heç bir ölkədən çəkinmir, öz ərazi bütövlüyünü və dövlətçiliyini qoruyur.**

**Elşən QURBANOV,**
**Bakı şəhəri, 43 saylı**
**Notariat ofisinin notariusu**

# Politoloq: "Beynəlxalq Ədalət Məhkəməsinin çıxardığı qərarlar tövsiyə xarakterlidir"





***BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi fevralın 22-də Laçın yolundakı vəziyyətlə bağlı qərar qəbul edib. Qərarda Ermənistanın tərəflər arasında mübahisəni gərginləşdirməkdən çəkinmək barədə hələ də öhdəlik daşıdığı bir daha təsdiqlənib.Mövzu ilə bağlı suallarımızı politoloq Nəsimi Məmmədliyə ünvanladıq.***

***Adalet.az -ın suallarına cavab verən politoloq bildirdi ki, əslində bu qərar tövsiyyə xarakteri daşıyır:"Beynəlxalq Ədalət Məhkəməsi 22 fevral 2022-ci ildə "Ermənistan Azərbaycana qarşı" işi üzrə qərarını açıqlayıb. Qərar "Azərbaycan Laçın dəhlizində vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin Laçın dəhlizi ilə hər iki istiqamətdə fasiləsiz hərəkətini təmin etməlidir" şəkilində yayılıb. İlk növbədə bilməliyik ki, Ədalət Məhkəməsi dövlətlərin təqdim etdiyi hüquqi mübahisələrin həlli üzrə məsləhətçi rəy verən orqandır. Onun çıxardığı qərarlar tövsiyə xarakterlidir".***

**- Ümumiyyətlə, bu Beynəlxalq Ədalət Məhkəməsinin qəbul etdiyi qərarların Azərbaycana ciddi təsiri ola bilərmi?**

- Məhkəmənin qərarından anlaşılır ki, Ermənistanla Azərbaycan arasında bir sıra hüquqi mübahisələrlə bağlı hələ yekun qərar yoxdur. Bu isə yekun qərar qəbul edilənədək verilən tövsiyədir.

**- Ermənilərin "bağlanıb" dediyi Xankəndi -Laçın yolu ilə Xankəndiyə humanitar yardım konteynerləri, Rusiya sülhməramlılarının yük maşınları, Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin yardımları mütəmadi olaraq daşınır, eləcə də , Xankəndidən mülki şəxslər, xəstələr, Ermənistana gedir-gəlir. Həmin yolla Arayik Artyunyan bir dəfə Fransaya, daha sonra Moskvaya işgüzar səfərlər edib. Hətta qondarma prezidentdən sonra qondarma dövlət naziri Ruben Vardanyan da o yol ilə Moskvaya səfərə gedib. Əgər yol bağlıdırsa, bəs bu necə baş verir? Məhkəmə, heç olmasa Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin hesabatlarınadamı baxmır?**

- Əslində Laçın yolunun bağlı olmadığı hər kəsə məlumdur. Aksiyanın ilk günündən Azərbaycanın rəsmi mövqeyi də bunu təsdiq edir. Eyni zamanda bu yol ilə sərbəst hərəkəti göstərən çoxsaylı foto-video faktlar var. Yəni, bu qərar xüsusi olaraq hansısa yenilik yaratmayacaq. Ermənistan həmçinin beynəlxalq məhkəmədən Azərbaycan tərəfinə etirazların "təşkili və dəstəkləməsini dayandırması" və Qarabağa "təbii qaz və digər kommunal xidmətlərin verilməsini dərhal bərpa etməsini"tələb edirdi. Lakin Məhkəmə Ermənistanın bu tələblərini rədd edib.

**- Amma , Azərbaycanın Ermənistana qarşı qaldırdığı haqlı iddia üzrə vəsatətinə baxmaqdan imtina edib...**

- Təəssüf ki, Beynəlxalq Ədalət Məhkəməsi bundan daha önəmli olan, insan həyatı üçün mühüm əhəmiyyət kəsb edən məsələ ilə bağlı fərqli yanaşma sərgiləyib. Bəli, Məhkəmə Azərbaycanın Ermənistana qarşı qaldırdığı haqlı iddia üzrə vəsatətinə baxmaqdan imtina edib. Azərbaycan ərazilərində minaların basdırılması və Laçın yolu ilə minaların daşınmasını dayandırmaqla bağlı Ermənistana qarşı tədbirlərin görülməsini istəmişdi. 10 noyabr "Atəşəkəs Bəyanatı"ndan sonra Azərbaycan ərazilərində 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalar aşkar edilərək zərərsizləşdirilib. Bu minaların partlaması nəticəsində 282 vətəndaşımız minaya düşüb. Onlardan 41 şəxs həlak olub. Haaqa məhkəməsinin bu istiqamətdə yanaşması ədalət prinsipinin kobud pozuntusudur. Azərbaycan beynəlxalq məhkəmədə Ermənistana qarşı tutarlı sübutlarla mübarizəsini davam etdirməlidir.

**-Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

**Əntiqə Rəşid**

# Dırnaq boyası ilə müharibənin simvoluna çevrildi



**Ukrayna-Rusiya müharibəsinin ən qanlı günlərinin qurbanlarından olan və dırnaq boyası ilə müharibənin simvollarından birinə çevrilən ukraynalı İrina Filkinanın yaxınları müharibədən sonra dəyişən həyatlarından danışıblar.**

Qohumları iki uşaq anası olan 52 yaşlı İrina Filkinanı dırnaq boyasından və manikürlü dırnaqlarından tanıyıblar. Velosipedinin yanından cansız bədəni tapılan qadının faciəvi hekayəsi beynəlxalq mətbuatda da işıqlandırılıb.

Bildirilib ki, istilik mərkəzində operator işləyən Filkina vizajist olmaq arzusunda idi və vizaj dərsləri alırdı.

Filkinanın böyük bacısı Svitlana Safonova Buçadakı məzarın önündə göz yaşı tökərək, "Mənim üçün həyat onun ölümü ilə başa çatdı" dedi. Qardaşının həyat dolu olduğunu izah edən Safonova, "Birinin uzun sürən xəstəlik nəticəsində dünyasını dəyişməsi başqadır. Amma bir insan heç bir səbəb olmadan gözlənilmədən öldürülürsə, bu, tamam başqa vəziyyətdir".

Filkinanın dostlarından olan Anastasiya Subaçeva da bu yaxınlarda Buçadan ayrılaraq Vilnüsə köçdüyünü və gözəllik salonunda işləməyə başladığını qeyd edərək, "İnstagram-da gəzərkən onun əlinin şəklini görəndə nəfəsim kəsildi" sözlərini əlavə edib.

Rusiyanın işğalı ilə bütün ukraynalıların həyatının oğurlandığını bildirən Subaçeva, "Amma canımızı geri almağa çalışırıq" dedi. Reuters xəbər verir ki, Filkinanın qızları da Buçada uşaqlar üçün ianə toplayan "Mama İra" adlı birlik yaradıblar.

Buça meri bəyan edib ki, müharibənin ilk dövründə rusların hücumları nəticəsində 400-dən çox dinc sakin həlak olub.

Rusiya o zaman Ukrayna və Qərbin qırğınlar və hərbi cinayətlər iddialarını rədd edirdi.

**Emin**

## *Böyük Britaniyada Ukrayna əsgərlərinin tank təlimləri davam edir*

**Böyük Britaniyanın Ukraynaya "Challenger 2" tankları göndərmək qərarından sonra ölkəyə gələn ukraynalı əsgərlərin təlimi davam edir.**

Ölkə Ukraynanın müdafiəsini dəstəkləmək üçün 14 tank göndərməyi və sursatla təmin etməyi öz öhdəsinə götürüb. Təlim keçən Ukrayna əsgərlərini ziyarət edən Böyük Britaniyanın müdafiə naziri Ben Uolles görüşdə bunları deyib: "İngiltərənin "Challenger 2" tanklarında təlim keçən ukraynalı əsgərlərlə görüşmək ruhlandırıcıdır. Onların ölkələrinin azad edilməsi üçün uğur qazanmaq əzmi Rusiyaya güclü mesaj verir. Ukraynalılar mübarizəni davam etdirəcək. Ukraynanı dəstəkləmək üçün lazım olanı təmin etməyə davam edəcəyik".

**Vasif Əlihüseyn**



*Mirzə Cəlil*



# Biz nəyik?

**Bəzi vaxt mən özüm-özümdən soruşanda ki, biz nəyik? Özözümə cavab verirəm ki, "biz heç bir şeyik".**

**Amma qəribə burasıdır ki, özgələr bizi bir şey hesab edirlər və hesab edib başlayırlar qorxmağa.**

**Bəlkə elə belə də lazımdır ki, bizi bir şey hesab edib bizdən ehtiyat eləsinlər?!**

**Söz yox ki, belə lazımdır və bizim məsləhətimizdir: amma biz özümüz öz əlimizlə öz işimizi xərab eləyirik.**

**O yerdə ki, biz görürük bizi bir şey hesab eləyib bizdən qorxurlar - başlayırıq astarımızı göstərməyə ki, baxın, görün, bizim qiymətimiz on dörd şahı, üç qəpikdir.**

***

**"Russkoye znamya" qəzeti Krım tatarlarından belə qorxur ki, elə bil yapondan qorxur.**

**Keçən nömrələrin birində həmin qəzet yazmışdı ki, "Baxçasaray şəhəri İstanbul ilə münasibətdədir, İstanbuldan göndərilmiş siyasi agentlər yuvasıdır. Qəhvəxanalarda, məktəblərdə sultanın şəkli divarlara asılır, dəri qalpaq əvəzinə Osmanlı fəsləri geyirlər, xülasə, xəyanət tədarükü görülür".**

**Bu rəhmətliyin oğlu İsmayıl bəyin də işi-gücü qurtarıb, "Tərcüman"ın 14-cü nömrəsində başlayıb "Russkoye znamya"nın yazdıqlarını yalana çıxarmağa.**

**Və lakin Qasprinski cənabları bunu bilməli olsun ki, "Russkoye znamya" və onun cəmi ... başlı firqədaşları indi indiyə kimi Baxçasaray tatarlarını bir şey hesab eləyirdilər, amma "Tərcüman"ın 14-cü nömrəsini oxuyub gördülər ki, bu millətin içi boşdur.**

**Məsələn, bir camaatın ki, ticarət sinfinin rəisi ola S.M.Toppuzov, - o camaatın içi boşdur.**

**Bir millətin ki, üləmasının başçısı ola Xəlil, Əbdürrəhman, Hacı Əmir, Həbibulla, Mustafa, Seyid İbrahim, Ağa Mir Kərim, Axund Məhəmməd Bağır, - o millətin içi boşdur.**

**Gələk bələdiyyə rəislərinə. Süleyman Mirzə Krımtayev oxumaq və yazmaq bilməz və qəzetləri görmək istəməz.**

**Qafqazın hər nə qədər xanzadə və dövlətli mülkədarı var, - hamısının cavan uşaqları dərslərini yarımçıq qoyub, hökumətə ixlas ilə qulluq eləməkdədirlər ki, on üç ildən sonra bir nişana sahib olsunlar.**

**Bəylərimiz və xanlarımız mülklərindən hər il on min manat mədaxil ola-ola, naçalnik divanxanasında mirzəlik eləyirlər ki, bir kokardalı böyük görəndə baş yendirsinlər.**

***

**Budur bizim işlərimiz, biz buyuq. Amma özgələr bizi bir şey hesab edir.**

**Mən ölüm, üstünü açma!**

**"Molla Nəsrəddin", 9 aprel, 1911**

*Zaur Əhməd*



# Hökumətin barmağı...

***Hökumətimizin işıq gələn yerə barmaq tıxamaq kimi bir adəti vardır. Nə deyə bilərik, barmaq onun, işıq onun...***

***Amma bir şeyi deyim ki, bizim camaat fərasətli və zəhmətkeşdir. Xüsusən pul qazanmaq məsələsində dünyada nadir xalqlarındanıq ki, mütləq mənada hər işdə bir qazanc yeri yarada bilirik.***

***Elə qadınlarımız var ki, Rusiyadan, İrandan, Türkiyədən mal gətirib satırdılar. Xeyli ailə bu yolla dolanırdı. Amma hökumət yoldaş zaman-zaman bu cür işıq gələn yerlərə barmaq tıxadı. İndi də "Trendyol"a məhdudiyyət qoymaq istəyirlər. Hökumət abi deyir ki, guya "Trendyol"un Azərbaycana, xüsusilə Türkiyə istehsalı olan məhsulların satışı ilə bağlı haqsız rəqabət ehtimalları, rəqabət narahatlıqları yarana bilər.***

***Amma bu dəfə hökumətin işıq gələn yerə barmaq tıxamaq adətinə başqa məna vermək istəyirəm. Yəqin ki, Koroğlu dastanını hamı oxuyub. Alı kişi qır atı 40 gün, 40 gecə qaranlıq tövlədə saxlayır. Amma oğlu Rövşən, yəni, bizim Koroğlu səbri çatmır damdan deşik açıb ata baxır. İçəri işıq düşdüyü üçün qır atın qanadları çıxmır, yoxsa qanadlı at olacaqdı. Yəni, vaxtında tövlənin işıq gələn yerinə barmaq tıxansaydı, qıratın qanadı olardı.***

***Bizim hökumət abi də işıq gələn yerə barmaq tıxayır ki, içəri işıq düşməsin. Bəlkə də bizi mələk kimi qanadlarımızın olmasını istəyirlər. Şəxsən mən bu hökumətdən ne desəniz, gözləyirəm. Belə baxanda, hökumətimiz pis hökumət deyil, sadəcə. biz onu anlamırıq...***

## *Qızı ərə gedən Arayik yolun təcili açılmasını niyə tələb edir?: Əsl səbəblər...*





**Azərbaycan Qarabağ İqtisadi rayonunda separatçılar tərəfindən yaradılmış qondarma qurumun rəhbəri "prezident" Araik Arutyunyan yaxın vaxtlarda qızı ərə gedir.**

Adalet.az xəbər verir ki, cütlük uzun müddətdir ki, nişanlıdır, toyları oktyabra planlaşdırılsa da, təxirə salınıb və dekabrın 12-dən sonra bu, mümkünsüz olub. Baş separatçının kürəkəni xilasetmə xidmətində işləyir, qızının tələbə yoldaşı olub, Əsgəran rayonunun Noraqığ kəndindəndir. Xbəri "Hraparak" yayıb.

Nəşr yazır ki, Xankəndidə şaiyələr gəzirdi ki, onlar toyu Ermənistanda keçirmək qərarına gəliblər ki, Ermənistan rəsmiləri də iştirak etsin və buna görə də Arayik Arutyunyan Laçın yolunun açılması üçün hər şeyi edir, lakin yaxın ailə üzvlərindən biri bizim sualımızdan çox üzülərək deyib:

"Bu, istisnadır, biz bunu Artsaxda çox kiçik heyətlə edəcəyik, əgər vəziyyət dəyişməsə. Və vəziyyət dəyişsə və yol açılsa, biz bunu bir qədər geniş komanda ilə edəcəyik, amma bir neçə aydan sonra və mütləq Artsaxda".

**Qeyd edək ki, 2020-ci ildə Azərbaycanın istintaq orqanları tərəfindən Ermənistan nümayəndəsi, özünü qondarma "DQR"in "prezidenti" elan edən Araik Arutyunyan barədə cinayət işi başlanıb.**

**Əntiqə Rəşid**

# "Heydər Əliyev İli" çərçivəsində poeziya axşamı keçirildi




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar "Azərsu" ASC-nin Tədbirlər Planına uyğun olaraq, Bakı Kitab Mərkəzində Azərbaycan Yazıçılar Birliyi ilə birgə "Sözün də su kimi lətafəti var" mövzusunda poeziya axşamı keçirilib.**

Adalet.az xəbər veri ki, tədbiri giriş sözü ilə açan "Azərsu" ASC-nin sədr müavini Seymur Seyidov ölkəmizin su təsərrüfatı sektorunun inkişafında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən danışıb.

Bildirib ki, Azərbaycanda su təsərrüfatı sektorunda həyata keçirilən irimiqyaslı layihələrin böyük bir hissəsi ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə həyata keçirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə içməli su təsərrüfatı sektoru yeni inkişaf dövrünə qədəm qoyub. Bakı şəhəri və ətraf qəsəbələrdə, həmçinin, regionlarda içməli və tullantı su sistemlərinin yenidən qurulması istiqamətində mühüm layihələr həyata keçirilir.



Azərbaycan Yazıçılar Birliyinin birinci katibi, xalq yazıçısı Çingiz Abdullayev qeyd edib ki, tədbirin baharın ilk müjdəçisi olan su çərşənbəsində keçirilməsi təsadüfi deyil: "Ümummilli lider Heydər Əliyev ölkəmizin su sektorunun inkişafında böyük işlər görüb. Mədəniyyət və incəsənəti xalqın böyük sərvəti hesab edən Ulu öndərin respublikamıza rəhbərlik etdiyi illərdə digər sahələr kimi Azərbaycan mədəniyyəti də özünün intibah dövrünü yaşayıb".

Poeziya axşamında çıxış edən xalq şairi Vahid Əziz, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli, BDU-nun professoru Ramiz Əsgər və digər qonaqlar ulu öndər Heydər Əliyevin su təsərrüfatına və ədəbiyyata göstərdiyi qayğıdan, suyun əhəmiyyətindən, ədəbiyyat və incəsənət əsərlərində su mövzusuna geniş yer verildiyindən danışıb, Milli Konservatoriyanın professoru Fəxrəddin Salimin sazda ifaları səslənib.

**Tədbir çərçivəsində ulu öndər Heydər Əliyevin həyatı və fəaliyyətini əks etdirən fotosərgi nümayiş olunub.**

# Gün gələcək, Xocalıda müqəddəs bayrağımız dalğalanacaq!

**Fevralın 18-də Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən siyasi müzakirələr zamanı bütün dünyanın gözləri önündə xalqımızın ədalət tələbini beynəlxalq birliyə bəyan etdi: Azərbaycan xalqı son 30 il ərzində başına gətirilən faciələri unutmaq niyyətində deyil. Kim bunu istəyirsə, əsassız arzulara ümid etməsin. Növbəti ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımı XX əsrin ən qəddar, qanlı, zalım qətliamlarından biridir. Ailələr yer üzündən silinib, qoca, qadın uşaqlar amansızcasına qətlə yetirilib və bütün bunlar beynəlxalq aləmin gözləri önündə baş verib. Dünya videogörüntülər və fotosübutlar vasitəsilə bu barbarlığa şahid olub, biz azərbaycanlılar isə törədilən zülmü ömürlük yaddaşımıza həkk etmişik.**

Xocalıyadək Qarabağda yuva qurmuş erməni aqressiv separatizmi bir neçə xaraktercə oxşar və bir xalqın tamamilə yer üzündən yox edilməsini qarşısına məqsəd qoymuş qırğınlar törətmişdi. Qaradağlı, Quşçular, Malıbəyli qətliamları bu terror aktlarının bir neçəsidir. Ancaq Xocalı faciəsi vəhşilik, qəddarlıq miqyasına görə onları çox geridə qoymuşdu. Yenicə şəhər statusu almış böyük yaşayış məskəni artileriya qurğularından atəşə tutulduqdan sonra gülləbaran edilmiş, əhalisi vəhşiliklə qətlə yetirilmişdir.

Xocalı soyqırımı bir tərəfdən xalqımızın müasir tarixinə qanlı hərflərlə yazılsa da, digər tərəfdən əzəli yurdumuzda kök salmış separatçı terrorçuların, onlara dəstək olan Ermənistanın dərin səhvə yol verdiklərinin göstəricisi idi. İllər sonra əlləri xalqımızın qanına batmış Serj Sarkisyan müsahibələrindən birində deyəcəkdi:

"Biz belə etdik ki, Azərbaycan xalqının gözü qorxsun".

Onlar bizi qorxutmaq istəmişdilər, ancaq daha vacib amili nəzərdən qaçırmışdılar ki, bu da cinayətkarlara, canilərə xas haldır: qətl etdiyiniz bu xalq Xocalını sizə heç vaxt bağışlamayacaq və törədilən genosidi unutmayacaq!

Qisas anını 28 il gözlədik. Öldürülən, əlil edilən azərbaycanlıların övladları, heç vaxt Qarabağ, Xocalı üzü görməmiş gənc, yeni nəsil min bir hiylə ilə, terrorla, bir neçə ilə işğal edilən torpaqlarımızı cəmi 44 günə düşməndən xilas etdi. Xalqımız Xocalını 28 ildir unutmadığını göstərdi. Nəsillərin dəyişməsinə, şahidlərin dünyadan köçməsinə baxmayaraq. Çünki bu qanlı soyqırmı bizim tarixi yaddaşımıza, qisas hissi isə qanımıza hopmuşdu. Gün gələcək, yeni nəsil xocalılar Xocalıda müqəddəs bayrağımızı dalğalandıracaq, əcdadlarımızın məzarlarını ziyarət edəcək və düşmənə gözdağı verəcəklər!

**Səmədov Natiq Mirzəxan oğlu,**
**Bakı 1 saylı Asan Xidmət Mərkəzində ƏN xüsusi notariat ofisinin notariusu**

# Əsir qadın: "Ermənilər təpiklə yaralı ayağıma vururdular..."

**Xəbər verdiyimiz kimi fevralın 26-da Xocalı faciəsinin 31-ci ildönümü qeyd olunacaq.**

Adalet.az-ın əməkdaşı bu münasibətlə Xocalı faciəsi zamanı qardaşı Elşad Ağayevlə birlikdə ermənilərə əsir düşən və 8 gün olmazın işgəncələrinə məruz qalan Dürdanə Ağayevanın əsirlik həyatını silsilə şəkildə təqdim edəcək.

**Qeyd:** Dürdanə Ağayeva Xocalı şəhərində anadan olub. O, Xocalı faciəsi vaxtı Rabitə qovşağında telefonçu işləyib. Onları erməni əsirliyindən Milli Qəhrəman Allahverdi Bağırov azad etdirib. D.Ağayeva əsirlikdən qayıtdıqdan sonra əsirlik həyatından bəhs edən "Səkkiz gün erməni zindanında" adlı kitab yazıb. Kitab türk və rus dillərinə tərcümə edilərək dünya ictimaiyyətinin diqqətinə çatdırılıb.

**Hadisəni D.Ağayevanın dilindən təqdim edirik:**

"Fevralın 25-dən 26-na keçən gecə yatmağa hazırlaşırdıq, çox yorğun idim. Amma qəfildən şəhər raketlə atəşə tutulmağa başladı. Anam bizi dərhal qonşumuz Tayyib dayının evinin zirzəmisinə apardı. Hamımız ora sığındıq. Tayyib dayı dedi ki, deyəsən artıq əcəlimiz çatdı. Qorxudan boğulurdum. Qonşumuz Məhəmməd dayı gəlib dedi ki, çıxıb getməliyik, yoxsa ermənilər gəlib bizim hamımızı öldürəcək. Həmin vaxt qardaşlarım Elşad və Elman da gəldi. Anam çox ağlayırdı, uşaqları üçün qorxurdu. Hamımız Xocalının girişinə doğru qaçmağa başladıq. Atılan raketlər zülmət gecəni işıqlandırıb yerimizi düşmənə bəlli edirdi. Biz Qarqar çayının üstündəki körpünün altına toplaşdıq. Artıq orda da gözləmək mümkün deyildi. Qaçmaq üçün bir yolumuz vardı və bunun üçün Qarqar çayının içindən keçməliydik. İnsanlar o soyuq qış gecəsində çayı keçib meşəyə tərəf qaçmağa başladılar. Meşənin içiylə yol gedirdik. Dönüb arxaya baxanda gördük ki, Xocalı alovun içində yanır".

### "Bir saat içində yüzlərlə insan həlak oldu..."

"Qarşıda isə ermənilərin bizə pusqu qurduqlarından xəbərsizdik. Taqətimiz tükənmişdi, yaşlı nənə və babalar, körpələr donub qaldılar. Amma qarşıda bizi təhlükə gözlədiyini sanki hiss edirdik. Yolda yaralı hərbçimiz Akif Quliyev vəfat etdi. Onun meyitini orda qoyub yolumuza davam etdik. Amma yanımızda olan hərbçilərimiz ermənilərin bizə pusqu qurduğunu dedilər. Qəfildən bizi atəşə tutdular. Bir saat içində yüzlərlə insan həlak oldu. Anamdan, nənəmdən, qardaşlarımdan ayrı düşdüm. Sürünərək xilas olmağa çalışırdım. Amma qəfil hiss etdim ki, ayağıma nəsə dəydi. Ayağımı don vurduğu üçün güllənin ağrısını da hiss etmirdim. Ermənilər sağ ələ keçirdikləri insanın ya başını kəsir, ya da diri-diri yandırırdılar. Sürünərək Ağdam tərəfə getməyə çalışırdım. Bu zaman qardaşım Elşadı gördüm və sevindim. Elşad da sağ böyründən yaralanmışdı. Qorxudan rəngi ağappaq idi. Xocalıda gitara ifaçısı kimi tanınan Valehi və həyat yoldaşı Səadəti də gördüm. Səadət hamilə idi. Onlar bir az irəli getmişdi və qəfildən ermənilər Səadəti vurdular. Onda düşmənə əsir düşdük, əlimizdə silahımız yox idi. Valeh də əsir düşdü. Bizi Əsgərəna polis idarəsinin binasına gətirdilər".

### "Ermənilər qadınların qızıllarını, pullarını əllərindən aldılar..."

"Polis binasında ermənilər əsirlərə olmazın işgəncələrin verirdilər. Qadınları və kişiləri ayrı-ayrı otaqlara saldılar. Ondan sonra mənim səkkiz günlük əsirlik həyatım başladı və olmazın işgəncələrinə məruz qaldım. Ermənilər qadınların qızıllarını, pullarını əllərindən aldılar. Mənim bir əl çantam var idi, içində qızılım, pulum vardı və bir də güllə götürmüşdüm ki, əsgərlərimizə verərəm. Erməni çantamı açanda gülləni görüb dəli oldu və soruşdu ki, sən döyüşçüsən? Dedim ki, yox. Gülləni götürüb sifətimə çırpdı. Daha sonra yaralı və uşaqlı qadınları gəlib otaqdan apardılar. Məleykə xala adlı bir qadın var idi, dedi ki, onları Ağdama dəyişməyə aparırlar. Məleykə xala mənə dedi ki, sən də get, yaralısan, gənc qızsan burda qalma. Dedim ki, yox, qardaşım Elşadı burda qoyub gedə bilmərəm".




"Artıq otaqda 6 nəfər qalmışdıq. Gözləyirdik ki, bizi də gəlib aparacaqlar. Növbəti dəfə ermənilər qapını açıb qadınları aparanda mən qapının arxasında gizləndim. Onlar məni görmədilər və otaqda tək qaldım. Səhər açılanda otağa süpürgəçi erməni qadın daxil oldu. O məni görəndə təəccübləndi və soruşdu ki, səni niyə aparmayıblar. Daha sonra əlindəki süpürgəylə məni döyməyə başladı. Qadın otaqdan gedəndən sonra otağa üç-dörd erməni hərbçi daxil oldu və məni döyməyə başladılar. Daha sonra onlar məni bir otağa apardılar. Orda peç sobası yanırdı, otaq çox istiydi. Əlində dəftər olan bir erməni məni sorğu-suala tutdu. Niyə burda qaldığımı soruşanda dedim ki, qardaşım Elşadı qoyub getmək istəmədim. Sonra yaralı ayağımı açıb baxdılar və bir nəfər təpiklə ayağıma vurmağa başladı. Qarşımda duran uzun adam tapşırıq verdi ki, məni otağıma aparsınlar. Dedi ki, adım Vitalidir. (Vitali Balasanyan) Məni yenə gətirib o soyuq otağa atdılar. Həm donurdum, həm də qardaşlarımın, anamın harda olduğunu düşünürdüm".

### "Monte Melkonyan saçımdan tutub otaqda sürüyürdü..."

"Vitalı Balasanyan həmin korpusun komandiri idi. O Azərbaycan dilində sərbəst danışırdı və mənim haqqımda da bütün məlumatları əldə etmişdi. Rabitəçi olmağım mənə daha da problem yaradırdı. Artıq fevralın 27-si idi, tək qaldığım soyuq otaqda sümüklərim sızıldayırdı. Bu zaman qapı açıldı və yekəpər bir erməni içəri daxil olub mənə su gətirdi. Mən isə qorxumdan suyu istəmədiyimi dedim. O da qapını möhkəm çırpıb çıxıb getdi. Daha sonra yan otaqlardan kişi bağırtılarının səsi gəlirdi. Məlum idi ki, bizim kişi əsirlərə olmazın işgəncələrini verirdilər. Qapı yenə açıldı və bir erməni hərbçi otağa daxil oldu. Mənə dedi ki, "ayağa qalx!" Mən də ayağa qalxdım və bu zaman məni təpiklə vurub yerə yıxdı. Sonra isə əlindəki dubinkayla məni döyməyə başladı. O qədər döydü ki, bədənimdə bir dənə salamat yer qalmadı. Ancaq əllərimlə üzümü tutdum ki, zərbə üzümə dəyməsin. Erməni hərbçi yorulduqdan sonra dayandı və otaqdan çıxıb getdi. Hələ heç bədənimdəki ağrılar dayanmamış qapı yenə açıldı və bu dəfə üç nəfər saqqlı erməni otağa daxil oldu. Onlar da məni vəhşicəsinə döyməyə başladılar. Bu zaman bir nəfər erməni gəlib onları çağırdı və məni döyməyi dayandırıb otaqdan çıxdılar. Onları çağıran erməni məndən soruşdu ki, su istəyirsən? Dedim ki, hə, olsa, içərəm. Bu zaman o qabda su gətirib mənə uzadanda qəfildən əlini geri çəkib suyu üstümə tökdü və gülərək qapını bağlayıb çıxıb getdi".

"Dedi ki, səni bura kim bağlayıb?"

"Gecə saatlarında bir erməni gəlib məni otaqdan çıxardı. Üfunət qoxuyan tualetə gətirdi və qollarımı arxadan bağlayıb qışqırdı ki, yerə çök! Mən də yerə çökdüm və o kəndirlə boğazımdan qapıya bağladı. Məni bir müddət döyəndən sonra çıxıb getdi. Burda isə üfunət qoxusundan durmalı deyildi, amma məcbur orda qaldım. Səhər açılanda tualetin içini görəndə dəhşətə gəldim. Tualetə gələn rus əsgəri məni görüncə təəccübləndi. Dedi ki, səni bura kim bağlayıb? Dedim ki, bilmirəm. O əllərimi və başımı kəndirdən açdı. Artıq taqətim də tükənmişdi. Rus əsgəri mənə kömək edib ayağa qaldırdı və isti bir otağa gətirdi. O erməni hərbçilərə əsəbiləşdi. Bir az keçəndən sonra məni yenə saxlandığım otağa gətirdilər. Məni Vitali yanına çağırtdırdı və yanındakı adamı göstərib dedi ki, "bunun adı Karodur və o nə soruşsa, cavab ver. Vitali otaqdan getdikdən sonra Karo mənimlə sorğu-suala başladı. O soruşdu ki, "Əlifi görmüsən? Dedim ki, yox. Bu zaman məni silləylə vurdu və dedi ki, "yalan danışma". Daha sonra otağa saqqalı bir adam girdi və Karo ona Monto deyə müraciət edirdi. Sonradan bildim ki, bu Monte Melkonyan idi. Karo otaqdan getdi və mən Monteylə qaldım. Monte məni maşına mindirərək bir evə gətirdi. Mən sobanın qırağında oturub gözləyirdim və o isə özüylə gətirdiyi arağı içib, sobanın üstündə özünə kartof bişirirdi. Orda məndən soruşdu ki, "Əlifi tanıyırsan?" Dedim ki, bəli. Soruşdu ki, sən onu Xocalıya hücum etdiyimiz gecəsi gördünmü? Onun başını kəsəcəm. Daha sonra o mənə əmr etdi ki, paltarlarımı soyunum. Bunu etmədiyimi gördükdə məcburən özü mənim paltarlarımı əynimdən çıxardı. Saçımdan tutaraq məni otaqda sürüməyə başladı. Məni o qədər döydü ki, özümdən getdim və bir də ayılanda gördüm ki, üstümə su tökür. Yerdən paltarlarımı götürərək üstümə atdı və dedi ki, geyin! Özü isə keçib divanda oturub siqaret çəkməyə başladı. Dedi ki, sən Vitaliyə lazım olmasaydın, öldürəcəkdim. Sən rabitəçi olmusan, üstümüzə güllə atmısan, hər şeyi rabitəylə əsgərlərinizə xəbər vermisən. Bütün bunlardan sonra o məni maşına mindirib saxlandığı kameraya gətirdi".

"Bu vəhşilər mənə olmazın işgəncələrin verirdilər..."

"Burda yenə də bağırtı səsləri gəlirdi. Bizim kişi əsirləri döyürdülər Onların bağırtısını eşitməmək üçün qulaqlarımı tuturdum, amma yenə də ürəyim parçalanırdı. Məni yenə Vitalinin otağına apardılar. Orda Vitali və Karo oturmuşdu. Karo mənə dedi ki, "heç bilirsən burda sizin səksən nəfərə yaxın kişi əsirləriniz var. Sən bizə lazımsan, səni geri qaytarmayacağıq. Ora yaxşıdır, yoxsa bura"-deyərək gülməyə başladı. Vitali isə səssizcə oturub siqaret çəkirdi. Bir neçə dəqiqə sonra Vitali Manvel adlı bir ermənini çağırdı və o məni kamerama apardı. Gecəni yenə bədənimdəki ağrılara görə dirigözlü açdım. Bu vəhşilər mənə olmazın işgəncələrin verirdilər. Qardaşım Elşaddan da nigaran idim və ona görə bütün əzablara dözürdüm. Səhərə yaxın bir az mürgüləmək istəyirdim ki, kameranın qapısı açıldı və bir nəfər içəri girdi. Bu Karoydu. O mənim yatmaq istədiyimi görüb əsəbiləşdi və təhqir etməyə başladı. Yumruq-təpiklə məni döydü. Deyirdi ki, "biz Xocalını atəşə tutanda sən rabitəylə Bakıdan kömək istəmisən. Bəs hanı sənin köməyin?". O məni kameradan qovub koridora çıxardı. Özü isə otağına keçdi. Daha taqətim qalmamışdı, yaralı ayağımın da qanaxması başlamışdı. Otaqdan bir erməni çıxıb məni kamerama qaytardı. Otaqda yıxılıb qalmışdım və bu zaman kişi əsirlərimizin saxlandığı kamerada 20-30 dəfə kalaşnikov avtomatından atəş açıldı. Məlum idi ki, bizim əsirləri güllələyirdilər və onların içində qardaşım Elşad da var idi. Ən çox da qardaşıma görə narahat idim. Qapı açıldı və erməni içəri daxil olub su istəyib-istəmədiyimi soruşdu. Mən də su istədim. O su gətirdi və içdim. Su dadsız, qar suyu idi, amma içməyə məcbur idim. Erməni dedi ki, "kamerada ermənilər yoxdu, getdilər və ona görə sənə su gətirə bildim. Mən müsəlmanların çörəyini çox yemişəm. Türklər mənə çox yaxşılıq edib və bunu unuda bilmərəm. Su istəsən, yenə gətirərəm, amma çörək yoxdur olsaydı, verərdim". Ondan yan kamerada güllə səsi gəldiyini soruşdum və dedi ki, "Karo azərbaycanlı gənci güllələdi".

**(ardı var)**

**Vasif Əlihüseyn**

# İgidliyi ilə İsraili fəth edən ağdamlı Cəlalın atası Elşən Hüseynovla MÜSAHİBƏ

***Azərbaycan hər zaman igidlər yurdu, qəhrəmanlar məkanı olub. Onların Azərbaycanın hər qarışında əziyyəti, sağlamlığı, qanı var. Hələ lap qədimlərdən, bu belə olub.***

***On ikinci əsrdə yazılmış qəhrəmanlıq dastanı olan "Dədə Qorqud" da da igidlərimizə böyük yer verilib. Uzun sözün qısası, Azərbaycan oğullarının genetikasına xas olan bu xüsusiyyət dünyanın harasında olursa olsun, özünü biruzə verir. Bu günlərdə sinəmiz yenə qürur hissi ilə döyündü. İsrail Respublikasında gələn xəbər dövlətlərarası dostluğun mücəssəməsinə çevrildi. Siz də xəbərdar oldunuz ki, İsrail Prezidenti İshak Hersoq ölkə ordusunda xidmət edən azərbaycanlı Cəlal Hüseynovu qəbul etdi.***

***Ölkədə ilin yekunları ilə bağlı keçirilən tədbirdə Prezident İsrail dövlətinə yönəlmiş böyük terror aktının qarşısını tək başına aldığı üçün 19 yaşlı C. Hüseynova mükafatı şəxsən özü təqdim etdi. Mərasimdə Cəlala böyük sürpriz də təşkil edildi. Belə ki, onun xəbəri olmadan anası Nüşabə Əliyeva İsrail dövlətinin təşkilatçılığı ilə Bakıdan Təl-Əvivə aparıldı.***

***Dekabrın 20-də baş tutmuş təltifetmə mərasimi zamanı C.Hüseynov anası ilə görüşüb və təsirli anlar yaşandı. Görün, nəinki bir valideyn üçün, ölkəmiz, xalqımız üçün necə böyük və fəxr ediləsi bir hal yaşanıb. Hazırda Nüşabə xanım İsraildə olduğu üçün qəhrəman gəncimiz Cəlalla bağlı söhbətimizi onun atası Elşən Hüseynovla Adalet.az -n redaksiyasında görüş təşkil etdik. Bir atanın öz oğlu ilə fəxr etməsinin sevincini Elşən bəyin gözlərində aydınca görmək mümkündür! İndi keçək, bizi maraqlandıran suallara...***

**-Kolanı tayfası igidlikləri, döyüşkənlikləri, cəsurluğu ilə seçilən türk tayfalarındandır və siz də bu tayfanın nümayəndəsisiniz. Əsliniz hansı kənddəndir?**

-Atam Cəlal ki, babam Mehdi kişi Ağdamda tanınmış şəxslərdən olub, əslən rayonun Qalayçılar kəndindədir. Babam Mehdi Hüseynov Ağdam NKVD-sində (indiki DTX və daxili işlər şöbəsi) əməliyyatçı olub. Xalqı incidən, xalqın malına kəm baxanlara, kasıbların mal-qarasını oğrulayanlara qarşı qarşı amasız olub. Dövlətə qarşı olanların həbs edilməsində böyük əməyi olub. Babamın həmyaşıdları deyirdilər ki, Mehdi silahlı adamın üstünə əliyalın gedib, onu tərkisilah edib. 1970-ci illərə qədər bu sahədə çalışıb və ilkin əməliyyat proseslərini özü şəxsən aparıb. O dövrdə onu nəinki, Kolanı dərəsi, Ağdam, hətta bütün respublika tanıyırdı. Atam Cəlal Mehdi oğlu isə Ağdam 6 nömrəli orta məktəbdə ingilis dili müəllimi işləyib.

**- Atanız Cəlal müəllim haqda araşdırmaçı-jurnalist Orxan Zakiroğlunun məqalələrində tanış olmuşdum: Ağdam musiqi təmayüllü orta ümumtəhsil internat-məktəbinin ingilis dili müəllimi (1967-1968), Ağdam şəhər 6 nömrəli orta məktəbin ingilis dili müəllimi (1968-1980), Ağdam rayonu 2-ci Sarıcalı kənd orta məktəbinin direktoru (1980-1993), Bərdə rayonu Molla İsalar kəndində yerləşən 156 saylı Ağdam köçkün orta məktəbin direktoru (1993-1996) vəzifəsində çalışmışdır. 1996-2009 illərdə 6 min məcburi köçkünü olan "Türk Qızıl Ay" çadır şəhərciyinin icra nümayəndəsi olmuşdur. 2009-cu ildən təqaüddə idi. Cəlal Hüseynov "Baş müəllim" adına, "Qabaqcıl maarif xadimi" döş nişanına layiq görülmüşdür".**

-Bəli, bizim nəsil ləyaqətli oğulları ilə tanınıb. Heç birnin başqasının malında gözü olmayıb. Düşüncələri ancaq xalqın gələcəyinə töhvə vermək olub. Müharibə və ondan sonrakı illərdə dövlət və dövlətçilik naminə fəal insanlardan olub, hətta ümummilli lider Heydər Əliyevin qarşısında çıxış da edib.

**-İndi də özünüzdən danışın...**

-Mən özüm Ağdamda dünyaya göz açmışam. Ömrümün ən gözəl çağında ermənilərin və onların havadarlarının sayəsində yurdumuzu tərk etməli olduq. Bakıda məskunlaşdıq.Ailə qurdum. Iki oğul övladımız var. Atamın adını qoyduğum Cəlal və Elmir. Hazırda isə işsizəm.

**-Bir ata kimi Cəlalın qəhrəmanlığına ilk reaksiyanız necə oldu... Hər halda bu "ölüm-dirim" məsələsi olub.**

-Xəbəri hamı biləndə bildim. Düzü, ürəyim fəxrlə elə doldu ki, o təhlükə ağlıma da gəlmədi. Xüsusən, oğlumun dost ölkədə göstərdiyi qəhrəmanlığın İsrail xalqı tərəfindən də rəğbətlə qarşılandığını, insanların sevimlisinə çevrildiyini görəndə sevincdən həyəcanlandığımı, təsirləndiyimi də gizlətmədim. Cəlal xidmət zamanı yaxasında Azərbaycan və İsrail dostluğunu təcəssüm etdirən döş nişanı daşıyır. Çoxlarına qəribə gələ bilər, amma Cəlalın bu qəhrəmanlığı İsrail və Azərbaycan dostluğunu-qardaşlığını daha da möhkəmləndirilməsinə töhfə verəcək. Bilirsiniz, bir var oğul ataya görə tanına, bir də var ata oğlun hesabına tanına, hörmətlənə! Bu valideyn üçün təkrarsız bir yaşantıdır! Söz tapa bilmirəm o hisslərimi ifadə edəm! Allah hamıya xeyirli övlad nəsib etsin!

**-Cəlalın zərərsizləşdirdiyi terrorçuların təbii ki, əlaltıarı var, həyatı təhlükə yarada bilərlər. Cəlal düşünür ki, işindən aralaşsın, bir müddət Azərbaycana gəlsin...**

-Cəlalda qətiyyən, qorxu hissi yoxdu , heç balaca vaxtından qorxaq olmayıb.

Balaca vaxtı, onun tay-tuşlarının , sinif yoldaşlarının qorxduğu , çəkindiyi şeylər Cəlalın umrunda da olmazdı.Məsələn, məhlədə hər kəs, böyüklü -kiçikli üstlərinə hürə-hürə gələn küçə itlərini görəndə yolunu dəyişirdi. Cəlal qorxmadan itin üstünə yüyürürdü. İt qaçıb uzaqlaşırdı. Uşaq vaxtından belə idi. Bu xüsusiyyətinə görə həmişə bizi təəccübləndirib. Həm də 9-cu sinfi Bakıda bitirdikdən sonra qohumlarımın yaşadığı İsrailə gedib. Elə orta məktəbi orada bitirdiyi üçün bu ölkənin ordusunda xidmət keçib. O, həm Azərbaycan, həm də İsrail vətəndaşıdır. İsraili də Azərbaycan qədər sevir. Həyatına olacaq təhlükə üçün heç vaxt meydandan uzaqlaşmaz!










**-Cəlal İsraildə uzun illərdir ələ keçirilməsi mümkün olmayan terror qrupunu zərərsizləşdirib, bu şücaətinə görə mükafatlandırılıb. Nə vaxtsa, Azərbaycana dönüb buradakı terrorçulara qarşı da mübarizəyə qoşulacaqmı?**

-Vallah, oğlumdur deye, söyləmirəm, Cəlal çox təəssübkeş, vətənpərvər uşaqdı.

Azərbaycanın igid oğulları ilə fəxr edirdi. Milli Qəhrəmanımız Mübariz İbrahimova kumiri kimi baxırdı. Bəlkə də elə idmanı da Mübarizə görə sevdi, məşqlərdən qalmadı, məşqçinin tapşırıqlarını dərhal götürdü, başqalarından seçildi.

Peşəkar idmançıdır, hal-hazırda O İsrail hərbi polisinin xüsusi təyinatlı qrupuna qəbul edilən gənc əsgərlərə əlbəyaxa döyüş növü üzrə təlim keçir. Cəlalın ən böyük arzusu Azərbaycan silahlı qüvvələrinin sıralarında xidmət etməkdir. O, İsraildə xidmətini başa vurduqdan sonra burada xidmətə qoşulmaq niyyətindədir.

**- Heç, qəhrəmanımızın böyük qardaşı Elmirdən danışmadınız...**

**Elmir 1998-ci ildə anadan olub. Sərhəd qoşunlarında əsgərliyini başa vurandan sonra o da getdi qardaşının yanına. Hazırda orada işləyir. Söhbətimizin şirin yerində "Ədalət" qəzetinin təsisçisi, Azərbaycanın sevilən yazıçısı, millət vəkili Aqil Abbas da gəlib çıxdı. O da Cəlalın qəhrəmanlığından qürur hissi keçirdiyini, Azərbaycan oğullarının igidliyindən, cəsarətindən hər zaman ilham aldığını söylədi: "Belə gənclər xalqımız üçün xəsinədir, sərvətdir, o sərvəti, xəzinəni bu xalq üçün yetişdirən valideynlərə halal olsun!"**

**Qeyd edək ki, Cəlal Hüseynov hazırda İsraildə hərbi xidmət keçir. Xidməti başa vurduqdan - 1 il 2 ay sonra Azərbaycana qayıdacaq.**

**Əntiqə Rəşid**

# Tramp: «Prezident seçilsəm, Rusiya-Ukrayna münaqişəsini dayandıraram»

**ABŞ - ın eks prezidenti Donald Tramp Floridada tərəfdaşları qarşısında çıxışı zamanı söz verib ki, növbəti seçkilərdə qələbə qazanarsa, elə həmin gecə Putin və Zelenskiyə zəng edib, onlarlı Ukrayna münaqişəsinə son qoyulması üçün danışıqlara başlamsğa dəvət edəcək.**

Eks prezidentin Moskva və Kiyev arasında dialoqun aparılması məsələsini qaydaya salmaq vədini şərh edən Rusiyanın Əmık və sosial münasibətlər Akademiyasının dosenti Pavel Feldman bildirib ki, bunu Trampın seçi öncəsi piar-gediş addımı kimi qiymətləndirmək olar. "Ağ Evin keçmiş xozeyni özünəməxsus manerada hazırki prezidentlə kontrast oyun oynayır. Tramp göstərmək istəyir ki, qlobal təhlükəsizlik problemlərini Baydendən daha effektli həll etmək iqtidarındadır" - deyə Feldman bildirir. Feldman qeyd edir ki, Tramp hakimiyyətdə olduğu dörd il ərzində ağlagəlməz beynəlxalq məsələləri həll etmək bacarığını göstərə bilib. Bir vaxtlar məhz onun sayəsində İsrail və Birləşmiş Ərəb Əmirlikləri arasında münasibətlərin normallaşdırılması ilə bağlı tarixi razılaşma imzalanıb. "Lakin bütün bunlara baxmayaraq, hətta Trampın "möcüzəsi" də Rudiya- Ukrayna münaqişəsini çətin ki, keyfiyyətli dərəcədə dəyişə bilər. O, 2024-cü ildə prezident seçilərsə, ən yaxşı halda Kiyevə göstərilən hərbi və maliyyə yardımlarını azalda bilər. Amerikan elitası, lobbiçilər və "dərin dövlət" adlandırılanlar, onun bütün sülh təşəbbüslərini heçə endirərlər. Tramp keçmişdəki çıxışlarında da dəfələrlə bildirib ki, əgər o hakimiyyətdə qalsaydı, Rusiya Ukraynaya qarşı işğalçı müharibəyə başlamazdı. Tramp vurğulayıb ki, ABŞ -ın dünya liderliyi Baydenin amerikan qoşunlarını Əfqanıstandan çıxarmaq qərarından sonra laxlamağa başlayıb.

**Rüstəm Hacıyev**

# QARLI ZİRVƏ

**Yazıçı- hüquqşünas Əlisəfa Azayevin imzası oxuculara yaxşı məlumdur. Əlisəfa müəllim bütün yaradıcılığının böyük hissəsini tanıdığı, həyatda müşahidə etdiyi və birbaşa iştirakçısı olduğu adamlara, hadisələrə, mövzulara söykənərək oxucuya təqdim edir. Belə ki, böyük həyat təcrübəsi olan müəllif 70 illik ömrünün ona bağışladığı xatirələri, təcrübəni, ən vacibi isə ünsiyyətdə əldə etdiyi söz çalarlarını, mözvu rəngarəngliyini öz peşəkar qələmi ilə bədii sözə çevriməyə bacarıb. Müəllif bu gün də üslubuna sadiq qalaraq yazıb-yaradır.**




Artıq son illərdə onun daha çox müraciət etdiyi mövzuların önündə şəhidlərimiz, qazilərimiz, milli qəhrəmanlarımız, eləcə də tanınmış ictimai-siyasi xadimlərimiz, ziyalılarımızla bağlı əsərlər əksəriyyət təşkil edir. Bu mənada Əlisəfa müəllimin Kurdəmir şəhidlərindən, Milli Qəhrəman Mübariz İbrahımovdan, general Polad Həşimovdan və digər qəhrəmanlarımızdan yazdığı roman və povestlər oxucular tərəfindən böyük maraqla qarşılanır.

İndi sizə təqdim etdiyim "Qarlı zirvə" romanı Ümummmili Liderimiz, Azərbaycanın xilaskarı, Ulu Öndər Heydər Əliyevə həsr edilib. Biraz da dəqiq ifadə etsəm, bu romanda Ulu Öndərimizin həyat fəaliyyəti, xüsusilə onun Naxçıvan- Moskva- Bakı şəhərlərində bu coğrafiyada bir dövlət xadimi kimi, bir insan kimi, bir şəxsiyyət kimi gördüyü işlər tarixi faktlara söykənməklə bədiiləşdirilmiş və romana çevrilmişdir.

Müəllif Əlisəfa Azayev bilavasitə şahidi olduğu, həmçinin araşdırıb topladığı materiallar əsasında romanı qələmə almışdır. Onu oxucu qarşısına mükəmmməl bir əsər kimi çıxarmışdır.

**Bu ilin əvvəlində " Maarif" nəşriyyatında 332 səhifəlik həcmdə yüksək nəşriyyat poliqrafiya üsulunda çap olunmuş kitab oxucular üçün müəllifin maraqlı bir töhfəsidir. Düşünürəm ki, Əlisəfa Azayevin bu romanı dövlət səviyyəsində qeyd etdiyimiz "Heydər Əliyevin ili"ndə, yəni 2023-cü ildə daha çox diqqət mərkəzində olacaq. Çünki bu əsər həm də Ulu Öndərə müəlllifin söz hədiyyəsidir.**



*Əbülfət MƏDƏTOĞLU*

# "Bir xatirə dəftərinə bənzəyir ömrüm"

*44 günlük zəfər savaşımız bizim 30 il çəkdiyimiz ağrı-acınıbir andaca unutdurdu. Bu Qələbə Vətəndə vətənsiz günlərimizin, qaçqınlığımızın- köçkünlüyümüzün, məzar yerləri tapmaq nisgilimizin tarixin arxivinə verilməsi ilə çiynimizdəki ağır yükü qaldırdı.*

*Qarabağa gedən ruhların ziyarəti qəbul oldu. O ruhlar bizim 30 illik nisgilimizə hamıdan öncə sevindilər. Çünki onlar şəhidlərin ruhu idi! Vətən üçün, torpaq üçün, millət üçünbütövlükdə var olmağımız üçün özlərini şəhid edənlərin ruhları idi!*

*Gəlin etiraf edək ki, biz 2020-ci ilin 8 noyabrında Şuşanın azad edilməsi xəbərini eşidəndə qəddimiz düzəldi. Şuşada dalğalanan bayrağı görəndə başımız göylərə dəydi. Bir millət kimi öz varlığımızı məhz UCALIQDAN hər kəsə göstərdik. Dünya gördü ki, biz varıq, var olmuşuq və var olacağıq. Çünki biz , bütövlükdə TÜRK , günəş zərrəsiyik. Amma həmin tarixə qədər biz əzablı yollar da keçdik*

*Artıq bəlli statistika var. Torpaqlarımızın işğalı dğvründə, eləcə də onun azadlığı uğurunda gedən döyüşlərdə verdiyimiz şəhidlərin, qazilərimizin sayı da bəllidir. Həmin o şəhidlərin sırasında Azərbaycanın bütün bölgələrini təmsil edən vətən övladları var. Həmin o şəhidlərdən biri də Qədim Nəqşicahanda, yəni Naxçıvanda doğlumuş, həyatının ilk gənclik illərini yaşayan, özünəməxsus istedadı, fərqli xüsusiyyətləri və birdə vətən sevgisi olan İlkin Seyidovdur.*

*Müqəddəs bir ocaqda, yəni Seyid Mirnəzir ağanın evində dünyaya gələn İlkin düşmənlərin baş qaldırdığı günlərdə özünü irəli atdı. Naxçıvanda Xüsusi Təyinatlıların sırasına qoşuldu və göstərdiyi şücaətlə qısa bir zamanda həm döyüş dostlarının, həm də onu tanıyan hər kəsin hörmətini qazandı.İlkin Seyidov qısa həyatı dönəmində məktəbdə də, məhəllədə də. xüsusi təyinatlı polis dəstəsinin üzvləri arasında da özünü hər kəsə sevdirə bildi. Ona görə də onun şəhidlik zirvəsinə yüksəlməsi bir əqidənin, bir məsləkin gerçək nəticəsi kimi qəbul olundu. Yəni İlkin özünü həm vətəninin fədaisi, həm də şəhidi kimi görürdü. Bax bu səbəbdən də onun barəsində danışılan xatirələr, qələmə alınan yazılar son dərəcə inandırcı , düşündürücü və İlkinin adına layiqdir.*




*Bu gün oxuculara təqdim etdiyim "Bir xatirə dəftərinə bənzəyir ömrüm " (sənədli povest) kitabı onun həyatının, keçdiyi qısa , həqiqətdə isə böyük ömür yolunun səlnaməsidir. Yazıçı- publisist Fərid Rəhimlinin qələmə aldığı sənədli povestdə hadisələr birbaşa Naxçıvamda cərəyan edir. Yəni müəllif İlkinin doğulduğu evdən, oxuduğu məktəbə, yaşadığı məhəllləyə oradan isə İlkinin döyüş dostlarına qədər yol gedib , onlarla təmas qurub və İlkinin obrazını yaradıbdır.*

*Kitabı oxuduqca İlkinlə həmsöhbət olur və açıq-aydın görürsən ki, bu cür oğullar məhz Vətən üçün doğulur. Vətəni ucaltmaq üçün dünyaya gəlir!.*

*Fəridə Rəhimlinin kitabında İlkinin çəkdiyi rəsm əsərləri, eləcə də onun ailə albomundan fotolar həmçinin doğmalarının, dostlarının, valideynlərinin, eləcə də İlkinin adını daşıyan qardaşı oğlu İlkin Seyidzadənin təyarəçi geyimində fotosu da yer alıb.*

*Kitabda İlkin haqda söylənilənlər müəllif tərəfindən bir "Ilkin nağılı" kimi təsvir olunub. Bu nağılın sonunda onun qəhərəmanlığı göz önündə dayanır. Şükürlər olsun ki, bu qəhərmanlıq böyük zəfərimizin sütunalrından biridir. Bütövlükdə isə hər bir şəhidimiz, hər bir qazimiz qələbimizi bütövləşdirən güclərdir.*

*Şəhidlərimizin məkanı cənnət, qazilərimizin canı sağ olsun.*

# ZƏLZƏLƏ BÖLGƏSİNƏ DƏSTƏK FASİLƏSİZ DAVAM EDİR

### *"Türk QHT-ləri zəlzələdən zərər çəkmiş bölgələrdə vətəndaşlara kömək əlini uzadır"*

**Türkiyədə mərkəzi Kahramanmaraş olan zəlzələlərdən zərər çəkən 10 şəhərdə çox sayda qeyri-hökumət təşkilatları yardım işləri aparır.**

"Əsrin fəlakəti" olaraq xarakterizə edilən Kahramanmaraşda baş verən zəlzələlərdən zərər çəkən şəhərlərdə başda bir çox vəqf və dərnək olmaqla, türk QHT-ləri təbii fəlakət qurbanlarına dəstək olmaq üçün çalışır.

Zəlzələdən zərər çəkən Kahramanmaraş, Hatay, Adıyaman, Osmaniye, Adana, Qaziantep, Diyarbəkir, Malatya, Şanlıurfa və Kilisə bir çox QHT yardım çatdırıb.

Yardım təşkilatları 10 şəhərdə dağıntılarda axtarış və xilasetmə işlərinə dəstək verməklə yanaşı, müxtəlif nöqtələrdə qurulan yemək paylama məntəqələri, səyyar mətbəx və səyyar sobalarla zəlzələ qurbanlarına xidmət göstərir.

Bu QHT-lərdən Türk Qızılayı, İnsan Hüquqları və Azadlıqları Fondu (İHH), Türkiyə Gənclik Fondu (TÜGVA), Türkiyə Gənclik və Təhsil Xidmətləri Fondu (TÜRGEV), Ensar Fondu, Beşir Dərnəyi, Anadolu Federasiyası, AHBAP Dərnəyi, Qadın və Demokratiya Vəqfi (KADEM), Türkiyə Texnologiya Komandası (T3) Vəqfi, LÖSEV, AKUT Axtarış-Xilasetmə Dərnəyi, Türkiyə Fırıncəlar Federasiyası, Anadolu Gənclik Dərnəyi, Cansuyu Yardımlaşma və Həmrəylik Dərnəyi, İnsan Vəqfi, Elm Yayma Dərnəyi, Dəniz Fənəri Dərnəyi, Yerüzü Həkimləri Dərnəyi və s. nümunə göstərilə bilər.

İHH Humanitar Yardım Fondu 5 min 852 nəfərlik heyəti ilə zəlzələ bölgəsində Türkiyə QHT-lərinin zəlzələ bölgəsində yardım səfərbərliyi davam edir.




Bu çərçivədə İHH Humanitar Yardım Fondu zəlzələ bölgələrində 5 min 852 axtarış-xilasetmə işçisi və yardım könüllüləri ilə fəaliyyətlər həyata keçirir.

Zəlzələnin ilk saatlarından axtarış-xilasetmə və humanitar yardım işlərində iştirak edən İHH-nin axtarış-xilasetmə qrupları bu günə qədər ölən və yaralanan 2 min 934 nəfəri dağıntılar altından çıxarıb, yardım könüllüləri isə yüz minlərlə insana yardım çatdırıb.

Fond zəlzələ bölgəsində 1 milyon 284 min 976 nəfərə isti yemək paylayıb.

Bundan əlavə, zəlzələdən zərər çəkən bölgələrə ərzaq, çəkmə, palto, uşaq bezi, un və su kimi məhsulların olduğu 750 yük maşını göndərilib.



İHH zəlzələ qurbanlarına 143 min 317 ədəd adyal və 226 min 596 dəst paltar paylayıb.

Bundan başqa İHH 5 milyon 304 min 721 ədəd çörək, 1 milyon 348 min 249 ədəd su, 57 min 873 qutu gigiyena məhsulları, 12 min 612 ədəd uşaq qidası, 65 min 949 ədəd uşaq bezi və 322 min 624 ədəd ərzaq qutusu paylayıb.

Zəlzələdə evi dağılan ailələri Hataydakı Reyhanlı Təhsil Kampusuna yerləşdirən İHH eyni zamanda zəlzələdən zərər çəkmiş uşaqlar üçün psixososial dəstək işləri də görür.

İHH psixoloqu Şevket Kalkan zəlzələnin uşaqlar üzərində yaratdığı travmanın izlərini silmək üçün bu sahədə mütəxəssis olan psixoloqlar tərəfindən aktif fəaliyyət göstərildiyini qeyd edib.

### *QADIN VƏ DEMOKRATİYA FONDU (KADEM) "YARALARI BİRLİKDƏ SAĞALDAQ" ÇAĞIRIŞI EDİB*

Türkiyənin qeyri-hökumət təşkilatlarından biri olan Qadın və Demokratiya Fondu (KADEM) bütün Türkiyəyə zəlzələ qurbanlari üçün "Yaraları Birlikdə Sağaldaq" çağırışı edib.

KADEM mərkəzi Kahramanmaraş olan 7,7 və 7,4 bal gücündə zəlzələlərdən sonra ilk andan etibarən hərəkətə keçərək başda Kahramanmaraş, Hatay, Osmaniye, Adıyaman, Qaziantep, Şanlıurfa, Diyarbəkir, Malatya, Kilis və Adana olmaqla, Suriya və ətraf bölgələrdə çətinliklərin aradan qaldırılması və zəlzələ qurbanlarının təcili ehtiyaclarının qarşılanması üçün səfərbərliyə başlayıb. KADEM zəlzələdən zərər çəkənlər üçün başlatdığı yardım kampaniyasında bütün Türkiyəni təcili ehtiyaclarla bağlı köməyə çağırıb. Kampaniya çərçivəsində bölgəyə termal geyim, adyal, paltar, şərf, papaq, corab, uşaq qidası və uşaq bezi, gigiyenik məhsullar, vitaminlər, fərdi qulluq məhsulları və zəruri ehtiyacları çatdıran fond həmçinin nağd pul yardımı toplayıb. Fondun hesabına edilən 11 milyon 220 min TL-lik nağd ianə ilə birlikdə ümumilikdə 4 TIR ərzaq, 2 TIR su, 3 tanker yanacaq, 1 TIR uşaq bezi, uşaq qidası və nəm salfet, 3500 adyal, 8000 şərf, papaq və əlcək, 25000 gigiyenik məhsul, 5000 yağmurluq, 65 min nəfərlik qadın, kişi və uşaq alt paltarları, 22 minlik qadın, kişi və uşaq termal geyimləri, 1000 powerbank, 2000 şal, 250 piknik qaz balonu, 30000 dəst corab, 110 çadır və 110 soba zəlzələ bölgəsinə çatdırılıb.

### *TÜRKİYƏ GƏNCLİK VƏ TƏHSİL XİDMƏTLƏRİ FONDU YATAQXANALARINI ZƏLZƏLƏ QURBANLARINA AÇDI*

Əsrin fəlakəti olaraq xarakterizə edilən, mərkəzi Kahramanmaraş olan 7,7 və 7,6 bal gücündə zəlzələlərdən sonra Türkiyə tək ürək olaraq yaraları sağaltmağa çalışır.

Türkiyədə onlarla fond kimi Türkiyə Gənclik və Təhsil Xidmətləri Fondu (TÜRGEV) da zəlzələdən zərərçəkənlərə yardımda ön sıralarda yer alır.

İşçi heyəti, tələbələr və könüllülərlə zəlzələdən zərər çəkənlər üçün fəaliyyətini fasiləsiz davam etdirən TÜRGEV bölgəyə çox sayda yardımlar göndərib, yataqxanalarını zəlzələdən zərərçəkənlərə açıb.

Zəlzələlərin baş verdiyi gündən TÜRGEV yataqxanaları könüllülərlə birlikdə zəlzələ qurbanlarının ehtiyacları üçün çalışan könüllü mərkəzlərinə çevrilib.

Yataqxanalardan birində yemək və tikiş emalatxanaları zəlzələ bölgəsinin ehtiyaclarını qarşılamaq üçün istehsal mərkəzinə çevrilib. Orada uzunömürlü qida və soyuğa davamlı geyimlər istehsal olunur.



Fondun Psixoloji Məsləhət Mərkəzi zəlzələdən zərər çəkən şəxslər üçün həm uzaqdan, həm də yerindəcə reabilitasiya və psixoloji dəstək fəaliyyətlərinə başlayıb.

TÜRGEV personalı zəlzələ bölgəsində xilasetmə və zəlzələ bölgəsinə gedən ləvazimatların yığılması, hazırlanması, qablaşdırılması və yüklənməsi işlərində iştirak edir.

TÜRGEV-in verdiyi məlumata görə, indiyədək 1041 yastıq, 1323 yorğan/adyal, 1340 yorğan örtüyü, 6964 corab, 500 powerbank, 4 noutbuk, 2 printer, 1458 uşaq qidası, 16725 qutu uşaq bezi, 259 qızdırıcı, geyim, ərzaq, gigiyena və təmizlik məhsulları və s. göndərilib.

### *TÜRKİYƏ GƏNCLİK FONDU YARDIMLARI BÖLGƏYƏ ÇATDIRIR*

Türkiyədə mərkəzi Kahramanmaraş olan və 10 şəhərdə böyük dağıntılara və çoxsaylı insan tələfatına səbəb olan zəlzələlərdən sonra digər QHT-lər kimi Türkiyə Gənclik Fondu da (TÜGVA) 81 şəhərdəki nümayəndəliklərində topladığı yardımları AFAD-ın koordinasiyası ilə ehtiyac olan bölgələrə çatdırır.

Zəlzələnin ilk günündən sahədə olan 12 min nəfərdən ibarət könüllü dəstələr həm zəlzələ bölgələrində, həm də yardım toplama mərkəzlərində fəaliyyətlərdə iştirak edirlər. Zəlzələ qurbanlarına içərisində adyal, quru yemək, geyim, gigiyenik məhsullar, elektrik materialları, qızdırıcı, çadır, şərf, papaq, uşaq qidası və s. olan çox sayda yardım çatdırılıb.

Kahramanmaraş, Hatay, Adıyaman və Malatya şəhərlərində "TÜGVA Dəstək Mərkəzi" yaradılıb.

Yardım mərkəzlərinə gəlmə imkanı olmayan vətəndaşlar üçün isə Hatay, Adıyaman, Maraş və Malatyada 41 "TÜGVA Dəstək Mobil Market" fəaliyyətə başlayıb.

Kahramanmaraşda qurulan "Gigiyena məntəqələri" və "Əczaçılıq çadırı" zəlzələ qurbanlarının əsas ehtiyaclarını qarşılamağa davam edir.

Vətəndaşların xüsusilə şarj ehtiyaclarını ödəmək üçün TÜGVA-nın "Səyyar İcathane" maşını "Enerji Nöqtəsi"nə çevrilib. Generatorlu yük maşını sayəsində zəlzələdən zərər çəkənlər telefonlarını enerji ilə doldurub yaxınları ilə əlaqə saxlaya bilirlər.

Uşaqlar üçün "Ana Uşaq" çadırında oyun meydançası qurulub, psixososial dəstək göstərilir.

**Zəlzələ zonasının ətraf əyalətlərində yerləşən Sivas, Kayseri, Adana, Konya, Trabzon, Qars, Antalya, Sinop, Samsun və Kastamonu şəhərlərində 7/24 çay, sendviç, isti şorba və isinmə xidmətləri göstərən TÜGVA yataqxanaları hazırda 1800-dən çox zəlzələ qurbanına ev sahibliyi edir.**

# ÜÇ MÜHARİBƏ ROMANI



*VAQİF YUSİFLİ*

**Azərbaycan ədəbiyyatında müharibə mövzusuna İkinci Dünya Müharibəsi illərində daha çox müraciət olundu və bu da təbii idi, çünki dünyanı bürüyən bu dəhşətli fəlakət öz əksini -bədii təcəssümünü şeirlərdə, poemalarda, publisistik əsərlərdə tapmalıydı. Qələmlər də o illərdə süngüyə çevrildi. Burada həmin əsərlər haqqında geniş söz açmaq, bu əsərlərin bir çoxu illər keçəndən sonra da maraqla oxunur. Biz unutmuruq ki, hər bir xalqın həyatında müharibə ayrıca bir tarixdir və bu tarixin səhifələrpini tez-tez vərəqləmək lazımdır ki, heç kim və heç nə unudulmasın.**

Tariximizin son 35 ilində biz iki müharibənin şahidi olluq. Birinci Qarabağ müharibəsi itkilərlə başa gəldi. Otuz il bu itkilərin ağrı-acılarını çəkdik, amma ümidimizi itirmədik. Xalq şairi Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri" çağırışı əbəs yerə səslənməmişdi. Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun "Ayağa dur, Azərbaycan!" nidaları da ədəbiyyatın mVətən müharibəsində əzmkar rolunu bir daha sübut elədi. İkinci Qarabağ müharibəsində isə - 44 günlük fövqəladə savaşda Ali BaşKomandan və Ordumuz kimi qələbə müjdələrini yaşadı.

Əlbəttə, biz bu yazıda nə iki müharibənin, nə də bu iki mühavribədə ədəbiyyatımızın, xüsusilə, nəsrimizin xronologiyasını təsvir və təqdim etmək fikrində deyiləm. Lakin nəsrin bir janrında-roman janrında müharibəyə həsr olunan üç əsərdən söz açmaq istəyirəm. Deyək ki, şeirdə də, nəsrin kiçik janrlarında da, pubölisistikaa da müharibə mövzusu kifayət qədər öz bədii təcəssümünü tapıb. Amma müharibədən söz açan romanlarımızın sayı çox azdır (Aqil Abbasın "Dolu", Sabir Əhmədlinin iki romanı, Hüseynbala Mirələmovıun "Dağlarda atılan güllə və aha bir-iki roman və son illərdə Vüsal Nurunun və Etibar Muradxanlının romanlarını da bura əlavə etmək olar). Roman elə bir janrdır ki, onun təsvir hədəfi, çoxplanlı süjet xətti, obrazlar-xarakterlər silsiləsi və ən başlıcası, Müharibə və İnsan problemini əks etdirmək yazıçıdan böyük sənətkarlıq tələb edir. Yazıçı Səyyad Aran son 4 ildə üç roman yazıb və onların hər biri müharibə həqiqətlərini əks etdirir. Səyyad Aran müasir Azərbaycan nəsrində artıq etiraf olunmuş bir yazıçıdır və onun istər hekayələri, istərsə də povestləri müasirlərimizin mənəvi dünyasını, həyat və məişətini, duyğu və düşüncələrini əks etdirmək baxımından oxucuların rəğbətini qazanıb.

1978-ci ildə "ulduz" jurnalında dərc olunan "Körpü" hekayəsi ilə ədəbiyyata gələn Səyyad Aran doğrudan da özü ilə oxucular-ədəbi ictimaiyyət arasında bir körpü yaratmağa nail oldu. Onun əksər hekayə və povestləri kənd həyatından, Aran rayonlarında yaşayan insanların həyatını, mənəvi aləmini, psixologiyasını bədii lövhələrlə əks etdirir. Lakin indi söhbət onun üç müharibə romanından gedir.

"Başdaşı" və "İrəvana gedən yollar" romanları haqqında biz mətbuatda öz sözümüzü demişik. Qısaca xatırlayaq: "Başdaşı" romanı Birinci Qarabağ müharibəsinə həsr edilib, daha doğrusu, bu müharibənin insanların taleyində buraxdığı acılıqları, kədər dolu hadisələri təsvir edir. Həmin illərin hadisələri bizim yaddaşımızdan qətiyyən silinməyib. Azərbaycan kəndləri-Qarabağda o zaman ağır müharibə şəraiti hökm sürürdü, ordum hələ zəif idi, hər tərəf düşmən qüvvələri ilə əhatə olunmuşdu, əsasən könüllülər vuruşurdu, lakin heç kimdə təslim olmaq fikri yox idi. " Başdaşı" romanında Səyyad Aran bir ailənin timsalında müharibə dəhşətlərini əks etdirirdi. Ata Səməndər, ana-Nubar, onların öğlanları - Qürbət və Səlahət, qızları Minarə - bu ailənin hər bir üzvü müharibənin maddi və mənəvi qurbanlarına çevrilirlər. Əlbəttə, roman təkcə bir ailənin deyil, müharibə gedən bölgələrdə yaşayan insanların keçirdikləri ağrı-acıları da canlandırırdı, amma "Başaşı"nı sırf kədərlivə oxucuda üzüntü yaradan bir əsər hesab etmək də doğru olmazdı. Çünki romanda düşmənə qarşı qətiyyətlə döyüşən oğulların da obrazları diqqəti cəlb edirdi. Romanın sonuncu cümləsi: "Azərbaycan öz xilaskarını gözləyirdi". Bu xilaskar isə ulu öndər, ümummilli liderimiz Heydər Əliyev idi. Məhz onun qayıdışından sonra Azərbaycanda ordu quruculuğun önəm verildi.

Səyyad Aranın "İrəvana gedən yollar" romanı isə İkinci Qarabağ müharibəsinin zəfəri üçün stimul olan Lələtəpə döyüşlərindən söz açır. Yazıçı Azərbaycan ordusunun artıq formalaşma prosesindən, əsgər və zabitlərimizin həm hərbi,həm texnika, həm yüksək əhval-ruhiyyə, həm də psixoloji baxımdan inkişafını nəzərə çarpdırırdı.

Bu iki romandan sonra Səyyad Aran "Tacın qaytarılması" əsərini nəşr etdirir ("Elm və təhsil" nəşriyyatı, 2022). Bizcə, müharibə haqqında trilogiya başa çatır (amma indidin fikir söyləmək tezdir, yeni bir roma da yarana bilər).

Roman Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin epiqraf kimi bu sözləri ilə başlayır: "Şuşa Qarabağın tacıdıfr". Bu tac -yəni Şuşa iyirmi səkkiz il düşmən əlində olub və müəllif Şuşa uğrunda gedən (təkcə Şuşa deyil, ümumən digər rayonların da) , Xüsusi Təyinatlı Qüvvələrin iştirakı ilə gedən və çox ağıllı şəkildə idarə edilən döyüşləri ardıcIllıqla qələmə alır. Burada üç məqamı xüsusilə nəzərə çarpdırmaq istəyirəm.

**Birincisi:** sırf canlı müharibə səhnələrini təsvir edən yazıçı az-çox savaşdöyüş texnologiyasına bələd olmalıdır,bu döyüşləri təsvir edərkən yazıçı özü də addım-addım o döyüşçülərlə birgə olmalıdır (müharibədə özünün iştirakı olub-olmaması əsas şərt deyil). Səyyad Aran Şuşa və Qarabağ uğrunda gelən savaşlarda bu üsulu uğurla həyata keçirir. O, Xüsusi Təyinat Qüvvələri iştirakçılarının söylədiklərini (konkret adlar dəyişilib) və onların gündəliklərindəki qeydlərini qələmə alır və bu da müharibədən söz açan əsərlərdə təsadüf olunan bir üsuldur.

Əslində, müharibə romanlarında - özü də zəfərlə başa çaian döyüşlərdə dəqiqlik əsas şərtdir. Səyyad Aran 44 günlük döyüş səyahəti 2020-ci ilin 27 sentyabrından başlanır və Şuşanın azad olunmasına qədər tarixi qələbə dövrünə qədər davam edir.

**İkincisi:** Romanda xüsusilə diqqəti cəlb edən baş qəhrəman nəzərə çarpmır. Amma romanda adları çəkilən bütün personajlar - Vətən uğrunda döyüşən hər bir kəs qəhrəmandır. Müəllif hər bir səhnədə qəhrəmanlığın yeni bir nümunəsini, çeşidini nümayiş etdirir. Böyük türk şairi Nihal Atsızın "Qəhrəçmanlıq dadaraq acıölüm şərbətin, İrəliyə atılmaq və sonra dönməməkdir" misraları yada düşür. Bizim qəhrəmanlar da ya şərəflə vuruşur ya da qəhrəmancasına həlak olurlar.

Üçüncüsü: hər hansı bir müharibə romanında yalnız döyüş-vuruş səhnələrini təsvir etmək yanlış deyilmsi? Axı, hər bir döyüşçünü əlində silah ölüm-dirim vuruşunda -onun qəhrəmanlığını nəzərə çarpdırmaq məsələnin sırf praktik həlli demək olar. Bəs bu döyüşçünün-bu qəhrəmanın ürəyi, ruhu yoxmu? "İrəvana gedən yollavr" romanında Səyyad Aran iki rardaşın bir qıza məhəbbətindən söz açır. Şahin ağır yaralanıb son nəfəsində ona ürək sözlərini söyləyən qardaşı Ruhindən eşidir ki, o, bir qızı sevir. Amma o qızın əl sevgilisi elə Şahindir və kəndə qayıdandan sonra ataanası sevdiyi qızla evlənməyi ona təklif edirlər. Amma Şahin buna razı olmur, çünki qardaşının o qızı sevdiyini necə unuda bilər və Şahin təzədən cəbhəyə qayıdır. Bu hadisənin təsviri ilə S.Aran romana bir emosional-kədərli bir xətt əlavə edir. Deməli, istənilən bir müharibə romanında Qəhrəmanlıq həm də Ürək - o Ürəkdə dalğalanan hisslər, həyəcanları əhatə etməlidir. Vaxtilə tarixçi Tarle yazırdı ki, "Hərb və Sülh" romanında Lev Tolstoyu təkcə müharibə səhnələri, Peterburq saplonlarında gedən diplomatik söhbətlər deyil, bəlkə Nataşa Rostovanın könlündəki həyəcanlar maraqlandırırdı. Səyyad Aranın "Tacın qaytarılması" romanında da belə təsirli səhnələr az deyil. Bir misal: "Özümüzə gələndə ilk eşitdiyimiz söz "Nialə" sözü oldu. Əsgər qardaşımız Cahangirin səsiydi. Əvvəlcə anlamadıq. Elə bildik arvadını səsləyir. Yenic

Ə evləndiyini bilirdik. Özümüzdə güc tapıb ona tərəf süründük. Qolu çiynindən qopub yanına düşmüşdü. Üz-gözü qan içinəydi. -Həkim, həkim!-deyə çağırmağa başladıq. Təcili həkim üdaxiləsi lazım idi. Yaxınlıqda həkim olmadığını bilirdik. Əslində çarəsizlikdən qışqırırdıq.Nə edəcəyimizi bilmirdik. Cahangir inildəyirdi.

-Niyaləni istəyirəm. Qardaşlar, axı heç üzünü də görməmişəm. Qızıma eləcənə şəkildə baxmışam. Döş cibimdədi, şəkli çıxarın, heç olmasa balama baxabaxa ölüm. Kimsə hərbi biletini arasından balacaqızcığazın şəklini çıxavrtdı. Allah, atasına necə oxşayırdı! Yəqin şəkil çəkdirəndə uşağı qıdıqlayıb güldürmüşdülər ki, atası hər dəfə baxanda gülümsəsin, rahat olsun. Şəklə baxanda dəhşətli ağrılarına baxmayaraq Cahangir elə gülümsədi ki Şəkli dodaqlarına yapışdıraraq "Nialə, Nialə, gözəl balam, məni bavğışla, səni yetim qoydum-ananı da, səni də "-deyib dərindən nəfəs aldı, boynu yana düşdü".Çox təsirli səhnədir və Səyyad Aranın romanında bütün bu təsirli səhnələr döyüş-vuruş səhnələri ilə müvazi şəkildə təqdim edilir. Bu döyüşçülər-Azərbaycan əsgərləri və zabitləri bütün hissləri, həyəcanları ilə ganlandırılır.nların bir-birilə zarafatları da, deyib-gülməkləri də, öz doğmalarını yad etməkləri də təbiidir, çünki öyüşçü həm də İNSANDIR, ürəyi, ruhu var. Amma S.Aran əsas diqqətini Şuşaya-Qarabağın tacının alınmasına yönəldir. Romanda nikbin bir ruh dolaşmaqdavdır, hamı inanır ki, Şuşa və Qarabağ erməni faşistlərindən təmizlənəcək, daha işğal sözü eşidilməyəcək. Çünki "Azərbaycan ordusu ötən illər ərzində kifayət qədər təcrübə toplamış, hərbi cəhətdən xeyli möhkəmlənmişdi. Düşmən ya bunu bilmirdi, ya da vecinə almırdı. Deyəsən, 92-93-=cü illərdən ağızlarında şirə qalmışı". Romanda bu tipli şərhlərə teztez rast gəlirik. Beləliklə, Qarabağın tacı-Şuşa ordumuzun qələbəsiylə bizə qaytarılır. Buv da romanın sonu: "Hamı küçələrdə və meydanlarda idi. Soyüuq noyabr gecəsinə baxmayaraq kim əlinə nə keçibsə, əyninə taxıb bu mislsiz bayramı və qələbəni qutlamaq üçün küçələrə, meydanlara axışmışdı. Heç kim yatmaq istəmirdi .Millət xoşbəxt idi. Otuz ilə y axın müddətdə qəhəri, kədəri içində qalan xalq dirçəlmişdi. İllərdən bəri həsrətində olduğu qələbəyə qovuşmuşdu, özü öz içindən böyümüşdü.

O gecə Azərbaycanda heç kim yatmadı".

Romanla bağlı iku tövsiyyəmi də bildirmək istəyirəm. Əgər Səyyad Aran yenə bir müharibə romanı yazarsa, bədiiliyə daha çox diqqət yetirsin. Həm də hər hansı romanda mütləq baş qəhrəman obrazının yaradılması zəruridir. Bir az da publisistik şərhlərə çox da yer verməsin.

Mənim fikrimcə, Səyyad Aranın bu son romanı əsasında bir bədii-sənədli film də çəkmək olar. Çünki İkinci Qarabağ müharibəsindən elə bir film çəkilməyib. Kino işçiləri bu haqda düşünsələr daha yaxşı olar...

**Azərbaycan ədəbiyyatında müharibə mövzusuna İkinci Dünya Müharibəsi illərində daha çox müraciət olundu və bu da təbii idi, çünki dünyanı bürüyən bu dəhşətli fəlakət öz əksini -bədii təcəssümünü şeirlərdə, poemalarda, publisistik əsərlərdə tapmalıydı. Qələmlər də o illərdə süngüyə çevrildi. Burada həmin əsərlər haqqında geniş söz açmaq, bu əsərlərin bir çoxu illər keçəndən sonra da maraqla oxunur.**

**(ardı var)**

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

№ 8 (2332) 25 fevral 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Zəngəzurdan Avropaya çıxış yolu

**Azərbaycanın Avropaya və dünya iqtisadiyyatına inteqrasiya olunması bir çox ölkələrin böyük narahatlığına səbəb olub. Bundan ən çox narahat olan İran və Ermənistandır. Çünki hər iki ölkə güclü Azərbaycanın olmağını istəmirlər. Ən azından ona görə ki, Cənubi Qafqazda belə bir hərbi, iqtisadi və siyasi cəhətdən qüdrətli məmləkətin mövcudluğu adını çəkdiyimiz ölkələrin kökünə birə salır. Təbii ki, heç də hər şey bizə düşmən olan ölkələrin istəyindən və iradəsindən aslı deyildir. Belə ki, Azərbaycan müstəqillik dövrünə qədəm qoyduğu ilk gündən demokratik, sivil və bəşəri bir yol tutub. Beynəlxalq aləmdə də ölkəmizin bəşəri dəyərlərə, adət- ənənələrə, müsair iqtisadi inkişaf modelinə önəm verdiyi üçün dövlətimizə hörmətlə yanaşılır.**

Əlbəttə, qısa zaman kəsiyində dünya iqtisadiyyatına inteqrasiya olunmaq inkişaf etmiş və inkişaf etməkdə olan məmləkətlərlə iqtisadi əlaqə qurmaq elə də asan məsələ deyildir. Bunun üçün ilk növbədə ölkəmizdə sabitlik və dayanıqlı iqtisadi sistem mövcud olub. Aydındır ki, məhz xarici dövlətləri də bu məsələlər daha çox maraqlandırır və düşündürür.

O da heç kəsə sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra müstəqil dövlət kimi Azərbyacanın beynəlxalq təşkilatlarda nüfuzu daha da yüksəldi. Ölkəmizdə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi və bir çox iqtisadi cəhətdən dünyəvi əhəmiyyət kəsb edən layihələrin gerçəkləşdirilməsi dövlətimizin nüfuzunu daha da artırdı. Prezident İlham Əliyev də Heydər Əliyev siyasi kursunu davam etdirərək ölkəmizin dünyada siyasi və iqtisadi mövqeyini daha möhkəmlətdi. Başqa sözlə demiş olsaq, Avropa ölkələrinin və eləcə də dünyanın bir çox inkişaf etmiş məmələkətlərinin Azərbyacana marağı daha da artdı. Çünki onlar yaxşı görürdülər ki, Cənubi Qafqazda ən zəngin və siyasi cəhətdən sabit ölkə Azərbayacandır. Bunu ona görə qeyd edirik ki, beynəlxalq təşkilatlarının nümayəndələrinin, həm də xarici ölkələrin dövlət başçılarının Azərbaycana səfərində ölkəmizin sabitliyinə çox böyük önəm verilib. Onlar bildirblər ki, belə bir iqtisadi cəhətdən güclü və stabil ölkə ilə hər cür əlaqələr qura bilərlər.



Təbii ki, hər hansı ölkə digər dövlətin ərazsində sərmayə qoyanda və investisiya ayıranda ilk növbədə həmin ölkənin daxili vəziyyətini, siyasi durumunu və stabilliyini nəzərə alır. Əgər dediyimiz bu vəziyyətlər varsa, istəristəməz xarici dövlətlərin də həmin ölklərə marağı böyük olur.

Bəlkə də bir çox ölkələr təsəvvür edə bilməzlər ki, qısa zaman kəsiyində Azərbaycan Avropaya və dünyaya inteqrasiya olunacaq. Amma zaman göstərdi ki, iqtsadi , hərbi və siyasi cəhətdən güclü olan ölkəmiz qarşısındakı hər cür maneəni dəf edərək, bu mərhələni keçdi və yeni bir şərəfli tarix yazdı. Və bu tarix bu gün də şərəflə davam edir. Əlbəttə, bayaq dediyimiz kimi Azərbayacanın sürətli inkişafını gözü götürməyn qüvvələr var . Onlar böyük uğurlarımızdan Avropa və dünya iqtisadiyyatına inteqrasiyamızdan bərk qorxuya düşüblər. Elə paxıllıqdan və xəbislikdən də həmişə bizə düşmən olan qüvvələr böyük layihələrin gerçəkləşdirilməsinə əngəl və maneə törədiblər.

Dünya iqtisadiyyatına ən böyük inteqrasiyalarımızdan biri də Zəngərzur dəhlizi olacaq. Bu dəhlizin açılması nəinki Avropaya, dünyaya çıxış yoldur. Dəhlizin açılmasında isə Rusiyanın, Türkiyənin və Azərbyacanın çöx böyük maraqları var. Bu dəhlizin açılmağına maneəçilik törədən isə İran və Ermənistandır. Amma onların istəyindən aslı olmayaraq, gec- tez Zəngəzur dəhlizi açılacaq. Ötən yazımızda qeyd etdiyimiz kimi ,Zəngəzur dəhlizinin tikinti işləri çox böyük sürətlə davam edir. Həm Horadiz-Ağbənd dəmiryol, həm də paralel olaraq avtomobil yolu inşa edilir. Artıq bu dəmir yolun 60 km-dən çox hissəsi tikilib. Məlum qurumların bildirdiyinə görə bu yol 2024-cü ildə istifadəyə veriləcək.

Bir faktı da qeyd edək ki, Zəngəzur avtomobil yolunun Füzulinin Əhmədbəyli kəndindən başlayan tikintisi indi Cəbrayıla qədər yüksək keyfiyyətlə inşa edilib. Dünya standartlara cavab verən bu yol dağların arası ilə çəkilib. Tikinti prosesində biz də inşaat işləri görən bir neçə iş icraçısı ilə görüşdük. Horadiz şəhəri istiqamətində gedən işlər zamanı görüşdüyümüz iş icraçıları bildirdilər ki, burda 24 saat tikinti işləri görülür. Hər cür ağır texnika və texnologiyalardan istifadə olunur. Hətta yol çəkilişi zamanı dağların partladılması xüsusi önəm kəsb edir. Çünki bu prosesdə bütün təhlükəsizlik tədbirlərinə əməl olunmalı, tikintiquraşdırma prosesləri ardıcıl olaraq aparılmalıdır. Yəni yolun çəkilişində bütün texniki göstəricilərə birmənalı olaraq nəzər yetirilməlidir. Həmin yolun çəkilişində yerli mütəxəsislərlə yanaşı, Türkiyədən gəlmiş mütəxəsislər də iştirak edirlər. Aydındır ki, qardaş Türkiyə dünya standartlarına cavab verən belə siyasi əhəməiyyətli yolların çəkilməsində böyük təcrübəyə malikdir. Yəqin elə buna görə də



bu dünyəvi əhəməiyyətli Zəngəzur avtomobil yolunun çəkilişi belə təcürbəli və səriştəli mütəxəsislərə həvalə edilib.

Ölkəmizin belə yüksəsk inkişaf mərhələsinə qədəm qoyması onu deməyə əsas verir ki, Azərbaycan qarşısına çıxan hər hansı maneədən aslı olmayaraq, öz istəyinə nail olacaqdır. Çünki ölkə prezidenti Cənab İlham Əliyev də dəfələrlə çıxışlarında bəyan edib ki, Zəngəzur dəhlizi gec-tez açılacaq. Bunun üçün Azərbayacan öz üzərinə düşən bütün vəzifələri vaxtında və yüksəsk keyfiyyətlə yerinə yetirir.

Heç şübhəsiz ki, böyük siyasi əhməiyyət kəsb edən Zəngəzur dəhlizinin açılışı Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da yüksəldəcək, onun dünya inteqrasiyasına bir daha sürətli keçidini təmin edəcəkdir.

**Azərbyacan öz yeraltı və yerüstü sərvətləri ilə zəngindir. Bunu deməyə heç bir ehtiyac yoxdur. Bu gün Avropanın enerji resuslarının xeylisini Azərbaycan təmin edir. Neft, qaz və digər yanacaqlar Avropaya ixrac edilməsə, heç şübhəsiz həmin ölkələrdə vəziyyət o qədər də ürəkaçan olmaz. Bunu Avropa ölkələri də yaxşı başa düşürlər. Ona görə də bir çox Avropa ölkələrinin Azərbaycanla iqtisadi əlaqələri çox yükəsk səviyyədədir. Ondan həm avropalılar, həm də biz xeyir görürük. Və bir daha faktlar və hadisələr göstərir ki, Avropa Azərbaycana çox yaxın müttəfiq bir dövlət kimi dəyər verir. Bu dəyərlər isə bizim beynəlxaq aləmdə nüfuzumuzu daha da yüksəldir.**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Nəvai Metinin "Kənd dedin..." şeiri haqqında düşüncələr



*Ramiz Göyüş*
*Yazıçı-publisist*

**Bu günlərdə sosilal şəbəkədə çağdaş poeziyamızın dəyərli nümayəndəsi İbrahim İlyaslının təqdimatında tanınmış rəssam Nəvai Metinin " Kənd dedin..." adlı şeirini oxudum. Sonradan həmin şeirə çəkilmiş və "Youtube"da yayımlanmış klipə baxdım. Şeir məni özünə çəkdi və ürəyimdən şeir haqqında fikirlərimi bölüşmək keçdi...**

Nəvai Metini uzun illərdir professional rəssam kimi tanıyıram. Sənət aləmində öz sözünü demiş, əsasən improsionist rəssam kimi tanınan, Nəvai Metin öz əsərlərini rəssamlığın bütün janrlarında yaradır.

Onun portretlərinin, peyzajlarının, etüdlərinin, natürmortlarıının hər biri ciddi müzakirə mövzusudur. İstər yağlı boya, istər akvarel, istərsə də qrafika- nə ilə işləyir, işləsin onun əsərlər canlıdır, seyriçiləri düşündürə, sirayət edə bilir, onlarla ünsiyyətə girə, danışa və heyrət qaışıq ovqat yarada bilir. İmprosianist rəssam kimi, Nəvai üçün əsas məsələ işıqdır. İşıq onun üçün əsas faktor, əsas amildir. Bəlkə elə ona görə də Nəvai Metin əsərləri kimi özü də, sözündə, söhbətində, davranışında ətrafına, insanlara işıq, ziya saçır,onunla ünsiyyət pozitiv ovqat yaradır.

Xeyirxahlıq, yarınmaq, dövlət, millət, xalq, türkçülük, turançılıq onun içində, əməlində, fəaliyyətindədir. Təsadüfi deyil ki, o, həm də Uluslararası Aktivist Sənətçilər Birliyinin Azərbaycan təmsilçisi və Rəsm Komitəsinin başqanı kimi Azərbaycan mədəniyyətinin, eləcə də türk dünyasının sənət incilərinin dünyada tanıdılmasında və təbliğində təqdirəlayiq işlər görür.

Nəvai Metini yaxından tanıyanlar onun poeziyaya, musiqiyə, xüsusilə aşıq musiqisinə, folklorumuza sonsuz məhəbbəti olduğunu bilirlər. Onun hətta şeir yazması, sazda aışq havalarını ifa etməsi, pəsdən oxuması barədə mənim də məlumatlarım var idi. Lakin heç zaman onun ciddi şeir müəllifi olmağı barədə bilgilərim yox idi. "Kənd dedin..." şeirini oxuduqdan sonra mən də Nəvai Metinin "Yaxşı şeir yazmaq üçün heç də şair olmaq lazım deyil" fikri ilə razılaşmayaraq, bu qənaətdə oldum ki, özünü şair hesab edən hər kəs də yaxşı şeir yaza bilməz. Və dostum, şair İbrahim İlyaslı demiş- "Mən bu şeirdə o cilvəni görür, duyğuların qanadlarının çırpıntısını eşidirəm" fikri ilə razılaşmaq zorunda qaldım.

Doğrusu Nəvainin şairliyi məni o qədər də təəccübləndirmədi. Onun mənsub olduğu Qazağın İncə Dərəsinin Azərbaycanın söz və saz sənətinə verdiyi körkəmli sənətkarları saymaqla bitməz və bu məkanın insanları ilə yaxın tanışlığım deməyə imkan verir ki, üç kəndi-Kəmərli, Aslanbəyli və Qaymaqlını birləşdirən bu Dərədə az qala hər evdə bir söz və saz adamı var. Eyni zamanda həm də, "Üç rəssamın anasıdır İncə Dərəsi, Biri Məmməd biri Qafar, bir də Nəvai" deyən Məmməd İlqarın qəhrəmanlarının hər biri rəssam olmaqla yanaşı, həm də söz adamlarıdır. Sənət aləmində yaxşı tanınan, qeyri-adi istedad sahibi, indi haqq dünyasına qovuşmuş Məmməd Dəmirçioğlu rəssam, heykəltəraş, tərtibatçı-dizayner olmaqla yanaşı, həm də qüdrətli bir söz adamı idi. Rəssam Qafar Sarıvəllinin rəssamlığı ilə yanaşı həm də sözə və saza böyük məhəbbəti var. Bu baxımdan Nəvai Metin də istisna deyil.

Yaradıcılıq Nəvai Metinin tale qismətidir. O, nə yaratsa məhəbbətlə yaradır.

Bu mənada onun indi haqqında danışmaq istədiyim "Kənd dedin..." şeiri də marqalıdır. Şeiri oxuduqca mənə elə gəldi ki, o, bu şeiri elə özünü dərk etdiyi gündən iç dünyasında yetişdirirmiş və bu vulkanın püskürmısi, dostu Sakitin bir sözünə bənd imiş. Son dərəcə səmimi və oxunaqlı, yaddaşa və qulağa yatandır.

Oxuduqca, oxumaq istəyirsən, oxuduqca xatirələr dil açır. Yaddaş dilə gəlir, hadisələr kino lenti kimi gözlərinin qabağından keçir.

Təmiz, saf dövrüydü o zaman dünyanın. Təbiət də, cəmiyyət də, zaman da, İnsanlar da saf idi. Riyadan, kindən, küdurətdən uzaq idi. Şair Nüsrət Kəsəmənli demiş, onda hələ "saçlılar keçəli aldada bilmirdi", "qarğalar tülküyə aldanmırdı":

*Kənd dedin, o vaxtlar yadıma düşdü,*
*Gözümün önünə gəldi o çağlar.*
*Təmiz vaxtlarıydı onda dünyanın,*
*Gül-çiçək açardı baxçalar-bağlar.*

Şeir sənə bənd-bənd, sətir-sətir nağıl, əfsanə, dastan danışır. Lakin bu nağıllar, əfsanələr, dastanlar canlıdır. Sənin iç dünyana təsir edir, uzaqlaraqərinələrin arxasında qalmış xatirələrə aparır:



*O vaxt başqa idi ayın özü də,*
*Əlini uzatsan, əlin çatardı.*
*O vaxtkı ulduzlar mənim gözümdə,*
*Elə bil durnaydı, qatar-qatardı.*

Xatirələr bir deyil, beş deyil, onlarla, yüzlərlədir. Əgər şeirin hər bir oxucuda oyatdığı xatirələri onların sayına vursaq minlərlə xatirələr əmələ gələr... Məhz şeirin, həm də onun müəllifinin gücü, qüdrəti də ondadır ki, bunu bacarıb.

Yadımdadır! Orta məktəbdə oxuyanda sinifimizdə əlaçı, həm də davranışı, əxlaqı, təbiəti və gözəlliyi ilə digərlərindən fərqlənən bir qız vardı. Az qala məktəbdə özünə güvənən oğlanların əksəriyyəti o qıza vurulmuşdu. Onlar, bir çox hallarda heç həmin qızın xəbəri olmadan bir-biri ilə savaşırdılar. Və qəribədir ki, o qız həmin dövrdə, onun uğrunda savaşanların heç birinə qismət olmadı.

Şeiri oxuyanda birdən mənə elə gəldi ki, Nəvai Mətin həmin olayı qələmə alıb:

*Məktəb illərini andım yenə də,*
*Məni ağuşuna aldı xəyallar.*
*Qız-oğlan bir yerdə dərs oxuyardı,*
*Müəllim görəndə qızarardılar.*

*Əlaçı qız vardı biznən oxuyan,*
*Oğlanlar onunçün yarışardılar.*
*Sinifdə o qıznan oturmaq üçün,*
*Böyük tənəfüsdə savaşardılar.*

Şeirdə etnoyaddaş, xalqın adət ənənəsi, Novruz bayramı, bayram atribut, adət və ənənələrinin uşaqlarda yaratdığı ovqat şeirdə təbii, olduğu kimi və canlı çalarlarla təqdim edilir:

*Elə ki, Novruzun sədası gəldi,*
*Hamı sevinərdi bir ay qabaqdan.*
*Çərşənbə tonqalı yandırmaq üçün,*
*Hazırlıq görərdik durub obaşdan.*

*Saca köz salardı şirin nənələr,*
*Bacada tüstülər yarışardılar,*
*Elə ki, kömbələr hazır olardı,*
*Nəvələr süfrəyə daraşardılar.*

Ta qədimdən bu günümüzə qədər, şifahi xalq ədəbiyyatında, folklorunmuzda, aşıq poeziyasında, hətta milli kinomuzda , bulaq başı, çeşmə başı sevənlərin görüş yeri, sevgi, əhd-peyman bir sözlə məhəbbət məkanı olub. Gənc oğlanlar özlərinə qəlb sirdaşı, ömür-gün yoldaşı seçmək istəyəndə bulaq başına üz tutmuşlar.

Qızlarımız öz gözaltılarını heç olmasa baxışları ilə süzmək üçün bulaq başına tələsmişlər. Bu mənada Aşıq Ələsgər

*Çərşənbə günündə çeşmə başında,*
*Gözüm bir alagöz xanıma düşdü... deyəndə,*

Xalq şairi Zəlimxan Yaqub "Ay bulaq başına tələsən gözəl, Ağlımı başımdan al, yavaş yeri"- deyəndə, görkəmli ədibimiz Yusif Vəzir Çəmənzəminli özünün məşhur romanını "Qızlar bulağı" adlandıranda da(bu səpkili misalların sayını çoxaltmaq da olar) bulaq, çeşmə ifadəsini təsadüfən işlətməmişlər.

Bulaq, çeşmə sözləri istər klassik poeziyamızda, istərsə də ondan sonrakı dövrdə qutsal bir məkan kimi işlədilmişdir.

Bulaq ifadəsi həm də xalqın bir mədəniyyət, əxlaq, sədaqət, etibar, əhdpeyman məkanı kimi təqdim edilmişdir. Nəvai Mətin də bu etno şeirində öz sələflərinin ənənəsini davam etdirir, həm də özünəməxsus, fərqli poetik ifadə ilə:

*Bulağın başına tək gedən gözəl,*
*Dönəndə qəlbində qoşa dönərdi.*
*Sanki yeriməzdi qayıdanda o,*
*Havada uçardı-quşa dönərdi.*

Şeir məzmun etibarı ilə iki hissədən ibarətdir. Birinci hissə oxucuda, onun iç dünyasında yığılıb qalmış, mürgüləyən xoş xatirələri oyadırsa, ikinci hissə bir qədər bədbin notlarla köklənmişdir.

Hesab edirəm ki, xalqın min illərin süzgəcindən süzülüb gələn milli-mənəvi dəyərləri heç zaman tükənən deyil.

Həmin dəyərlər zaman keçdikcə, elmi texniki proseslərin, yad mədəniyyətin təsirinə nə qədər uğrasa da öz milli mahiyyətini, məzmununu, heç zaman dəyişməyəcək daim yaşayacaq və yaşadılacaqdır.

Bir neçə kəlmə də Nəvai Metinin bu şeir üstə hazırladığı film-klip barədə fikirlərimi bölüşmək istədim.

Filmin texniki göstəricilərinə müdaxilə etmədən hesab edirəm ki, müəllif istəyinə və məqsədinə nail ola bilib. Filmin mətninə daxil edilən şəkillər və videogörüntülər şeirin məzmununu uğurla tamamlayır.

Əgər biz bura mətnin səsləndirilməsini də əlavə etsək onda, ümumuiyyətlə götürdükdə şeirin həm də uğurlu bir ekran həllinin tapıldığını yəqin etmiş olarıq. Daha maraqlısı da odur ki, mətni səsləndirən müəllifin özüdür.

Yəqin Nəvai Metin hesab edib ki, şeiri onun istədiyi kimi dinləyiciyə ancaq o çatdıra bilər. Və insafən desək yaxşı da alınıb.

Yekunda qeyd edim ki, "Kənd dedin..." şeirinin məzmunu Nəvai Metinin həyatının uşaqlıq və yeniyetmə dövründəki yaşantılarının və yaddaışında qalmış xatirələrin məcmusu, onun tərcümeyi-halının poetikləşmiş və ayrılmaz bir hissəsidir.

**Mən Nəvai Metinin bu şeirini, mənbəyini milli-mənəvi dəyərlərimizdən, etnik yaddaşımızdan götürüb gur çaylara istiqamət almış saf sulu, billur bir çeşməyə bənzətdim.**

# Qardaş Türk Əməkdaşlıq Təşkilatlarının rəhbərləri bir araya gəlib



**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda təşkilatın prezidenti Günay Əfəndiyeva TÜRKSOY-un Baş katibi Sultan Rayevlə görüşüb.**

Görüşdə türk xalqları arasındakı hərtərəfli dostluq münasibətlərinin daha da möhkəmlənməsində Türk Əməkdaşlıq Təşkilatları tərəfindən göstərilən səylərin önəmindən söz açılıb. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və TÜRKSOY-un Türk xalqlarına məxsus ortaq mədəni irsin təşviqi istiqamətindəki işləri üzrə ümumi söhbət aparılıb. Şuşanın "2023-cü il Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsinin mühüm əhəmiyyəti vurğulanaraq, bu səpkidə birgə təbirlərin həyata keçirilməsi müzakirə olunub. Görüşdə Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun təşkili ilə bağlı görülən hazırlıqlardan bəhs edilib.

Eyni zamanda, tərəflər Beynəlxalq Türk Dilləri Forumunun və digər layihələrin keçirilməsi, eləcə də Türk Dünyasının böyük şəxsiyyətlərinin ildönümlərinin qeyd olunması yönündə əməkdaşlığın vacibliyinə toxunub.

Görüşün sonunda qarşılıqlı hədiyyələr təqdim edilib və xatirə şəkilləri çəkilib.

# Yazıçı: "Bu bəşəri cinayətə dünya siyasilərinin ruhu alışmadı..."



**"Yaxın-uzaq zamanlarda mənsub olduğum xalqımın tarixində hissləri coşduran, beyinləri donduran məşəqqətli hadisələr çox olub. Ancaq Xocalı faciəsi qədər məni yandırıb, yaxanı olmayıb. Desəm, inanın nədəndir, bilmirəm.**

Bunu Adalet.az-a açıqlamasında professor, Bakı Qızlar Universitetinin təsisçisi, yazıçı Ağarəhim Rəhimov Xocalı faciəsinin 31-ci ildönümü haqda danışarkən deyib. Yazıçı Xocalıya azadlıq, həlak olanlara isə rəhmət diləyib:

"Anaların bətnindəki körpələrin qətlindənmi? Hələ dünyanın amansızlığını anlamayan uşaqların göz yaşlarının boğulmasındanmı, qəhqələrinin susdurulmasındanmı, ana-bala həsrətinə nöqtələrin qoyulmasındanmı, vahiməli gecələrdə insanların qorxusundan, həyəcanındanmı?! Bu bəşəri cinayətə dünya siyasilərinin ruhu alışmadı. Təəssüf, çox təəssüf. Mən Xocalıya azadlıq, əbədiyyətə qovuşanlarına rəhmət, ruhlarını canında gəzdirənlərə xoşbəxtlik diləyirəm".

**Vasif Əlihüseyn**



Aydın Bağırov

# Ayxan və "Turan"

*”Turan Tovuz” dalbadal üç oyundur qələbə qazanır. Özü də qapısından bir qol buraxmadan. Ən son komanda gəlib Bakıda ”Sabah”ı məğlub elədi.*

*”Sabah” bu mövsüm ikinci yox, hətta birinci yerə - çempionluğa oynayan klubdur. Özləri ictimai formada etiraf etməsə belə. Niyə də oynamasın?*

*Əsas rəqibi ”Qarabağ”la başabaş mübarizə aparır.*

*Büdcəsi bəlkə də 10 milyon manatı keçib.*

*Yaxşı baza, infrastruktur qurub.*

*Heyətində elə futbolçular var ki, onu bu gün Qurban Qurbanov da komandasında əsas heyətdə oynatmaq istəyər.*

*Usta bir baş məşqçisi var - Murad Musayev...*

*Amma komanda öz meydanında ”Turan”a uduzur.*

*Əlbəttə, uduzmaq faciə deyil. ”Turan”a uduzmaq da faciə deyil. Ona görə faciə deyil ki, idmanda udmaqla uduzmaq xeyirlə şərin daim bərabər addımlamağı kimi bir şeydir. Amma məsələ ”Sabah”ın necə məğlub olması yox, ”Turan”ın necə, hansı əziyyət bahasına qələbə qazanmasıdır.*

*Qələbə...*

*O heç vaxt göydən yerə zənbillə düşmür. Amma bizim futbolda indi də elə düşünənlər var ki, qələbə yerə məhz zənbillə düşür. Əlbəttə elə deyil. Əksinə göyə, yəni o uğura addım-addım, uzun pilləkənləri qalxan kimi qalxmaqla gedib özün çatmalısan: əziyyətlə, fədakarlıqla, səbrlə... və həm də vicdanla.*

*Vicdan...*

*Azərbaycan futbolu bu sarıdan illərdir əziyyət çəkir. Yoxsa vəzifəbazlıq, qohumbazlıq pərdəsi altında gizlənib ”Turan” kimi komandanı uydurma bəhanələrlə düz 9 il Premyer Liqaya buraxmamağın adı vicdansızlıq deyildi, bəs nə idi? Amma haqq, gec də olsa öz yerini tapır, əlbəttə. Ona görə ki, vicdanını qoruyan adamlar da var. Və onlar var olduqca, bu ölkənin talantları da yox olmayacaq. Onda ”Turan”ın yerli oyunçuları böyüyərək futbolumuzun siması olacaq. Ayxan Abbasov da işsiz qalmayacaq.*

*Ayxan Abbasov...*

*”Turan”ın indiki baş məşqçisi. Bundan əvvəlki klubunu tarixində ilk dəfə Avropaya çıxarsa da, elə tezliklə də həmin klubu tərəfindən hörmətsizcəsinə göndərilən bacarıqlı futbol adamı. Bu ölkəyə gətirilən xaricilərin milyonlarla manatın müqabilində edə bilmədiyini məhdud büdcəylə həyata keçirən adam.*

*Arxadan vurulmuş adam.*

*O zərbədən əyilməyib dik qalan adam.*

*Dik qalaraq KOMANDA yaradan adam.*

*Bizim adam.*

*Azərbaycana qalacaq adam...*

## Xəyalə Quliyeva: “İki aydır maaş almırıq”



**Aktrisa Xəyalə Quliyeva iki ay maaş almadığını bildirib.**

Adalet.az xəbər verir ki, bu barədə o, TikTok-da canlı yayım edərkən deyib. Xəyalə deyib ki, Türkiyədə baş verən zəlzələ səbəbindən dünyasını dəyişənlərə ehtiram əlaməti olaraq ”Komedixana” yayımlanmır. ””Komedixana” bu həftə də Türkiyədəki faciəyə görə olmayacaq. Konsertdən sonra iki çəkilişimiz olub. İki aydır maaş almırıq. Hamı qınayır, nələrsə deyir. Amma hər kəs də iş-gücündədir”,- deyə aktrisa bildirib.

## Kamran Ağabalayev: “Hörmətsiz aktyor və aktrisalar, başınızın çarəsinə baxın”



**Ramiz Novruza əgər ”Səni dünyalar qədər sevirdim” deyib, son mənzilə yola salmadısa, Milli dram teatr, Mədəniyyət nazirliyi, bu, o deməkdir ki, hörmətsiz aktyor və aktrisalar, başınızın çarəsinə baxın”.**

Adalet.az xəbər verir ki, bu sözləri aktyor Kamran Ağabalayev sosial şəbəkə hesabında yazıb. O, ötən gün vəfat edən Xalq artisti Ramiz Novruza biganə münasibətə görə təəssüfləndiyini bildirib: ”Yəni, Xalq artistinə, xalqın artistinə, Prezident təqaüdçüsünə göstərilən münasibətdir bu, indi özünüz fikirləşin... Çox heyf, əlimizi ürəyimizə qoyub, rahat şəkildə xalqın artisti dediyimiz biri idi Ramiz bəy...”.

## “Roshkarosh”: ““Dakkılı”nın qanında nəsə çıxmağında günahkar biz deyilik”

**TikTok platformasında canlı yayım zamanı söyüş söydüyünə görə saxlanılan ”Roshkarosh” ləqəbli Rövşən Süleymanzadə açıqlama verib.**

Adalet.az xəbər verir ki, bu barədə sözügedən platformada canlı yayımda danışıb. Azadlığa buraxılan tiktoker deyib ki, artıq qeyri-etik ifadələrdən istifadə etməyəcəklər: ”Yayımlarımız uyğun görüldüyü kimi olacaq. Camaata da sübut edəcəyik ki, biz təhqirsiz də əyləncəli ola bilərik. Bəlkə bir-iki gün ürəkdən deyib-gülə bilmərik. Analiz verdik, gözümün şahidiyəm ki, Səbuhi ilə mən təmiz çıxdım. Keçmişdə nəsə etmişəm, mənim problemimdir. Sabah da edə bilərəm. Bu da mənim problemimdir.

”Dakkılı”nın qanında nəsə çıxmağında günahkar biz deyilik. Analiz yalan olur? Əlbəttə günahkar özüdür, sabah məndə də nəsə çıxsa, deyəcəm günahkar filankəsdi. Əvvəl narkotik də istifadə etmişəm, içki də içmişəm, siqaret də çəkmişəm, onda görürdüz ki, arıq idim. Ən azından bilinirdi. İndi heç nə etmirəm. Sabahıma da qaranti vermirəm, nəsə etsəm, o da mənim problemimdir. Dərdini də mən çəkərəm. Bizi saxladılar, söyüşə görə cərimə yazdılar, izahatımızı aldılar. Hüseyn Məhəmmədoğlu bizdən şikayət etmişdi ki, söyüşlə danışırlar, ailəmiz baxır. Məni Dakkılını, Səbuhini çağırdılar, izahatımızı yazdıq”.

**Əntiqə**

# Əbülfət Mədətoğlu "Yaşa" - dedi

**Azərbaycanın ədəbiyyat camiyəsində öz sözü , öz yeri olan, mükəmməl qələm sahiblərindən biri də Əjdər Oldur. Bu gün onunla bağlı olan sözümün əvvəlindən, ilk öncə Allah qapısın açsın deyirəm. Və keçirəm şair Əjdər Olun ”Yaşa” adlanan kitabına...**



Bəri başdan xatırladım ki, mən Əjdər Olun əksər kitablarının, mətbuatda dərc olunmuş yazılarının oxucusuyam. Onun kitablarının bir qismi avtoqrafla mənə bağışlanıb. Bir qismini də özüm əldə etmişəm. Bunu ona görə xatırladıram ki, erkən gənclik illərimdən tanıdığım və sonra da səmimi münasibətlər yarada bildiyim Əjdər Olun söz dünyası mənim ruhuma yaxın olub.

Onu oxuyanda içimdə bir rahatlıq, fikirlərimdə bir aydınlıq yaranır. Ona görə də gözüm, bir çox qələm adamlarımız kimi, onun da imzasını axtarıb və bu gün də axtarır




Kitab rəfimə göz yetirərkən ”Yaşa” ilə qarşılaşdım. Bu ad əslində bir dua kimi, alqış kimi, istək kimi çəkdi məni özünə. Elə həmin o anın içərisində mənim də qəlbimdən ruhuma doğma olanlara Allahın eşidə biləcəyi bir dua diləmək istəyi gəlib keçdi. Və kitabı götürməzdən öncə əllərimi göyə açıb, həmin duanı edib sonda dedim ki, YAŞA

Bəli, söz adamı çəkəndə, onun könül rübabına toxunanda nə qədər istəsən də sakit dayana bilmirsən. Elə ”Yaşa” da belə etdi, nməni sakit buraxmadı. Bu adın izinə düşüb bilmirəm neçəni dəfə başladım kitabı vərəqləməyə ... Oxuduğum şeirləri təkarar gözdən keçirməyə

Hər şerin öz ovqatı, öz təsiri var!- Bu təbiidir. Çünki hər şer fərqli anın, fərqli duyğuların ifadəsidir. Məsələn:

*Mən bir ürək quruluşu qurmuşam,*
*Canla- başla qulluğunda durmuşam.*
*Bir köhləni çox dişimə vurmuşam,*
*Məndən sözü yaxşı bilir ürəyin,*
*Ürəyimdir, sevən cıdır, ürəyim!*

Bəli, bu nümənin özü hər birimizin sinəsində döyünən ürəyin hardasa bir cizgisini, bir hüceyrəsini, bir ovqatını poetik şəkildə yaddışımızda təzələyir və yenidən bizə xatırladır.

Çünki ürəyin ən önəmli bir xüsusiyyəti də sözü yaxşı tutması, yaxşı hiss etməsi, yaxşı dəyərləndirməsidir. Deməli, nə olur olsun biz o ürəyin orbitindəyik. Orada isə yerimiz səhv düşəndə, ürəyin haqqına girəndə biz də , ürək də ağrı çəkir, ağrı yaşayır. Ona görə də Əjdər Ol deyir ki,

*Bəlkə də günahlar heç bizdə deyil,*
*Dəyişik düşmüşük o gəl-getdə biz.*
*Bəlkə mənim yerim Yer üstə deyil,*
*Uzaqda, özgə bir planetdədir.*

Görürsünüzmü şair ürəyi nələrdən və necə bəhs edir !!! Deməli ürəyin istəyi, diqtəsi hiss etdiyi və xəyalında daşıdığı, qurduğu məhz özgə planetdir. O planet ki, orda ürək özünü layiq olduğu yerdə görə bilir.

Bax, bu mənada həyatımızn özündəki gerçəkliklərdən qaçmaq mümkün deyil. Doğrudur, bəzən biz bu gerçəkliyin yaradıcısına da çevrilirik. Daha doğrusu onu bu cür təqdim edirik. Və hər kəs də bizə qoşulub, o təqdimatı təkararlayır. Əgər xatırlayırsınızsa, unudulmaz şairimiz Nüsrət Kəsəmənlinin çiçəklərlə xüsüsi ilə bənövşə və qərənnfillə bağlı gözəl çox gözəl bir şeir yazmışdı. Onun ”Yumul, bənövşəm, yumul” müraciəti, ”İndi sevnlər üçün üç qərənfil dəbdədir” misraları zamanında sevənlərin dilinin əzbəri idi. Lakin ”20 yanvar” faciəmiz qərənfilləri yas çiçəyinə çevirdi. Bax Əjdər Ol da ürəyinin pıçıldadığı ”Yas çiçəyi” şeirini elə pıçıltı kimi də yazdı. Bu şeirdə Əjdər Ol bir çiçəyin taleyinə acımaqla yanaşı həm də onun necə şərəfləndiyini də gözdən qaçırmadı. Və vurğuladı ki,

*Can bacı, qanlı yanvar bizlərə gör neylədi?!*
*Bakı qərənfilini yas çiçəyi elədi.*

Və bunun ardınca Əjdər Ol poetik sözünün kulminasiya nöqtəsinə gəlib çıxır:

*Şəhidlər sıra- sıra, qərənfillər də say- say*
*Şəhid qardaşlarım vay, şəhid qərənfilim vay.*

Zənnimcə, burda başqa nəsə deməyə söz qalmır. Çünki Əjdər Ol şəhidliyin son mərtəbəsini, o zirvəni və ordakı ruhları ziyarət edən qərənfilləri yenidən bizim üçün təqdim edir.

Bizim üçün sevilən çiçəyə çevirir.Axı qərənfillər ŞƏHİDLƏRİN ZİYARƏTİNDƏDİ!!! Mən ”Yaşa” barəsində bu kiçik ovqat yazısını elə o kitabın adının təsir ilə bilgisayara diqtə etdim. Etməyə də bilməzdim. Çünki yaşamaq, yazmaq haqqı olanların qəlbindəki oxucu sevgisi bunu tələb edir.

**Şair hər yerdə, hər mərtəbədə sözünün yanındadır. Mən də sözünün yanında olan Əjdər Ola Yaşa, yaz- yarat! -deyirəm.**

# Xalq artisti: «İnanmıram ki, tarix boyu yaşanan müharibələrdə belə soyqırım törədilsin...»

**”Xocalı faciəsi hamımızın yaddaşında silinməyəcək bir iz qoyub. Yəni o ağrılı-acılı, faciəvi gecə qanlı yaddaşımızdır, tariximizdir. O işgəncəni millətimiz, balalarımız yaşadı və bu isə hamımızı ağrıtdı, qəlbimizi sızlatdı. Bu günə qədər də heç vaxt o hadisəni unuda bilməmişik. O gecənin lent yazılarına baxanda göz yaşımızı saxlaya bilmirik, ürəyimiz ağrımadan o görüntülərə baxmaq mümkün deyil. Yəni insan özünü o faciənin içində təsəvvür edərkən deyir ki, mən orda olsaydım, nə edərdim, balamı bağrıma basıb hansı səmtə qaçardım, hansı tərəfdə qaranlıq yer axatarardım ki, balama bir şey olmasın? O körpə balaların, yaşlı ağsaqqalların nə günahı var idi ki, o işgəncəni yaşadılar?!”**



Bunu Adalet.az-a açıqlamasında Xalq artisti Gülyanaq Məmmədova deyib. Müğənni belə bir faciənin törədilməsinin ağılasığmaz olduğunu bildirib:

”İllər ötsə də Xocalı faciəsi yaddan çıxası deyil və inanmıram ki, tarix boyu yaşanan müharibələrdə belə soyqırım törədilsin. Bizim millətimizə qarşı olan bu işgəncəni heç bir düşmən başqasına qarşı törətməyib. Müharibənin də öz qayda-qanunları var. Ermənilərin millətimizə qarşı törətdiyi bu soyqırım bizi həmişə ağrıdır, ağrıdacaq və heç vaxt unudulmayacaq.

Bir müddət öncə Özbəkistanda keçirilən beynəlxalq kino festivalında Azərbaycan kino günləri də keçirildi və orda mən də Gülyaz xanımla birlikdə iştirak etdik. Kino günləri Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində keçirildi. Mərkəzin direktoru Samir Abbasov tərəfindən də orda çıxışlar oldu. Orda bizim iki filmimiz -Ayaz Salayevin ”Torpaq” və İlqar Nəcəfovun ”Suğra və oğulları” nümayiş olundu. Bu filmlərimiz bizi gözyaşına boğdu, çünki millətimizin yaşadığı və o şiddətlərdən, məruz qaldığı anlardan xəbər verirdi. ”Torpaq” filmində bütün şahidlərin, günahsız insanların etirafları, orda görüb yaşadıqlarını deməsi sadəcə dəhşət idi. Siz təsəvvür edin ki, film bitəndən bir neçə saat sonra hələ də göz yaşımıza hakim ola bilmədik. Eyni zamanda, ”Suğra və oğulları” filmində də Böyük Vətən müharibəsində ərini müharibəyə yola salan qadınlarımızın yaşadıqlarından bəhs olunurdu. Biz bu hadisələri yaşamışıq və rejissorlarımız belə filmlər çəkir ki, gələcək nəsillər tariximizi bilsin. Bu filmlərin olması da vacibdir”.

**Vasif Əlihüseyn**

# Çuxur qazıb içində yaşayanların şəhəri

**Kuber Pedi Avstraliyanın cənubunda, Adelaida şəhərindən 846 km şimalda yerləşən şəhərdir. Burada demək olar ki, hamı yerin altında yaşayır. Jurnalist Kler Riçardson və fotoqraf Henninq Qoll insanlarla görüşmək üçün əraziyə gediblər. Kuber Pedi şəhəri haqqında maraqlı faktlar ortaya çıxarıblar.**

Cənubi Avstraliyanın cənubunda yerləşən Kuber Pedi Avstraliyanın opal mədən sənayesinin mərkəzində yerləşən bir şəhərdir. İndi Coober Pedynin yerli əhalisinin 60 faizi yerin altında yaşayır və şəhər davamlı həyatda lider olmaq yolundadır. Bəs Kuber Pedi şəhərini bu qədər maraqlı edən nədir?

Elə bir yer düşünün ki, yerin altına girdiyinizi hiss edirsiniz. Avstraliyanın cənub hissəsindəki kənd yerlərində yerləşən Kuber Pedi bu təsvirə uyğun gəlir və tez-tez yerli opal mədənlərinin incə qırmızı tozu ilə örtülür.

Daha sərin və yaşamaq üçün əlverişli bir iqlim əldə etmək üçün yerli insanlar bütün yaradıcılıqlarını köhnə mədənlərdə, hətta sığınacaqdan kilsəyə qədər yeraltı birlik yaratmaq üçün sərf etdilər. Bu gün Kuber Pedi əhalisinin təxminən 60 faizi yerin altında yaşayır.

Maraqlısı odur ki, Kuber Pedinin mənşəyi də yeraltıdır. Təxminən 100 il əvvəl bir gənc oğlan ərazidə bir neçə opal parçası aşkar etdi.

Buradan başlayan hekayə mədənçilərin bölgəyə axını ilə davam etdi, beləliklə, Coober Pedy qısa müddətdə dünyanın ən böyük opal mənbəyi oldu.



1970-80-ci illərdə şəhərdə 1000-ə yaxın mədənçi yaşayırdı. Bu gün Kuber Pedidə cəmi 100 mədənçi yaşayır.

Opal cənnəti olan Kuber Pedinin xüsusiyyətləri və hekayəsi haqqında eşitmiş ola bilərsiniz. Lakin bu maraqlı yeraltı şəhərciyin son vaxtlar diqqəti cəlb etməsinin başqa səbəbi də var: onun elektrik enerjisi layihəsi. 2017-ci ildə təqdim edilən layihəyə görə, Coober Pedynin bərpa olunan enerjisi bölgənin günəşli və küləkli havasından yararlanaraq şəhərin ehtiyac duyduğu enerjinin 70 faizini istehsal edir. Beləliklə, şəhərin çox hissəsi bərpa olunan enerji ilə təmin edilirdi. Bundan əlavə, Coober Pedy-dəki günəş panelləri Avstraliyanı dünyada olanlar arasında fərqləndirməyə müvəffəq oldu.

Yayda 53 dərəcə Selsiyə qalxdığı bilinən bir yerdə bu təmiz enerji mənbəyi şəhəri qızdırmaq üçün istifadə edilən dizel yanacağının istiliyindən və tüstüsündən azad olur. Təxminən 10 il əvvəl, opal mədən sənayesinin ortasında, Coober Pedy indi özünə rahatlıqla baxa bildiyi üçün yeni sakinləri cəlb edə bilir.

Maraqlı şeylərlə dolu şəhərdə əhalinin 60 faizi yerin altında yaşayır. 53 ildir opal hasilatı ilə məşğul olan Con Dunstan BBC Travel adından bölgəyə gələn jurnalist Kler Riçardson və fotoqraf Henninq Qolla müsahibəsində Kuber Pedidə yaşadığından danışır: ”Yeraltı yaşamağa öyrəşdikdən sonra, bir daha normal evdə yaşamaq istəmirsən.

Heç vaxt isitmə və soyutmaya ehtiyacınız yoxdur, yerin altında yaşamaq dincdir. 2018-ci ilin yayında dərəcələrimiz 53-ə çatanda dözülməz dərəcədə isti idi. Xüsusən də şimaldan küləklər əsəndə sanki çörək sexindəsən. Amma bu istiliyi minimuma endirməklə özümüzü yeraltı evlərimizdə rahat hiss etdik”.

Digər Kuber Pedi sakini Ceyson Rayt yeraltı bunker adlandırdığı evini bu sözlərlə təsvir edir: ”Mədəndən çevrilmiş dörd otaqlı yeraltı bunkerin yuxarıda iki yataq otağı var. Coober Pedy, bərpa və dəyişikliklərin edilə biləcəyi, pul itirməkdənsə, qazandığınız yerdir. Çünki qazdığımız hər yerdən opal mina çıxır. Məlumdur ki, bu şəhər opal mədənləri ilə tanınır”.

Əsrarəngiz Kuber Pedi şəhəri Hollivud filmlərinin dəsti kimi tanınır. Bu əsrarəngiz şəhərin maraqlı quruluşundan təsirlənən prodüserlər və rejissorlar filmlərini bu unikal məkanda çəkməyə üstünlük verirlər. Xüsusilə, şəhərdə tərk edilmiş görkəmi ilə iri zəhərli ilanlara ev sahibliyi edən Ay düzü kino adamlarının sevimli məkanlarından biri kimi tanınır. Səthi dəniz qalıqları ilə qarışan bu yerin döşəməsi gipslə parlaq şəkildə parlayır.

Yeraltı kilsələr və sənət qalereyası Cooper Pedy-də görməli yerlər arasındadır. Şəhərdə mükafat qazanan bir otel də var.

**19 otağı yeraltı, 31 otağı yer üzərində olan Desert Cave Hotel yayda çöldə 45, oteldə 25, qışda 10, oteldə isə 17 dərəcə isti hiss edir.**

**Emin**

## Dağıntılar altından tapılan, minlərlə insanın övladlığa götürmək istədiyi “möcüzə” uşaq



**Suriyada dağıntılar altında doğulan və Möcüzə olaraq anılan körpə Aya sağ qalan yeganə qohumları bibisi və ərinə verilib. AP-yə danışan ailə körpəyə ölən anasının adını qoyduqlarını açıqlayıb.**

Türkiyə və Suriyada minlərlə insanın ölümünə səbəb olan Kahramanmaraş mərkəzli zəlzələlərdən sonra dünyanın ən çox danışılan görüntülərindən biri olan və ”möcüzə” adlandırılan suriyalı körpə Aya indi yeni ailəsi ilə birlikdədir.

Suriyanın şimal-şərqindəki Afrinin Cinderes qəsəbəsində dağıntılar altında dünyaya gələn körpə Aya xilas edilərkən hələ də anasına göbək bağı ilə bağlı idi.

Axtarış-xilasetmə qrupları tərəfindən xilas edilən körpənin şəkli bütün dünyada əks-səda doğurub və zəlzələdə ümid simvoluna çevrilib.

Afrində xəstəxanaya aparılaraq müalicə olunan Ayanın anası, atası və 4 bacısının dağıntılar altında öldüyü öyrənildə, dünyada minlərlə insan körpəni övladlığa götürmək istəyib.

Xəstəxana hətta körpənin qaçırılması cəhdlərinin olduğunu və xüsusi təhlükəsizlik tədbirlərinin görüldüyünü açıqlayıb.

DNT skan edildikdən sonra möcüzəli körpə onun sağ qalan yeganə qohum xalası və əri Xəlil əl-Savadiyə verildi.

**Qeyd edək ki, episentri Kahramanmaraş olan zəlzələ Suriyada da böyük dağıntılara səbəb olub. İndiyədək zəlzələdə 5800-dən çox insan həlak olub.**

**Emin**

## Xalq artistinin oğlu: “Elə vərdiş etmişdik ki, o yanımızda yoxdur, amma haçansa qayıdacaq...”



**”İki il ötür və nə mən, nə də qardaşlarım inana bilmirik ki, bu necə keçdi. Biz heç birimiz Yalçın müəllimin yanımızda olmamasına öyrəşə bilmirik. Hər anımızda, dəqiqəmizdə onu axtarırıq. Onun qayğısına çox öyrəşmişik, hər zaman bizim yanımızda, ətrafımızda olub. Ona görə hələ də özümüzü onun yoxluğuna öyrəşdirə bilmirik”**

Bunu Adalet.az-a açıqlamasında Xalq artisti Yalçın Rzazadənin oğlu müğənni Mətin Rzazadə deyib. M.Rzazadə atasızlığın çox çətin olduğunu bildirib:

”Yalçın müəllim Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə Türkiyədə müalicə olunub. Ona görə hardasa biz elə vərdiş etmişdik ki, o yanımızda yoxdur və haçansa qayıdacaq. Evə qayıtdı və 6 ay sonra vəfat etdi. Lənkəranda dəfn olunmağı isə özü istəmişdi. Atası, anası, qardaşı da rayonda dəfn olunub. Özü də yaxınlarının yanında dəfn olunmasını istədi. Ona görə də biz onun sözündən çıxa bilməzdik. İl mərasimində ziyarətə getdik. Başqa vaxtlar da elə hər həftə bir neçə dəfə gedib qəbrini ziyarət edirik”.

M.Rzazadə atasının ifa etdiyi mahnılardan da danışıb və bu mahnılara sənətkarın öz möhrünü vurduğunu bildirib:

”Mahnılarının çoxunu ifa edirəm, amma hamısını yox. Çünki Yalçın müəllim o mahnılara öz möhrünü vurub. Ümumiyyətlə, mənə elə gəlir ki, onun mahılarını məndən yaxşı ifa edən olmayacaq. Səkkiz il onun tələbəsi olmuşam, ola bilsin genetik oxşarlığımız var. Amma yenə də onun hər mahnısını oxumuram. O mahnıları oxuyub korlamaq düzgün deyil, çünki xalq o mahnıları Yalçın müəllimin ifasında yaddaşına həkk edib”.

Qeyd edək ki, Xalq artisti Yalçın Rzazadənin vəfatından iki il ötüb.

## Aşıq Əhliman: “Əməliyyatdan sonra əzbərlədiyim şeirləri də yaddan çıxardım”



**Xəbər verdiyimiz kimi ötən il ürəyindən ağır əməliyyat keçirən tanınmış aşıq Aşıq Əhliman yaddaşında ciddi problemlər yarandığını bildirib.**

Aşıq Əhliman Adalet.az-a açıqlamasında bildirib ki, keçirdiyi ürək əməliyyatı onu çox sevdiyi sənətindən də müvəqqəti olaraq uzaq salıb:

”Ürək əməliyyatından sonra yaddaşımda ciddi problemlər yarandı. Köhnə xatirələr, əsgər yoldaşlarımın adlarına kimi yadımdadır. Amma dünən, o biri gün baş verən hadisələri yadımda saxlaya bilmirəm.

Həkimlər isə deyir ki, zamanla ürəyin öz fəaliyyətini tam bərpa edəndən sonra səhhətin də, yaddaşın da düzələcək”.

Aşıq Əhliman səhhətinə görə efirə də çıxa bilmədiyini deyib:

”Ona görə də efirlərə də çıxa, saz ifa edə bilmirəm. Ancaq hər gün Azərbaycan Dövlər Mədəniyyət və İncəsənət Universitetinə işə gəlib-gedirəm. Allahdan ümidimi kəsməmişəm, inanıram ki, sağalacam. Əməliyyatdan sonra əzbərlədiyim şeirləri də yaddan çıxardım. Hansı ki, saatlarla şeir deyib, saz ifa edirdim”.

**Vasif Əlihüseyn**

Xarici İşlər Nazirliyi tərəfindən Muradov Əmin Kamran oğluna verilmiş xidməti pasport itdiyi üçün etibarsız sayılır.

***

Abşeron rayonu Masazır kəndi “Qurtuluş” yaşayış kompleksi “RAHAT HƏYAT” + MTK-ya məxsus 10-cu binanın 5-ci mənzili üçün Hüseynov Rasim Əsgər oğluna (AZE № 08924559) verilmiş alış-satış müqaviləsi itdiyi üçün etibarsız sayılır.

”Avanqard Pres” jurnalının baş redaktoru Zərnişan Vəlixanlı kollektivi ilə birgə və Hüsniyyə Əlizadə Mənzər İbrahimovaya, Əsgər İbrahimova Əzizləri

**Ziya Əsgər oğlu İbrahimovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 119
Çapa imzalanmışdır: 24.02.2023